RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 145 (10165) 14 avqust 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İLHAM ƏLİYEV Zəngəzur dəhlizinin təşəbbüskarıdır

## Bu layihənin reallaşması regionda çoxtərəfli iqtisadi inteqrasiyanın bünövrəsini qoyacaq və dayanıqlı sülhü təmin edəcək

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri bölgənin hərtərəfli inkişafında müstəsna əhəmiyyətə malik yeni mərhələnin əsasını qoydu. Dövlətimizin başçısının Naxçıvana budəfəki səfəri yalnız bir sıra sənaye, nəqliyyat, şəhərsalma və sosial obyektlərin açılışı kimi deyil, muxtar respublikanın inkişaf çərçivəsinin müəyyənləşdirilməsi baxımından mühüm tarixi hadisəyə çevrildi. Səfər zamanı verilən tapşırıqlar, qəbul edilən qərarlar bir daha sübut etdi ki, Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı və müdafiə potensialının ən müasir texnikalarla, yeni komando qüvvələri ilə gücləndirilməsi dövlətimizin əsas prioritetlərindəndir.

Səfərin önəmli məqamlarından biri dövlətimizin başçısının Azərbaycan Televiziyasına verdiyi geniş müsahibə və Zəngəzur dəhlizi ilə bağlı mesajlar oldu. Prezident İlham Əliyev müsahibədə Zəngəzur dəhlizini, sadəcə, nəqliyyat xətti kimi deyil, Naxçıvanın təhlükəsizliyini, iqtisadi dirçəlişini, enerji ixracını və Azərbaycanın qlobal logistika strategiyasını özündə birləşdirən çoxşaxəli layihə kimi təqdim etdi. Dövlətimizin başçısı vurğuladı ki, Bakı üçün Zəngəzur dəhlizi hər şeydən əvvəl kommunikasiya bağlantısının bərpası, daha sonra isə beynəlxalq nəqliyyat magistralına çevrilmə layihəsidir. Prezident İlham Əliyev müsahibəsində dəhlizin gündəmə gətirilməsində Azərbaycanın qətiyyətli mövqeyini xüsusi vurğulayıb: "Zəngəzur dəhlizinin yaradılması, bildiyiniz kimi, bizim təşəbbüsümüz olub. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq".

Milli hədəflərdən olan bu proses zaman keçdikcə beynəlxalq müstəviyə çıxaraq qlobal güclərin də diqqət mərkəzinə düşüb. Ermənistanın müxtəlif bəhanələrlə prosesi tormozlamaq cəhdlərinə baxmayaraq, 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən tarixi görüş bu məsələdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Artıq Zəngəzur dəhlizi, yaxud digər adı ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) təkcə iki ölkə arasındakı münasibətlərin mövzusu deyil, ABŞ-nin də dəstəklədiyi genişmiqyaslı geosiyasi və logistik layihə kimi qəbul edilir. Dövlətimizin başçısı müsahibədə bu məqama diqqət çəkib: "TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq - avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək".

8

# Almaniya hökuməti Prezident İlham Əliyevin səfərinin nəticələrindən çox məmnundur

## Prezident İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də Almaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dirk Lölkeni qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ötən ay Almaniyaya rəsmi səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfər zamanı Prezident Frank-Valter Ştaynmayer və Kansler Fridrix Merts ilə ikitərəfli əlaqələr və beynəlxalq məsələlər üzrə yaxşı müzakirələrin aparıldığını vurğuladı, ölkələrimizin regional sabitlik, təhlükəsizlik və inkişafla bağlı baxışlarının üst-üstə düşdüyünü qeyd etdi. Müzakirələr zamanı potensial əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirildiyini, bunların qarşılıqlı anlaşmaya və tərəfdaşlığımızın inkişafına gətirib çıxardığını deyən dövlətimizin başçısı Berlində imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyətini vurğuladı, bunun münasibətlərimizi keyfiyyətcə üstün səviyyəyə qaldırdığını bildirdi.



Prezident İlham Əliyev qeyd etdi ki, bu gün biz artıq bir çox sahələrdə strateji qarşılıqlı əlaqələr haqqında danışırıq və ticarət, investisiyalar, biznes sahələrində mövcud olan imkanlar ikitərəfli əlaqələrimizi gücləndirir. Dövlətimizin başçısı səfirin Azərbaycanda fəaliyyətə onun Almaniyaya rəsmi səfərindən sonra başladığını vurğulayaraq, bunun ikitərəfli əlaqələrin gələcək inkişafı baxımından çox önəmli olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə minnətdarlığını bildirən Dirk Lölke ötən il avqustun 8-də Azərbaycanla Ermənistan arasında Vaşinqtonda keçirilmiş Zirvə Görüşünün birinci ildönümü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində regionda sülh gündəliyinin məhz Azərbaycanın təşəbbüsü ilə başladığını, sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin səylərini bundan sonra da davam etdirəcəyini və bölgədə sülhün artıq dönməz olduğunu bir daha vurğuladı.

Səfir Almaniya hökumətinin Prezident İlham Əliyevin səfərinin nəticələrindən çox məmnun olduğunu qeyd etdi. O, müzakirə olunmuş işlərin tezliklə icra ediləcəyinə ümidvarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər və son dövrlərdə bu əlaqələrin inkişafında müşahidə olunan müsbət dinamika vurğulandı.

Həmçinin "Şərq-Qərb" nəqliyyat dəhlizi və Almaniya şirkətlərinin gələcəkdə bu marşrutun imkanlarından istifadə etmələri, ənənəvi və bərpaolunan enerji, eləcə də təhsil sahələrində əməkdaşlıq imkanlarına toxunuldu.

# Azərbaycan-Pakistan strateji tərəfdaşlığı zamanın sınağından uğurla çıxıb



Azərbaycan ilə Pakistan arasında iqtisadi əlaqələr 2025-2026-cı illərdə strateji tərəfdaşlıq, ikitərəfli investisiya layihələri və ticarət dövriyyəsinin artırılması istiqamətində dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Son illər müntəzəm olaraq hökumətlərarası komissiyaların, ticarət, sərmayə və kənd təsərrüfatı sahəsində işçi qruplarının görüşləri keçirilmişdir. 2026-cı ilin ortalarında Azərbaycan ilə Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə birgə işçi qrupunun növbəti iclasları keçirilmiş, tekstil, turizm, kiçik və orta biznes subyektləri arasında əlaqələrin dərinləşdirilməsi müzakirə olunmuşdur. Azərbaycan eyni zamanda Pakistan ilə BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq edir.

10

# Naxçıvanın sosial-iqtisadi inkişafında yeni mərhələ başlayır

Son illər Naxçıvanın inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər qədim diyarın iqtisadi potensialının yeni müstəvidə dəyərləndirilməsi üçün mühüm zəmin yaradıb. Enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat, sahibkarlıq və sosial infrastruktur sahələrində atılan addımlar Naxçıvanın gələcək inkişaf konturlarını daha aydın göstərir. Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamı məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır.

6

# Azərbaycan diplomatiyasının fəallığı Cənubi Qafqazda sülhə və əməkdaşlığa yeni təkan verir

Çoxsaylı faktların təhlili əsasında ekspertlərin gəldiyi qənaət belədir ki, Vaşinqton razılaşmasının şərtlərinə uyğun olaraq Azərbaycan bir il müddətində nəticəverici fəaliyyət göstərmişdir. Artıq Ermənistanla nəqliyyat, yüklərin daşınması və enerjidaşıyıcıları ilə təminat məsələsində konkret əməkdaşlıq mühiti yaradılmışdır. Bu "...əməkdaşlıq Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olub. Rəsmi Bakı




Vaşinqton görüşündə əldə edilən razılığa və imzalanan sənədlərə uyğun olaraq sülh, normallaşma prosesinə töhfələr verir". Qarşı tərəfin fəaliyyəti ilə bağlı qənaət isə aşağıdakı kimidir: "Təəssüf ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri həyata keçirməkdə ləng fəaliyyət göstərir. İki ölkə arasında münasibətlərin normallaşması və yekun sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasındakı təcavüzkar preambula və müddəalar qalır.

10

# Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana buğda göndərilib

Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti tədarük həyata keçirilib.

AZƏRTAC xəbər verir ki, 20 vaqondan ibarət, çəkisi 1400 ton olan buğda avqustun 13-də Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.



Qeyd edək ki, indiyədək Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana 39 min tondan çox taxıl, 9 min tonadək gübrə, 1136 ton propan, 133 ton alüminium, 1114 ton kömür və 67 min ton taxta göndərilib.

Eyni zamanda indiyədək Azərbaycandan Ermənistana 15 min tona yaxın dizel, 5 min tonadək Aİ-92 və Aİ-95 benzini ixrac olunub.

# Toxumçuluq haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu, 11-ci və 13-cü bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında toxumun istehsalı, emalı, tədarükü, saxlanması, daşınması, ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı, sertifikatlaşdırılması və keyfiyyətinə nəzarətlə bağlı yaranan münasibətləri tənzimləyir, bu sahədə fəaliyyət göstərən subyektlərin və dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin hüquqi,iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1.Əsas anlayışlar**

1.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1.**altsistem -** toxumçuluq obyektləri və subyektləri barədə məlumatların toplanılmasını, təhlilini, hesabatlılığını, habelə toxum əməliyyatçılarının qeydiyyatını, bu Qanunun 1.1.16-cı maddəsində nəzərdə tutulmuş Reyestrdən çıxarışın verilməsini və toxumun sertifikatlaşdırılmasını elektron qaydada təmin edən proqram təminatı və texnoloji avadanlıqların məcmusu olan, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin struktur hissəsi;

1.1.2. **bitki materialının xətti -** müəyyən xüsusiyyətlərə (məhsuldarlıq, xəstəliyə davamlılıq, ölçü və s.) görə seçilmiş və ayrılmış bitki nümunəsinin ardıcıl nəsli;

1.1.3.**dövlət toxumçuluq qurumu -** toxumçuluq haqqında normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən, toxumçuluq sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edən və həmin siyasətin, habelə toxumçuluq sahəsində əlaqələndirməni təmin edənmüvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.1.4.**elit toxum -** seleksiyaçı və ya onun səlahiyyət verdiyi şəxsin nəzarəti altında orijinal toxumun çoxaldılmasından alınmış sertifikatlaşdırılmış toxum;

1.1.5.**əsas (baza) ting -** əsas (baza) əkin materiallarından əldə olunan cavan bitki;

1.1.6.**hibrid -** genetik cəhətdən fərqli valideyn formalarının nəzarət olunan çarpazlaşdırılması nəticəsində alınmış bitki və ya onun çoxaltma materialı;

1.1.7.**"invitro" -** bərpa, çoxaldılma, toxuma kulturası üzrə tədqiqatların sınaq şüşəsində təcrübə qoyulmaqla aparılması;

1.1.8.**kənd təsərrüfatı bitkiləri -** qida məhsulları, sənaye üçün xammal, yem, dərman, bəzək (dekorativ), bioenerji (biokütlə), kommersiya məqsədilə becərilən (yetişdirilən), istehsal edilən bitkilər;

1.1.9. **laboratoriya ekspertizası -** toxumun hansı bitki növünə, cinsinə və sortuna aid olduğunu müəyyən edən, həmçinin toxumun əslini, mənşəyini və sorttəmizliyini təsdiqləyən elmi-laborator müayinə üsulu;

1.1.10. **laboratoriya müayinəsi -** müayinələrin aparılması vasitəsilə toxumun sortluq təmizliyinin və müəyyən sorta mənsub olmasının təyin edilməsi;

1.1.11. **meşə bitkiləri -** meşə təsərrüfatında istifadə edilən ağac,kol və ot bitkiləri;

1.1.12. **orijinal ting -** orijinal əkin materiallarından əldə olunan cavan bitki;

1.1.13. **orijinal toxum -** bu Qanunun 1.1.16-cı maddəsində nəzərdə tutulmuş Reyestrədaxil edilmiş sortun seleksiyaçı və ya onun səlahiyyət verdiyi şəxs tərəfindən dövlət toxumçuluq qurumunun nəzarəti altında istehsal edilən sertifikatlaşdırılmış toxumu;

1.1.14. **qrunt nəzarəti -** bitkilərin və toxumların konkret sorta məxsusluğunun (sortun əsilliyinin) müəyyən edilməsi üçün xüsusi sahələrdə toxumun səpilməsi və sonradan bitkilərin sortluq təmizliyinin müqayisəli təyini;

1.1.15. **risk -** toxum əməliyyatçılarının fəaliyyəti nəticəsində fiziki və hüquqi şəxslərin qanuni mənafelərinə, dövlətin əmlak mənafelərinə zərərin vurulma ehtimalı;

1.1.16. **seleksiya və toxumçuluq sahəsində informasiya ehtiyatı (bundan sonra - Reyestr) -** seleksiya nailiyyətləri (sortlar və hibridlər, cinslər), qeydiyyata alınmış toxum əməliyyatçıları, seleksiya nailiyyətlərindən istifadə ilə əlaqədar bağlanmış müqavilələr və toxumluq əkinlər barədə məlumatların (qeydlərin) məcmusu;

1.1.17. **seleksiyaçı -** seleksiya nailiyyətini yaradan, onu aşkar edib təkmilləşdirən şəxs, onunla seleksiya işinin aparılması məqsədilə xidməti və ya əmək müqaviləsi bağlayan, patent sahibi olan, yaxud patent sahibinin işini yerinə yetirməyə səlahiyyət verilmiş şəxs, o cümlədən onların hüquqi varisi;

1.1.18. **sertifikatlı ting -** sertifikatlı əkin materialından əldə edilən cavan bitki;

1.1.19. **sertifikatlı toxum -** elit toxumun ardıcıl çoxaldılmasından alınmış C1, C2 və s. kateqoriyalı sertifikatlaşdırılmış toxum, o cümlədən sertifikatlaşdırılmış birinci nəsil hibridlər;

1.1.20. **sort -** eyni genotip (bitkinin xromosomlarında yerləşən bütün genlərin cəmi) və fenotiplərin (bitkinin xarici əlamətlərinin cəmi) əlamətlərini səciyyələndirən, həmin botaniki taksona (bitkinin sistematik ölçü vahidi) aid digər bitki qruplarından ən azı bir əlamətlə fərqlənən oxşar bitkilər qrupu;

1.1.21. **sortdəyişmə -** bitki sortlarının yeni, daha məhsuldar və keyfiyyətli sortlarla əvəz olunması;

1.1.22. **sortluq və səpin keyfiyyətləri -** toxumun sorta məxsus genetik təmizliyi və səpinə yararlılığının kompleks göstəriciləri;

1.1.23. **sorttəmizliyi -** kənd təsərrüfatı bitkilərinin əsas sortunun gövdələrinin sayının ümumi gövdələrinin sayına nisbəti;

1.1.24. **sorttəzələmə -** sorttəmizliyi və bioloji keyfiyyəti pisləşmiş toxumların həmin sortun yüksək reproduksiyalı və keyfiyyətli toxumları ilə əvəz edilməsi;

1.1.25. **sortun rayonlaşdırılması -** sortun müxtəlif torpaq-iqlim şəraitlərində yetişdirilərək onun bioloji davamlılığına və təsərrüfat faydalılıq xüsusiyyətlərinə uyğun coğrafi ərazilərin müəyyənləşdirilməsi prosesi;

1.1.26. **standart ting -** standart əkin materialından əldə edilən cavan bitki;

1.1.27. **tarla müfəttişi -** tarla nəzarətini həyata keçirmək hüququ olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) mütəxəssisi;

1.1.28. **tarla nəzarəti -** toxumluq əkin sahələrində növbəli əkin sisteminə əməl olunmasının, əkinlərin sorttəmizliyinin, bitkilərin sort tipikliyinin, xəstəliyə yoluxmasının, ziyanvericilər tərəfindən zədələnməsinin və alaqlanma dərəcəsinin sahədə yoxlanılması, habelə məhsuldarlığın proqnozlaşdırılması və təyini;

1.1.29. **ting -** bağların, meşələrin, yaşıllıqların salınması və dekorativ məqsədlər üçün istifadə edilən öz kökü üstə bitən, o cümlədən calaq edilmiş cavan bitki;

1.1.30. **toxum -** bitki sortlarının təkrar istehsalı məqsədilə istifadə edilən bitkilərin generativ və vegetativ orqanları (toxum, spor, çilik, ting, soğanaq, kök yumruları, mitselli və s. daxil olmaqla);

1.1.31. **toxum əməliyyatçısı -** Reyestrə daxil edilən sortun toxum istehsalı, emalı, tədarükü, saxlanması, ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı ilə məşğul olan və Reyestrdə qeydiyyata alınmış fiziki və ya hüquqi şəxs;

1.1.32. **toxumun keyfiyyətinə nəzarət -** tarla nəzarəti, qrunt nəzarəti, laboratoriya müayinəsi və ekspertizası ilə toxumun sortluq və səpin keyfiyyətlərini müəyyən etmək, onun toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə cavab verməsini təmin etmək məqsədilə həyata keçirilən fəaliyyət;

1.1.33. **toxum müfəttişi -** toxumçuluq sahəsində dövlət nəzarətini bilavasitə həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əməkdaşı;

1.1.34. **toxum partiyası -** mənşəyinə, sortluq və səpin keyfiyyətlərinə görə eyni (homogen) olan toxum kütləsi;

1.1.35. **toxumçuluğa dövlət nəzarəti -** kənd təsərrüfatı və meşə bitkilərinin toxumçuluğu sahəsində fəaliyyət göstərən fiziki və mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər tərəfindən normativ hüquqi aktların tələblərinin yerinə yetirilməsinə nəzarət;

1.1.36. **toxumçuluq -** kənd təsərrüfatı və meşə bitkilərinin toxumlarının çoxaldılması məqsədilə həyata keçirilən toxumların istehsalı, emalı, tədarükü, saxlanması, ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı, toxumun keyfiyyətinə nəzarətə dair elmi, aqrotexniki və təşkilati tədbirlər sistemi;

1.1.37. **toxumun sertifikatlaşdırılması -** Reyestrə daxil edilən sortun toxum partiyasının sortluq və səpin keyfiyyətlərinin, habelə toxumçuluq sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verməsinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yoxlanılması və yazılı, o cümlədən elektron formada təsdiqi.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

**Maddə 2. Toxumçuluq haqqında qanunvericilik**

2.1. Toxumçuluq haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, "Seleksiya nailiyyətləri haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikasının qanunlarından və digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Ələt azad iqtisadi zonasında toxumçuluq sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

2.3. Meşə bitkilərinin toxumçuluğu ilə bağlı bu Qanunla tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının meşə qanunvericiliyi ilə tənzimlənir.

**Maddə 3. Toxumçuluğun məqsəd və prinsipləri**

3.1. Toxumçuluğun məqsədi yüksək məhsuldarlığa və sabit irsi əlamətlərə malik, zərərli orqanizmlərə və müxtəlif iqlim amillərinə dözümlü bitki sortlarını və hibridləri müəyyənləşdirmək və yetişdirmək, onların çoxaldılmasını təmin etmək, bioloji müxtəlifliyi qorumaq, qeydiyyata alınmış bitki sortlarının sorttəmizliyini, bioloji və məhsuldarlıq keyfiyyətlərini saxlamaq üçün sortdəyişmə və sorttəzələməni həyata keçirməklə toxumların kütləvi artırılmasını təşkil etməkdir.

3.2. Toxumçuluq aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

3.2.1.sortun və hibridin səciyyəvi xüsusiyyətlərini təyin etməyə imkan verən fərqlilik, oxşarlıq, sabitlik və digər əlamətlərin qorunub saxlanması;

3.2.2.toxum istehsalında təsdiq edilmiş becərilmə sxemlərinə və artırılma ardıcıllığına riayət olunması;

3.2.3. toxumun sertifikatlaşdırılmasının məcburiliyi;

3.2.4. sortun rayonlaşma qaydalarına əməl edilməsi;

3.2.5.toxumçuluq sahəsində fəaliyyətin izlənilməsinin təmin edilməsi;

3.2.6.yüksək səpin keyfiyyətinə və məhsuldarlığa malik sağlam toxumların yetişdirilməsi.

**Maddə 4. Toxumçuluğun obyektləri və subyektləri**

4.1. Toxumçuluqda istifadə edilən bitki materialları, onların hibridləri, populyasiyaları, klonları, xətləri və toxumluq əkinlər toxumçuluğun obyektləridir.

4.2. Toxumçuluq sahəsində (toxumların istehsalı, emalı, tədarükü, saxlanması, daşınması, ticarət dövriyyəsi, o cümlədən idxalı, ixracı) fəaliyyət göstərən hüquqi və fiziki şəxslər, habelə dövlət orqanları (qurumları) toxumçuluğun subyektləridir.

### 2-ci fəsil
### TOXUMÇULUQ SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ NƏZARƏTİ

**Maddə 5. Toxumçuluq sahəsində dövlət tənzimləməsi**

5.1. Azərbaycan Respublikasında toxumçuluq sahəsində dövlət tənzimlənməsininəsas istiqamətləri aşağıdakılardır:

5.1.1.toxum istehsalı sahəsində fundamental, tətbiqi və eksperimental elmi tədqiqatların aparılması;

5.1.2.toxumçuluğun elmi təminatı;

5.1.3.toxumların keyfiyyəti və sertifikatlaşdırılması üzrə normativ tələblərin müəyyənləşdirilməsi;

5.1.4.toxumçuluğun obyekt və subyektlərinin qeydiyyata alınması;

5.1.5.toxumçuluq subyektlərinin qanuni mənafelərinin və hüquqlarının qorunması;

5.1.6.toxumçuluğa dövlət dəstəyi və nəzarəti;

5.1.7.dövlət vəsaiti hesabına dövlət toxum ehtiyatı fondlarının yaradılması, saxlanması və istifadəsi;

5.1.8.toxumçuluğun maliyyələşdirilməsi;

5.1.9.Reyestrin və onun altsisteminin təşkili və aparılması;

5.1.10. toxumların sortluq və səpin keyfiyyətlərinin müəyyən edilməsi;

5.1.11. tarla müfəttişlərinin fəaliyyətinin təşkili;

5.1.12. toxumluq əkinlərin tarla nəzarətinin aparılması;

5.1.13. sərgilərdə nümayiş etdirilməsi, hüquqi və fiziki şəxslər tərəfindən öz əkinlərində təsərrüfat sınaqlarının aparılması məqsədilə idxal olunan toxumların miqdarının (kütləsinin) müəyyən edilməsi.

**Maddə 6. Toxumçuluğa dövlət dəstəyi**

6.1. Azərbaycan Respublikasında toxumçuluğa dövlət dəstəyi aşağıdakılardan ibarətdir:

6.1.1. yerli toxumların istehsalı və satışı üçün subsidiyaların verilməsi;

6.1.2.toxumçuluq sahəsində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə güzəştli şərtlərlə kreditlərin verilməsi;

6.1.3.toxumluq əkinlərin sığortalanması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;

6.1.4.toxumçuluq sahəsində tarif (qiymət) siyasətinin həyata keçirilməsi;

6.1.5.normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər iqtisadi təşviq tədbirlərinin tətbiqi.

**Maddə 7. Toxumçuluğa dövlət nəzarəti**

7.1. Toxumçuluq sahəsində dövlət nəzarəti dövlət toxumçuluq qurumu tərəfindən həyata keçirilir.

7.2. Toxumçuluq sahəsində dövlət nəzarəti aşağıdakı istiqamətlərdə həyata keçirilir:

7.2.1.toxumun keyfiyyətinə nəzarət;

7.2.2.toxumçuluq subyektlərinin normativ hüquqi aktların tələblərinə uyğun fəaliyyət göstərmələrinə nəzarət;

7.2.3.bitki sortlarının dövlət sınağına nəzarət.

7.3. Toxumçuluq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydası "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 8.Toxumçuluğun elmi təminatı**

Azərbaycan Respublikasında toxumçuluğun elmi təminatı toxumçuluq sahəsində elmi fəaliyyətlə məşğul olan elmi tədqiqat institutları, digər elmi müəssisə və təşkilatlar, ali təhsil müəssisələri, habelə elm və innovasiya fondları tərəfindən həyata keçirilir.

8.1. Toxumçuluq sahəsində elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi dövlət büdcəsinin vəsaiti, elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, kreditlər, qrantlar, ianələr və qanunda nəzərdə tutulan digər mənbələr hesabına həyata keçirilir.

**Maddə 9. Toxumların keyfiyyətinə və sertifikatlaşdırılmasına dair tələblərin normalaşdırılması**

9.1. Toxumların keyfiyyətinin təmin edilməsi və sertifikatlaşdırılması sahəsində normalaşdırma toxumların keyfiyyətinə dair tələbləri, onların istehsalı, emalı, qablaşdırılması, etiketləşdirilməsi, sertifikatlaşdırılması, daşınması, tədarükü, saxlanması, ticarət dövriyyəsi, utilizasiyası, zərərsizləşdirilməsi və məhv edilməsi şərtlərinə dair ekoloji, sanitariya norma, qayda və tələbləri müəyyənləşdirən normativ hüquqi aktlara uyğun həyata keçirilir və həmin aktların tələblərinin icra edilməsi toxumçuluq subyektləri üçün məcburidir. Toxumların keyfiyyətinə və sertifikatlaşdırılmasına dair tələblər toxumçuluq sahəsində texniki normativ hüquqi aktlarla müəyyən edilir.

9.2. Toxumçuluq sahəsində texniki normativ hüquqi aktların hazırlanması və qəbulu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

9.3. Toxumların istehsalı, emalı, qablaşdırılması, etiketləşdirilməsi, daşınması, tədarükü, saxlanması, idxalı, ixracı, utilizasiyası, zərərsizləşdirilməsi və məhv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

9.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı olan ölkənin toxumçuluq sahəsində texniki normativ hüquqi aktlarının Azərbaycan Respublikasında tələb edilən toxumların sortluq və səpin keyfiyyətlərinin eyni və ya daha yüksək səviyyəsini təmin etdiyi müəyyən edilərsə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu halda, bu cür texniki normativ hüquqi aktların Azərbaycan Respublikasında tətbiq edilən eyni texniki normativ hüquqi aktlara ekvivalentliyi tanınır.

9.5. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu halda, Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı olan ölkənin toxumçuluq sahəsində texniki normativ hüquqi aktlarının Azərbaycan Respublikasında tətbiq edilən eyni texniki normativ hüquqi aktlara ekvivalentliyinin tanınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 10. Toxumçuluğun maliyyələşdirilməsi**

Toxumçuluq dövlət büdcəsinin vəsaiti, toxumçuluq sahəsində həyata keçirilən tədbirlərə və göstərilən xidmətlərə görəhüquqi və fiziki şəxslər tərəfindən ödənilən vəsait, ianələr, qrantlar, cəlb edilən investisiyalar və qanunda nəzərdə tutulmuş digər maliyyə mənbələri hesabına maliyyələşdirilə bilər.

10.1. Toxumçuluq sahəsində aşağıdakı xərclər Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir:

10.1.1. bu Qanuna, sahibkarlara münasibətdə həmçinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq toxumçuluq sahəsində yoxlama tədbirlərinin həyata keçirilməsi;

10.1.2. dövlət toxum ehtiyatı fondlarının yaradılması və saxlanılması;

10.1.3. toxumçuluq sahəsində dövlət sifarişi ilə elmi tədqiqat işlərinin aparılması, mütəxəssislərin hazırlanması və əlavə təhsili;

10.1.4. məqsədli dövlət və regional proqramların icrası çərçivəsində toxumçuluq sahəsində tədbirlərin görülməsi.

10.2. Toxumçuluq sahəsində aşağıdakı tədbirlər və xidmətlər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilir:

10.2.1. sertifikatlaşdırma məqsədilə toxumluq əkinlərdə tarla nəzarətinin aparılması;

10.2.2. toxumların sortluq və səpin keyfiyyətlərinin laboratoriya müayinəsi;

10.2.3. toxumların sorta uyğunluğunun (identifikasiyasının) laboratoriya ekspertizası;

10.2.4. toxumların sortluq və səpin keyfiyyətlərinin laboratoriya müayinəsi və ekspertizası məqsədilə toxum partiyalarından nümunələrin götürülməsi;

10.2.5. toxumların genetik modifikasiya olunmasının və ya müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmasının müəyyən edilməsi üçün molekulyar-bioloji ekspertizası;

10.2.6. toxum əməliyyatçılarının qeydiyyatı ilə bağlı Reyestrdən çıxarışın və onun dublikatının verilməsi;

10.2.7. toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatın verilməsi;

10.2.8. təyinatı üzrə istifadəyə yararsız, o cümlədən genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış bitki toxumlarının götürülməsi, daşınması, saxlanması, ekspertizası, zərərsizləşdirilməsi və ya məhv edilməsi.

10.3. Toxum əməliyyatçılarının qeydiyyatı ilə bağlı Reyestrdən çıxarışın və onun dublikatının, habelə toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsinə görə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğlərdə dövlət rüsumu tutulur.

10.4. Bu Qanunun 10.3.1-ci, 10.3.3-cü, 10.3.5-ci və 10.3.8-ci maddələrində nəzərdə tutulmuş, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya edilmiş sınaq laboratoriyalarında həyata keçirildiyi halda bu Qanunun 10.3.2-ci və 10.3.4-cü maddələrində nəzərdə tutulmuş tədbirlərə və xidmətlərə görə xidmət haqlarının məbləğləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 11. Toxum müfəttişlərinin vəzifələri və hüquqları**

11.1. Toxum müfəttişlərinin vəzifələri aşağıdakılardır:

11.1.1. toxum əməliyyatçıları tərəfindən toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini həyata keçirmək;

11.1.2. toxum əməliyyatçıları tərəfindən toxumçuluq sahəsində həyata keçirilən fəaliyyətin keyfiyyətini yoxlamaq;

11.1.3. toxum əməliyyatçıları tərəfindən toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinin pozulmasına dair bildirişlər vermək;

11.1.4. toxumdan (toxum partiyasından) sertifikatlaşdırma məqsədilə götürülmüş nümunələrin toxumçuluq sahəsində normativ hüquqi aktlarla müəyyən edilmiş müddətlərdə saxlanılmasını təmin etmək;

11.1.5. toxumların aidiyyəti üzrə (məqsədli) istifadəsinə (istehlakına) nəzarət etmək;

11.1.6. ölkədə toxumçuluğun vəziyyətinin öyrənilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada informasiya toplanılmasını, müşahidə, təhlil, qiymətləndirmə və idarəetmənin effektivlik vəziyyətinin proqnozlaşdırılmasını həyata keçirmək;

11.1.7. toxum bazarının konyukturunu öyrənmək, təhlil etmək və müvafiq təkliflər vermək;

11.1.8. toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə uyğun gəlməyən və bu Qanunla nəzərdə tutulmuş sənədləri olmayan toxumların toxumluq əkin məqsədilə satılmasını qadağan etmək;

11.1.9. toxum əməliyyatçılarından patent sahibi ilə müqavilə bağlanmasını tələb etmək;

11.1.10. toxumçuluq haqqında normativ hüquqi aktların pozulmasına görə təqsiri olan şəxslərin normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb edilməsi üçün aidiyyəti üzrə tədbirlər görmək;

11.1.11. bu Qanunda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

11.2. Toxum müfəttişlərinin hüquqları aşağıdakılardır:

11.2.1. toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarəti tədbirlərinin həyata keçirilməsi məqsədilə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada toxum əməliyyatçılarına məxsus obyektlərə baxış keçirmək və toxum əməliyyatçılarından məlumat və sənədlər almaq;

11.2.2. sertifikatlaşdırılmış toxumlardan yoxlama məqsədilə nümunələr götürmək;

11.2.3. bu Qanunda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

11.3. Toxum müfəttişləri təsviri və nümunəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş vəsiqə ilə təmin edilir.

**Maddə 12. Toxumçuluq sahəsində risklərin idarə olunması**

12.1. Toxumçuluq sahəsində risklərin idarə olunması toxum əməliyyatçılarının risk qrupunun müəyyən edilməsi və dəyişdirilməsi, riskin azaldılması, yol verilən (və ya qəbul edilən) risk səviyyəsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən toxumçuluq sahəsi üzrə fəaliyyətin planlaşdırılması və təşkili ilə əlaqədar həyata keçirilən və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 9-1-ci maddəsində göstərilən tədbirlərin məcmusudur.

12.2. Toxum əməliyyatçıları plan üzrə (növbəti) yoxlamaların təşkili və aparılması məqsədilə toxum əməliyyatçılarının risk qruplarının müəyyənləşdirilməsi meyarları əsasında yüksək, orta və aşağı risk qruplarına bölünür.

12.3. Toxumçuluq sahəsində risklərin idarə olunması qaydası"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

### 3-cü fəsil
### TOXUMÇULUĞUN TƏŞKİLİ

**Maddə 13. Toxum əməliyyatçılarının qeydiyyata alınması**

13.1. Toxum əməliyyatçılarının Reyestrdə qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən altsistem vasitəsilə aparılır.

13.2. Toxum əməliyyatçılarının Reyestrdə qeydiyyata alınması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

13.3. Toxum istehsalı ilə məşğul olan toxum əməliyyatçısı 10 (on) ildən bir, digər toxum əməliyyatçıları isə 3 (üç) ildən bir bu Qanunun 13.2-ci maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq qeydiyyatdan keçirlər.

13.4. Toxum əməliyyatçılarına onların bu Qanunun 13.2-ci maddəsinə uyğun olaraq qeydiyyata alınmalarına dair Reyestrdən yazılı, o cümlədən elektron çıxarış verilir.

13.5. Toxum əməliyyatçılarının Reyestrdə qeydiyyata alınmaları üçün "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada ərizə və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1 - 18.2.4-cü maddələrində qeyd edilən sənədlər, habelə aşağıdakı əlavə sənədlər və şərtlər tələb edilir:

13.5.1. toxum istehsalçıları tərəfindən:

13.5.1.1. toxumçuluq üzrə mütəxəssislərin təhsili haqqında dövlət sənədi;

13.5.1.2. əkin sahələri barədə məlumat və onlar üzərində mülkiyyət hüququnu və ya azı 5 (beş) il müddətinə istifadə və ya icarə hüququnu təsdiq edən sənədlər;

*Ardı 3-cü səh.*

# Toxumçuluq haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

13.5.1.3. toxumçuluq sahəsində normativ hüquqi aktlarda müəyyən edilmiş tələblərə uyğun olan anbar və saxlanc yerləri barədə məlumat və onlar üzərində mülkiyyət hüququnu və ya azı 3 (üç) il müddətinə istifadə və ya icarə hüququnu təsdiq edən sənədlər;

13.5.1.4. toxum istehsalı üçün kənd təsərrüfatı texnikaları və toxum emalı avadanlıqları barədə məlumat və onlar üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlər (dövlət qeydiyyat şəhadətnaməsi, mülkiyyət və ya digər əşya hüquqlarını təsdiq edən sənədlər);

13.5.2. orijinal və elit toxum istehsalı üzrə:

13.5.2.1. seleksiyaçının nəzarəti altında toxum istehsalının aparılması (fərdi qaydada toxumçuluqla məşğul olan seleksiyaçı istisna olmaqla);

13.5.2.2. azı bir nəfər seleksiyaçı və ali təhsilli aqronomun əmək müqaviləsi əsasında fəaliyyət göstərməsi;

13.5.3. sertifikatlı toxum istehsalı üzrə ali təhsilli azı 1 (bir) aqronomla bağlanılmış əmək müqavilə barədə məlumat;

13.5.4. toxum satıcılarının maddi-texniki bazasına dair tələblər:

13.5.4.1. toxum istehsalçıları ilə müqavilə;

13.5.4.2. toxumun satışı üçün mülkiyyətində və ya qanuni istifadəsində olan satış məntəqəsinin mövcudluğu;

13.5.4.3. toxumun saxlanılması üçün mülkiyyətində və ya qanuni istifadəsində olan müvafiq normativ hüquqi aktların tələblərinə uyğun anbarın mövcudluğu;

13.5.5. "invitro" üsulu ilə orijinal və əsas (baza) ting istehsalçılarından bu Qanunun 13.5.1-ci maddəsində nəzərdə tutulan sənədlərdən əlavə toxumçuluq sahəsində normativ hüquqi aktlarda müəyyən edilmiş tələblərə uyğun olan laboratoriyaları barədə məlumat və onlar üzərində mülkiyyət hüququnu və ya azı 5 (beş) il müddətinə istifadə və ya icarə hüququnu təsdiq edən sənəd.

13.6. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 13.5-ci maddəsinə əsasən ərizəyə əlavə edilməli olan sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsinin mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Həmin sənədlər "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 32.4-cü maddəsinə uyğun olaraq yazılı, o cümlədən elektron sənəd formasında təqdim edilə bilər.

13.7. Toxum əməliyyatçıları bu Qanunun 13.3-cü maddəsində qeyd edilən müddət ərzində toxum istehsalı, emalı, tədarükü, saxlanması, daşınması, ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı ilə bağlı fəaliyyətin bu maddə ilə müəyyən olunmuş tələblərə uyğunluğunu təmin etməlidir.

13.8. Reyestrdə qeydiyyata alınmamış toxum əməliyyatçılarının toxumçuluq sahəsində fəaliyyət göstərməsi qadağandır.

**Maddə 14. Toxum əməliyyatçılarının vəzifələri və hüquqları**

14.1. Toxum əməliyyatçılarının vəzifələri aşağıdakılardır:

14.1.1. toxumçuluğa dair normativ hüquqi aktlara əməl etmək;

14.1.2. patent sahibi ilə müəyyən edilmiş qaydada mühafizə olunan bitki sortlarının toxumlarından istifadəyə görə müqavilə bağlamaq;

14.1.3. ticarət dövriyyəsinə daxil edilən toxumların müşayiətedici sənədlərində sortluq və səpin keyfiyyətlərinin düzgün göstərilməsini təmin etmək;

14.1.4. hər bir sort üzrə müəyyən edilmiş formada toxumların sortluq və səpin keyfiyyətlərinin sənədləşdirilməsini aparmaq və onları 1 (bir) il müddətində saxlamaq;

14.1.5. toxumların satışı zamanı alıcının və dövlət toxumçuluq qurumunun tələbi ilə toxum partiyalarının sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatları təqdim etmək;

14.1.6. toxum istehsalının texnoloji sxemlərinin, toxumların istehsalı, emalı, qablaşdırılması, etiketləşdirilməsi, daşınması, tədarükü, saxlanması, ticarət dövriyyəsi, utilizasiyası və məhv edilməsi şərtlərinə dair toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə riayət etmək;

14.1.7. toxum və ting yetişdirilməsi üçün istifadə olunan əkin sahələrinin tarla nəzarətinin həyata keçirilməsinə şərait yaratmaq;

14.1.8. toxumların səpin keyfiyyətlərini müəyyənləşdirmək məqsədi ilə təhlil, laboratoriya müayinəsi və ekspertizanın aparılması üçün nümunə götürülməsinə şərait yaratmaq;

14.1.9. istehsal etdikləri toxumların müşayiətedici sənədlərində göstərilən, o cümlədən altsistemə daxil edilən məlumatların düzgünlüyünü təmin etmək;

14.1.10. qeydiyyata alınmış anbar və saxlanc yerlərində ziyanverici orqanizmlərə qarşı zərərsizləşdirmə (fumiqasiya) tədbirlərinin görülməsini təmin etmək;

14.1.11. bu Qanunla nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

14.2. Toxum əməliyyatçıları aşağıdakı hüquqlara malikdirlər:

14.2.1. toxumçuluq sahəsində keçirilən konfranslarda, simpoziumlarda, sərgilərdə, təlim-seminarlarda, hərraclarda və digər tədbirlərdə iştirak etmək;

14.2.2. toxumçuluq sahəsində birlik və assosiasiyalar yaratmaq;

14.2.3. fəaliyyətlərində innovativ texnologiyalardan və elmi nailiyyətlərdən yararlanmaq;

14.2.4. bu Qanunda nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

14.3. Toxum əməliyyatçıları tərəfindən altsistemə bilə-bilə yanlış və ya təhrif olunmuş məlumatların daxil edilməsi qadağandır.

**Maddə 15. Reyestrdən çıxarışın dayandırılması, bərpa və ya ləğv edilməsi**

15.1. Toxum əməliyyatçısı tərəfindən bu Qanunun 13.7-ci maddəsinin tələblərinin pozulduğu və ya toxumçuluq sahəsində texniki normativ hüquqi aktlara riayət edilmədiyi aşkar olunduqda, habelə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) Reyestrdən çıxarışı həmin pozuntular aradan qaldırılanadək, lakin 90 (doxsan) gündən çox olmayan müddətə dayandırır.

15.2. Toxum əməliyyatçısı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 25.1.1-ci maddəsində göstərilən hal istisna olmaqla, Reyestrdən çıxarışın dayandırıldığı müddət bitənədək dayandırılmaya səbəb olan halları aradan qaldırmalı və nəticəsi barədə 3 (üç) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı məlumat verməlidir.

15.3. Reyestrdən çıxarış onun dayandırılmasına səbəb olan hallar aradan qalxdıqda "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 25.5-ci maddəsinə uyğun olaraq bərpa olunur.

15.4. Reyestrdən çıxarışın dayandırıldığı müddətdə aşkar olunmuş pozuntular toxum əməliyyatçısı tərəfindən aradan qaldırılmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onu ləğv edir.

**Maddə 16. Toxum ehtiyatı fondlarının yaradılması, saxlanması və istifadəsi**

16.1. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, habelə təbii fəlakətlər və ya digər fövqəladə hallar zamanı yardımın göstərilməsi məqsədilə bu Qanunun 16.2-ci və 16.5-ci maddələrində göstərilən qaydada dövlət toxumçuluq qurumunun təklifləri əsasında "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq toxum ehtiyatı fondları yaradılır.

16.2. Dövlət toxum ehtiyatı fondları dövlət büdcəsinin vəsaiti hesabına yaradılır və Azərbaycan Respublikasının mülkiyyətidir.

16.3. Dövlət toxum ehtiyatı fondları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılır.

16.4. Toxum ehtiyatı fondlarının yaradılması, saxlanması və istifadəsi "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

16.5. Toxum ehtiyatı fondlarında Reyestrə daxil edilmiş sortlaraaid olan, həmçinin sortluq və səpin keyfiyyətləri toxumçuluq sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verən toxumlar tədarük edilir və saxlanılır.

16.6. Dövlət toxum ehtiyatı fondlarına toxum tədarükü ilə bağlı sifariş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir.

16.7. Naxçıvan Muxtar Respublikasında dövlət toxum ehtiyatı fondlarının yaradılması və istifadəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan(qurum) tərəfindən həyata keçirilir.

### 4-cü fəsil
### TOXUMLARIN SERTİFİKATLAŞDIRILMASI

**Maddə 17. Toxumların sertifikatlaşdırılması**

17.1. Toxumların sortluq və səpin keyfiyyətlərinin müəyyən edilməsi və sertifikatlaşdırılması qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

17.2. Toxumluq əkin sahələrinin tarla və qrunt nəzarəti, eləcə də toxumların laboratoriya müayinəsi və ekspertizası nəticəsində toxumların sortluq və səpin keyfiyyətləri müəyyən edilir.

17.3. Toxumluq əkinlərin tarla nəzarəti tarla müfəttişləri tərəfindən həyata keçirilir. Toxumluq əkinlərin tarla nəzarətinin aparılması və tarla müfəttişlərinin fəaliyyətinin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

17.4. Toxumların laboratoriya müayinəsi və ekspertizası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş sınaq laboratoriyalarında (bundan sonra - akkreditasiya olunmuş sınaq laboratoriyaları) aparılır. Akkreditasiya olunmuş sınaq laboratoriyalarında aparılan laboratoriya müayinəsinin və ekspertizasının nəticələri arasında ziddiyyət olduğu təqdirdə, nəticələrin düzgünlüyü müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi istinad laboratoriyaları tərəfindən yoxlanılır və təsdiq edilir.

17.5. Toxumdan (toxum partiyalarından) nümunələrin laboratoriya müayinəsi üçün götürülməsi tarla müfəttişləri tərəfindən həyata keçirilir.

17.6. Toxumlara sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatların verilməsi bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulmuş qaydalara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

17.7. Reyestrə daxil edilmiş bitki sortlarının sertifikatlaşdırılmış toxumlarının qrunt nəzarəti keçirilir.

17.8. Reyestrə daxil edilmiş bitki sortlarının təkrar istehsalı nəzərdə tutulmuş toxumlarının bu Qanunun 17.4-cü maddəsinə uyğun olaraq laboratoriya müayinəsi və ekspertizası həyata keçirilir.

17.9. Təkrar istehsal və ya istifadə üçün nəzərdə tutulmuş toxumluq əkin sahələrinin bu Qanunun 17.3-cü maddəsində nəzərdə tutulan qaydada tarla nəzarəti həyata keçirilməlidir.

17.10. Toxumçuluq sahəsində texniki normativ hüquqi aktların tələblərinə cavab verməyən toxumlara dair laboratoriya müayinəsinin nəticəsini əks etdirən arayış verilir.

17.11. Toxum əməliyyatçıları toxum partiyasının keyfiyyətinin qiymətləndirilməsi qaydalarına əməl etməlidir.Toxum əməliyyatçıları tərəfindən keyfiyyət göstəricilərinin bilərəkdən təhrif olunması qadağandır.

17.12. Toxumların zərərli orqanizmlərdən mühafizəsi Azərbaycan Respublikasının fitosanitar nəzarəti haqqında normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

**Maddə 18. Toxumların sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatın ləğv edilməsi və etibarsızlığı**

18.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilən toxumçuluğa nəzarət nəticəsində toxum istehsalı ilə məşğul olan toxum əməliyyatçısı tərəfindən toxumçuluq sahəsində qəbul edilmiş texniki normativ hüquqi aktların tələblərinə riayət edilməməsi nəticəsində toxumların sortluq və səpin keyfiyyətlərinin sertifikat göstəricilərindən aşağı olduğu aşkar edildikdə, verilmiş sertifikat ləğv edilir.

18.2. Toxumların sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatın müddəti bitdikdə sertifikat etibarsız hesab olunur.

**Maddə 19. Toxumların təkrar sertifikatlaşdırılması**

19.1. Sortluq və səpin keyfiyyətləri təsdiq edilmiş toxumlar sertifikatının müddəti bitdikdə və ya keyfiyyətinin itirilməsinə əsaslı şübhələr olduqda, təkrar sertifikatlaşdırılır.

19.2. Toxumların təkrar sertifikatlaşdırılması toxum əməliyyatçılarının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciəti əsasında həyata keçirilir. Bu Qanunun 19.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla, müraciətə aşağıdakı sənədlər əlavə edilir:

19.2.1. tarla nəzarətinin nəticələrini əks etdirən akt (idxal olunmuş toxumlara münasibətdə, olduğu halda);

19.2.2. sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikat.

19.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən bu Qanunun 19.2-ci maddəsində nəzərdə tutulan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsinin mümkün olmadığı hallarda, onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir. Həmin sənədlər "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 32.4-cü maddəsinə uyğun olaraq yazılı, o cümlədən elektron sənəd formasında təqdim edilir.

19.4. Təkrar sertifikatlaşdırma məqsədilə toxumdan (toxum partiyasından) nümunələr tarla müfəttişləri tərəfindən götürülür.

19.5. Toxumların təkrar sertifikatlaşdırılması bu Qanunun 17.1-ci maddəsində nəzərdə tutulan qaydalara uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.

### 5-ci fəsil
### TOXUMÇULUQ FƏALİYYƏTİ

**Maddə 20. Toxumların istehsalı**

20.1. Reyestrdə qeydiyyata alınmış sortların toxumlarının istehsalı toxumçuluğun prinsiplərinə riayət edilməklə həyata keçirilir.

20.2. Orijinal və elit toxumların istehsalı seleksiyaçının nəzarəti altında elmi tədqiqat və təhsil müəssisələrinin təcrübə təsərrüfatlarında, habelə toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə cavab verən ixtisaslaşmış təsərrüfatlarda, sertifikatlı toxumların istehsalı isə bu fəaliyyət növü ilə məşğul olan toxumçuluq təsərrüfatlarında həyata keçirilir. Seleksiyaçılar normativ hüquqi aktlara uyğun olaraq fərdi qaydada və ya digər seleksiyaçılarla birlikdə orijinal və elit toxumların istehsalı ilə məşğul ola bilərlər.

20.3. Calaqaltı və calaqüstü anaclıqların yaradılması üçün xəstəliklərə və ziyanvericilərə davamlı bitki materialları toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə uyğun olaraq müvafiq elmi tədqiqat müəssisələrində və ya ixtisaslaşmış tingçilik təsərrüfatında istehsal olunur.

20.4. Artırılma mərhələsindən asılı olaraq kənd təsərrüfatı bitki sortlarının toxumlarının (tinglər istisna olmaqla) aşağıdakı kateqoriyaları müəyyən edilir:

20.4.1. orijinal toxum;

20.4.2. elit toxum;

20.4.3. sertifikatlı toxum.

20.5. Artırılma mərhələsindən asılı olaraq tinglərin aşağıdakı kateqoriyaları müəyyən edilir:

20.5.1. orijinal ting;

20.5.2. əsas (baza) ting;

20.5.3. sertifikatlı ting;

20.5.4. standart ting.

20.6. Bu Qanunun 20.4-cü və 20.5-ci maddələrində qeyd edilən kateqoriyalar üzrə müxtəlif bitki sortlarının toxum və tinglərinin istehsal xüsusiyyətləri nəzərə alınaraq istehsal metodları toxumçuluq sahəsində normativ hüquqi aktların tələbləri ilə müəyyən edilir.

**Maddə 21. Toxumların emalı, utilizasiyası və məhv edilməsi**

21.1. Sortluq və səpin keyfiyyətlərinin müəyyənləşdirilməsi nəticəsində təyinatı üzrə istifadəyə yararsız olan, o cümlədən genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış toxumlar toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə uyğun olaraq emal, utilizasiya və ya məhv edilir.

21.2. İstifadə və ya məhv edilməsi barədə qərarın qəbul edilməsi üçün toxumlar sortluq və səpin keyfiyyətlərinin müəyyənləşdirilməsi müddəti ərzində ayrı-ayrı saxlanc yerlərində saxlanmalıdır.

21.3. Təyinatı üzrə istifadəyə yararsız, o cümlədən genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış bitki toxumlarının götürülməsi, daşınması, saxlanması, ekspertizası, zərərsizləşdirilməsi və ya məhv edilməsi ilə bağlı xərclər həmin toxum sahiblərinin vəsaiti hesabına həyata keçirilir.

21.4. Zərərli orqanizmlərin yayılmasının qarşısının alınması və ləğvi nəticəsində məhv edilən toxumlara və toxumluq əkinlərə çəkilən xərclər dövlət tərəfindən kompensasiya edilir. Kompensasiyanın məbləğivə ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 22. Toxumların ticarət dövriyyəsi, o cümlədən idxalı və ixracı**

22.1. Azərbaycan Respublikasında rayonlaşdırılmış, Reyestrdə qeydiyyata alınmış bitki sortlarının və hibridlərin sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatı olan toxumları ticarət dövriyyəsinə daxil edilir.

22.2. Toxumların ticarət dövriyyəsi mühafizə olunan sortun patent sahibi ilə bağlanmış və normativ hüquqi aktlara uyğun olaraq qeydiyyata alınmış lisenziya müqaviləsi əsasında həyata keçirilir.

22.3. Aşağıdakı toxumların ticarət dövriyyəsinə daxil edilməsinə yol verilmir:

22.3.1. rayonlaşdırılmamış sortların toxumları;

22.3.2. Reyestrdə qeydiyyata alınmamış sortların və hibridlərin toxumları;

22.3.3. sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatı (idxal və ixrac əməliyyatları zamanı idxal olunan ölkələr tərəfindən tələb edildiyi halda həmçinin fitosanitar sertifikatı) olmayan və ya sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatının müddəti qurtarmış toxumlar;

22.3.4. qablaşdırılmamış və etiketləşdirilməmiş toxumlar;

22.3.5. genetik modifikasiya olunmuş, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış toxumlar.

22.4. Toxum qablarının (konteynerlər, bağlamalar və s.) üzərində, etiketlərdə və ya müşayiətedici sənədlərdə bitki sortunun adı, mənşəyi və toxumun keyfiyyəti barədə yanlış məlumat göstərilməsi, həmçinin toxum partiyası barədə qeyri-dəqiq reklamın yayılması qadağandır.

22.5. Ticarət dövriyyəsinə daxil olan bitki sortlarının və hibridlərin sınağının aparılması "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

22.6. Aid olduğu bitki sortu və ya hibridi Reyestrdə qeydiyyata alınmış (bu Qanunun 22.8-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla), sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikatları olan, habelə bu Qanunun 9-cu maddəsində nəzərdə tutulan texniki normativ hüquqi aktların tələblərinə uyğun olan toxumlar idxal və ixrac oluna bilər.

22.7. Bu Qanunun 22.14-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, toxumun (toxum partiyasının) aşağıdakı göstəricilərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) akkreditasiya olunmuş laboratoriyalarında ekspertizası keçirildikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən onun idxal olunmasına icazə verilir:

22.7.1. toxumların sortluq və səpin keyfiyyətləri;

22.7.2. toxumların genetik modifikasiya olunmaması və ya müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmaması.

22.8. Reyestrdə qeydiyyata alınmamış bitki sortlarının toxumları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla yalnız aşağıdakı hallarda idxal oluna bilər:

22.8.1. seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirilməsi məqsədilə;

22.8.2. beynəlxalq müqavilə əsasında istehsal edilərək Azərbaycan Respublikasından kənara ixrac edilməsi məqsədilə.

22.9. Reyestrdə qeydiyyata alınmayan bitki sortlarının toxumlarının seleksiya, tədqiqat, sınaq və sərgilərdə nümayiş etdirilməsi, beynəlxalq müqavilə əsasında istehsal edilərək Azərbaycan Respublikasından kənara ixrac edilməsi məqsədilə idxalı üçün ərizə bu Qanunun 19.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrində nəzərdə tutulmuş qaydada təqdim edilir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

22.9.1. fitosanitar sertifikat;

22.9.2. sortluq və səpin keyfiyyətlərini təsdiq edən sertifikat;

22.9.3. bitki sortunun genetik modifikasiya olunmaması və ya müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmaması barədə sənəd;

22.9.4. sərgi məqsədilə gətirilən nümunənin geri qaytarılacağına dair zəmanət (öhdəlik) məktubu;

22.9.5. hüquqi və fiziki şəxslər, habelə ailə kəndli təsərrüfatları tərəfindən öz əkinlərində təsərrüfat sınaqlarının aparılması məqsədilə idxal edildiyi halda torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin notariat qaydasında təsdiqlənmiş surəti (elektron üsulla təqdim olunan sənədlər istisna olmaqla).

22.10. Bu Qanunun 22.9-cu maddəsində qeyd olunan sənədlər Azərbaycan dilində təqdim edilir. Digər dillərdə təqdim olunmuş sənədlər Azərbaycan dilinə tərcümə olunur və notariat qaydasında təsdiq edilir.

22.11. Sərgilərdə nümayiş etdirilməsi, hüquqi və fiziki şəxslər tərəfindən öz əkinlərində təsərrüfat sınaqlarının aparılması məqsədilə idxal olunan toxumların miqdarını (kütləsini) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

22.12. Gen mühəndisliyi əsasında alınmış toxumların (genetik dəyişdirilmiş və ya genetik modifikasiya edilmiş orqanizmlərin) Azərbaycan Respublikasına idxalına yalnız "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun 21.4-cü maddəsində nəzərdə tutulmuş qaydada yol verilir.

22.13. Toxumların qablaşdırılmadan, etiketləşdirilmədən və fitosanitar sertifikatları olmadan idxal və ixracına yol verilmir.

22.14. Beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu hallarda, toxumların idxal və ixrac edilməsində beynəlxalq sertifikatların göstəriciləri qəbul edilir.

22.15. Bu maddənin tələbləri toxumların Azərbaycan Respublikasının ərazisindən açılmadan, bölünmədən, digər yüklərlə qarışdırılmadan və yenidən qablaşdırılmadan başqa ölkələrə tranzit daşınması zamanı tətbiq edilmir.

22.16. Toxumların ixrac (təkrar ixrac) əməliyyatları zamanı fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı ilə müşayiət olunması "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

**Maddə 23. Toxumların qablaşdırılması və etiketləşdirilməsi**

23.1. Ticarət dövriyyəsinə daxil edilmiş toxumlar bu Qanunun 9.3-cü maddəsinin tələblərinə uyğun olaraq qablaşdırılır və etiketləşdirilir.

23.2. Etiketdə toxumun keyfiyyəti haqqında məlumatlar tam verilir.

23.3. Kimyəvi və bioloji preparatlarla işlənmiş toxumların taralarında müvafiq xəbərdarlıq yazıları və nişanları qeyd olunmalıdır.

23.4. Etiketdə və ya müşayiətedici sənədlərdə toxumların istifadəsi üzrə təhlükəsizlik qaydaları haqqında məlumatlar qeyd edilməli və xarici dildə olduqda Azərbaycan dilinə tərcüməsi ilə müşayiət olunmalıdır.

23.5. Etiketdə göstərilən məlumatlar silinməyən boya və ya digər vasitələrlə yazılmalıdır.

23.6. Dərmanlanmış və qablaşdırılmış toxumlar etiketlərində müvafiq xəbərdaredici qeyd yazılmaqla sanitar qaydalara uyğun, təcrid olunmuş halda bu Qanunun 9.3-cü maddəsində nəzərdə tutulan qaydaların tələblərinə cavab verən anbarlarda saxlanılır.

### 6-cı fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 24. Toxumçuluq haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunla nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 25. Toxumçuluq haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə tətbiq edilən cərimələrdən daxilolmalar**

25.1. Toxumçuluq haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanılan vəsaitin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə həmin orqanın (qurumun) hesabına köçürülür.

25.2. Bu Qanunun 25.1-ci maddəsi ilə müəyyən edilmiş vəsaitin bölgüsü və ondan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 26. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun qüvvəyə mindiyi gündən "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının 1997-ci il 11 mart tarixli 257-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 354 (Cild I) ləğv edilir.

**Maddə 27. Keçid müddəa**

Bu Qanun qüvvəyə minənədək toxum istehsalçılarına toxumçuluq fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş şəhadətnamələr həmin şəhadətnamədə göstərilən müddətdə öz hüquqi qüvvəsini saxlayır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2026-cı il*

# "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 455-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli 455-VIIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.1-ci, 1.1.3-cü, 1.1.27-ci, 1.1.33-cü, 1.1.37-ci, 7.3-cü, 9.2-9.5-ci, 10.5-ci (hər iki halda), 11.1.6-cı, 11.3-cü, 12.1-ci, 12.3-cü, 13.1-ci, 13.2-ci maddələrində, 13.6-cı maddəsinin birinci cümləsində, 15.1-ci, 15.2-ci, 15.4-cü, 16.3-cü, 16.6-cı, 16.7-ci, 17.1-ci maddələrində, 17.3-cü və 17.4-cü maddələrinin ikinci cümlələrində, 17.6-cı, 18.1-ci maddələrində, 19.2-ci maddəsinin birinci abzasının və 19.3-cü maddəsinin birinci cümlələrində, 19.5-ci maddəsində, 21.4-cü maddəsinin ikinci cümləsində, 22.7-ci (hər iki halda) və 22.8-ci maddələrinin birinci abzaslarında, 22.11-ci, 25.1-ci (hər iki halda) və 25.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 7.3-cü, 9.5-ci, 10.5-ci (ikinci halda), 11.1.6-cı, 11.3-cü, 12.3-cü, 13.2-ci maddələrində, 21.4-cü maddəsinin ikinci cümləsində və 25.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 1.1.27-ci, 1.1.33-cü, 1.1.37-ci, 9.2-9.4-cü, 10.5-ci (birinci halda), 12.1-ci, 13.1-ci maddələrində, 13.6-cı maddəsinin birinci cümləsində, 15.1-ci, 15.2-ci, 15.4-cü, 17.1-ci maddələrində, 17.3-cü və 17.4-cü maddələrinin ikinci cümlələrində, 17.6-cı, 18.1-ci maddələrində, 19.2-ci maddəsinin birinci abzasının və 19.3-cü maddəsinin birinci cümlələrində, 19.5-ci maddəsində, 22.7-ci (hər iki halda) və 22.8-ci maddələrinin birinci abzaslarında, 22.11-ci və 25.1-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Qanunun 16.3-cü və 16.6-cı maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 1.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə kənd təsərrüfatı bitkilərinə münasibətdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, meşə bitkilərinə münasibətdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 16.7-ci maddəsində "orqan (qurum)" dedikdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.7. həmin Qanunun 1.1.1-ci maddəsində "orqanın (qurumun) informasiya sistemi"dedikdə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Elektron kənd təsərrüfatı" informasiya sistemi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. beş ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.1.1. "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 7.3-cü maddəsinə uyğun olaraq, toxumçuluq sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydasını;

2.1.2. həmin Qanunun 9.5-ci maddəsinə uyğun olaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğu halda, Azərbaycan Respublikasının xarici ticarət tərəfdaşı olan ölkənin toxumçuluq sahəsində texniki normativ hüquqi aktlarının Azərbaycan Respublikasında tətbiq edilən eyni texniki normativ hüquqi aktlara ekvivalentliyinin tanınması qaydasını;

2.1.3. həmin Qanunun 10.5-ci maddəsinə uyğun olaraq, xidmət haqlarının məbləğlərini;

2.1.4. həmin Qanunun 11.1.6-cı maddəsinə uyğun olaraq, ölkədə toxumçuluğun vəziyyətinin öyrənilməsi məqsədilə informasiya toplanılmasını, müşahidə, təhlil, qiymətləndirmə və idarəetmənin effektivlik vəziyyətinin proqnozlaşdırılması qaydasını;

2.1.5. həmin Qanunun 11.3-cü maddəsinə uyğun olaraq, toxum müfəttişlərinin vəsiqələrinin təsvirini və nümunəsini;

2.1.6. həmin Qanunun 12.3-cü maddəsinə uyğun olaraq, toxumçuluq sahəsində risklərin idarə olunması qaydasını;

2.1.7. həmin Qanunun 13.2-ci maddəsinə uyğun olaraq, toxum əməliyyatçılarının Seleksiya və toxumçuluq sahəsində informasiya ehtiyatında qeydiyyata alınması qaydasını;

2.1.8. həmin Qanunun 21.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, zərərli orqanizmlərin yayılmasının qarşısının alınması və ləğvi nəticəsində məhv edilən toxumlara və toxumluq əkinlərə görə çəkilən xərclərin kompensasiya məbləğini və ödənilməsi qaydasını;

2.1.9. həmin Qanunun 25.2-ci maddəsinə uyğun olaraq, toxumçuluq haqqında qanunvericiliyin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tətbiq edilən cərimələrdən (o cümlədən onun tərəfindən inzibati xəta haqqında protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilən inzibati xətalar haqqında işlər üzrə tətbiq edilən cərimələrdən) toplanan və həmin Nazirliyin hesabına köçürülən vəsaitin bölgüsü və ondan istifadə qaydasını;

2.2. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. üç ay müddətində aşağıdakı normativ hüquqi aktları təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsinə uyğun olaraq, toxumların istehsalı, emalı, qablaşdırılması, etiketləşdirilməsi, daşınması, tədarükü, saxlanması, idxalı, ixracı, utilizasiyası, zərərsizləşdirilməsi və məhv edilməsi qaydalarını;

3.1.2. həmin Qanunun 17.1-ci maddəsinə uyğun olaraq, toxumların sortluq və səpin keyfiyyətlərinin müəyyən edilməsi və sertifikatlaşdırılması qaydalarını;

3.1.3. həmin Qanunun 17.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, toxumluq əkinlərin tarla nəzarətinin aparılması və tarla müfəttişlərinin fəaliyyətinin təşkili qaydalarını;

3.1.4. həmin Qanunun 22.11-ci maddəsinə uyğun olaraq, sərgilərdə nümayiş etdirilməsi, hüquqi və fiziki şəxslər tərəfindən öz əkinlərində təsərrüfat sınaqlarının aparılması məqsədilə idxal olunan toxumların miqdarını (kütləsini);

3.2. həmin Qanundan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 31 oktyabr tarixli 322 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1207 (Cild I) birinci hissəsinin 2-ci bəndinə "pozulması" sözündən sonra ", ərzaq təhlükəsizliyi təminatı üzrə risklərin yaranması" sözləri əlavə edilsin.

5. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132 (Cild I); 2024, № 3, maddə 257, № 4, maddə 394) 3.2-ci bəndində "bəndində" sözü "və 1.8-ci bəndlərində" sözləri ilə əvəz edilsin.

6.Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1356; 2025, № 2, maddə 137, № 7, maddə 642; 2026, № 3, maddə 216, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 8 iyun tarixli 679 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci hissə üzrə:

6.1.1. 1.2.5-ci yarımbənddə "sertifikatlı" sözü "sortluq və səpin keyfiyyətləri təsdiq olunmuş" sözləri ilə əvəz edilsin;

6.1.2. 1.2.11-ci və 1.2.16-cı yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"1.2.11. **toxum subsidiyası -** ölkədə istehsal edilərək sortluq və səpin keyfiyyətləri təsdiq olunmuş toxumun və tingin satışına görə verilən subsidiya;";

"1.2.16. **sortluq və səpin keyfiyyətləri təsdiq olunmuş toxum -** "Toxumçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Seleksiya və toxumçuluq sahəsində informasiya ehtiyatına daxil edilən sortun müvafiq keyfiyyətləri yazılı, o cümlədən elektron formada təsdiq olunmuş toxumu və tingi;";

6.2. 3.6-cı bəndin birinci abzasında "1-ci və 2-ci reproduksiyalı" sözləri "sortluq və səpin keyfiyyətləri təsdiq olunmuş" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937, № 12 (II kitab), maddə 1359; 2026, № 3, maddə 216,Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 8 iyun tarixli 679 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 3.1.3-5-ci və 3.2.3-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.3-5. "toxum" altsistemi;";

"3.2.3-5. "toxum" altsistemi vasitəsilə Seleksiya və toxumçuluq sahəsində informasiya ehtiyatınınaparılması, toxumçuluq obyektləri və subyektləri barədə məlumatların toplanılması, təhlili və hesabatlılığının, habelə toxum əməliyyatçılarının qeydiyyatı, həmin informasiya ehtiyatından çıxarışın verilməsi və toxumun sertifikatlaşdırılmasının elektron qaydada təmin edilməsi;";

7.2. 5-ci hissə üzrə:

7.2.1. 5.1.22-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.22. seleksiya nailiyyətləri və onlardan istifadə üzrə bağlanılmış müqavilələr barədə məlumatlar;";

7.2.2. aşağıdakı məzmunda 5.1.22-1-ci yarımbənd əlavə edilsin:

"5.1.22-1. toxumçuluqda istifadə edilən bitki materialları, toxumluq əkinlər, toxum əməliyyatçıları və toxumçuluğun digər obyektləri və subyektləri, habelə toxumçuluq sahəsində həyata keçirilən fəaliyyət barədə məlumatlar;";

7.3. 7-ci hissə üzrə:

7.3.1. 7.1.1-ci yarımbəndə aşağıdakı məzmunda 22-ci abzas əlavə edilsin:

"22. toxum əməliyyatçısı kimi qeydiyyata alınması, toxumluq əkinlərin tarla nəzarətinin aparılması, istehsal etdiyi toxumun sertifikatlaşdırılması və toxumların idxalı, habelə seleksiya nailiyyətlərinin qeydiyyata alınması ilə bağlı müraciət etmək;";

7.3.2. 7.1.2-ci yarımbəndin 8-ci və 10-cu abzasları ləğv edilsin və həmin yarımbəndə aşağıdakı məzmunda 15-ci abzas əlavə edilsin:

"15. toxum əməliyyatçısı kimi qeydiyyata alınması, toxumların idxalı, habelə seleksiya nailiyyətlərinin qeydiyyata alınması ilə bağlı müraciət etmək;";

7.3.3. 7.1.12-ci yarımbəndin 3-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.1.13-cü və 7.1.14-cü yarımbəndlər əlavə edilsin:

"7.1.13. toxum müfəttişləri:

1. qeydiyyatdan keçmək;

2. elektron kabinetdən istifadə etmək;

3. həyata keçirdikləri dövlət nəzarət tədbirləri üzrə məlumatları daxil etmək;

7.1.14. tarla müfəttişləri:

1. qeydiyyatdan keçmək;

2. elektron kabinetdən istifadə etmək;

3. müraciətləri izləmək və müraciət əsasında yerinə yetirdikləri xidmətlər üzrə məlumatları daxil etmək.".

8. "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 7 aprel tarixli 569 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 355 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 avqust 2026-cı il*

# "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İstilik təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli 222-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365 (Cild I); 2024, № 4, maddə 377, № 5 (I kitab), maddə 505) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 3.0.5-ci yarımbəndinə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" sözlərindən sonra ", "İstilik təchizatı haqqında" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikası Energetika Nazirliyinin tabeliyində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli 1750 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2318 (Cild I); 2024, № 5 (I kitab), maddə 515; 2025, № 11, maddə 1020; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 iyul tarixli 708 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.6-cı bənddə "elektrik, istilik enerjisi və qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələrin" sözləri "elektroenergetika, habelə istilik və qaz təchizatı subyektlərinin" sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş "Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Nizamnaməsi" üzrə:

2.2.1.1.1-ci bənddə "elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələrində" sözləri "elektroenergetika, istilik və qaz təchizatı sektorlarında" sözləri ilə əvəz olunsunvə həmin bəndə "ötürücülər," sözündən sonra "qazı nəql edənlər, saxlayanlar," sözləri, "təchizatçılar" sözündən sonra ", qaz satıcıları" sözləri əlavə edilsin;

2.2.2. 3.1.5-ci və 3.2.3-cü yarımbəndlərdə "elektrik və istilik enerjisi, habelə" sözləri "elektrik enerjisi, istilik və" sözləri ilə əvəz edilsin;

2.2.3. 5.6-cı bənddə "elektrik, istilik enerjisi və qaz təchizatı sahələrində fəaliyyət göstərən müəssisələrin" sözləri "elektroenergetika, habelə istilik və qaz təchizatı subyektlərinin" sözləri ilə əvəz edilsin.

3. "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 iyul tarixli 204 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1490 (Cild I); 2024, № 5 (I kitab), maddə 515; 2025, № 1, maddə 23, № 6, maddə 540; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il3 iyul tarixli 708 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissədə "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində" sözləri "Elektroenergetika, istilik və qaz təchizatı sektorlarında" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində nəzarətin həyata keçirilməsi Qaydası" üzrə:

3.2.1. adında "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində" sözləri "Elektroenergetika, istilik və qaz təchizatı sektorlarında" sözləri ilə əvəz edilsin;

3.2.2. 1-ci hissə üzrə:

3.2.2.1. 1.1-ci bənddə "elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində" sözləri "elektroenergetika, istilik və qaz təchizatı sektorlarında" sözləri ilə əvəz edilsin;

3.2.2.2. 1.2-ci bənddə "və istilik enerjisi, habelə" sözləri "enerjisi, habelə istilik və" sözləri ilə əvəz edilsin;

3.2.2.3. 1.3.1-ci yarımbənddən "nəql edənləri (istilik enerjisinə münasibətdə)," sözləri çıxarılsın;

3.2.3. 2-ci hissə üzrə:

3.2.3.1. adında və 2.1-ci bəndin birinci abzasında "Elektrik və istilik enerjisi təchizatı sahəsində" sözləri "Elektroenergetika və istilik təchizatı sektorlarında" sözləri ilə əvəz edilsin;

3.2.3.2. 2.1.1-ci yarımbənddə "enerjisi təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrinin" sözləri "təchizatı sektorunda təbii inhisar subyektlərinin" sözləri ilə əvəz edilsin;

3.2.3.3. 2.1.2-ci yarımbənddə "enerjisi təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrin" sözləri "təchizatı subyektlərinin" sözləri ilə əvəz edilsin;

3.2.3.4. 2.2.2-ci yarımbənddə "enerjisi təchizatı sahəsində fəaliyyət göstərən dövlət müəssisələrində" sözləri "təchizatı sektorunda təbii inhisar subyektlərində" sözləri ilə əvəz edilsin;

3.2.3.5. 2.2.3-cü yarımbənddə "enerjisi təchizatı sahəsində fəaliyyət göstərən müəssisələrdə" sözləri "təchizatı subyektləri tərəfindən" sözləri ilə əvəz edilsin;

3.2.3.6. 2.2.4-cü yarımbənddən "enerjisi təchizatı" sözləri çıxarılsın;

3.2.3.7. 2.6.2-ci yarımbənddə "təchizatı müəssisələri" sözləri "enerjisinin paylayıcıları" sözləri ilə əvəz edilsin;

3.2.3.8. 2.6.6-cı yarımbənddə"enerjisinin təchizatı müəssisələri" sözləri "təchizatı subyektləri" sözləri ilə əvəz edilsin;

3.2.4. 3-cü hissənin adında, 3.1-ci bənddə, 3.1.4-cü (birinci halda) və 3.6.2-ci yarımbəndlərdə "sahəsində" sözü "sektorunda" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 940 (Cild I); 2025, № 12 (I kitab), maddə 1162; 2026, № 1, maddə 30) ilə təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nın 1.2-ci bəndində "Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahəsində" sözləri "Elektroenergetika, istilik və qaz təchizatı sektorlarında" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 avqust 2026-cı il*

# *Qlobal logistika Naxçıvanda mərkəzlənir:* Azərbaycanın təhlükəsizlik və dəhliz strategiyası

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə sülh, təhlükəsizlik, təchizat zəncirləri ilə bağlı qeyd etdiyi istiqamətlər Naxçıvanın regional və qlobal əhəmiyyətini ölkəmizin hərbi-siyasi və diplomatik zəfəri kontekstində bir daha ön plana çıxardı.



### Əlahiddə Ümumqoşun Ordu - Kövrək regionda təhlükəsizlik zəmanəti

Prezident İlham Əliyev Azərbaycanın təhlükəsizlik arxitekturasını getdikcə gücləndirən daha bir məqamı Naxçıvandakı ordu amili ilə əlaqələndirib.

Dövlətimizin başçısının müsahibəsi Naxçıvanın regional təhlükəsizlik çağırışlarından irəli gələrək müdafiə mexanizmlərinin gücləndirilməsinə diqqət yönəldir. Müsahibədə vurğulanan bu müdafiə mexanizmlərinin əsas istiqamətlərini və regionun strateji əhəmiyyətini ifadə edən tezisləri aşağıdakı kimi qruplaşdırmaq olar:

*- Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə birbaşa coğrafi bağlantısının olmaması və spesifik mövqeyi regionun təhlükəsizliyinə xüsusi və daha böyük diqqət ayrılmasını tələb edir;*

*- Naxçıvanda yaradılan Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın coğrafi şəraitinə uyğun olaraq spesifik xüsusiyyətlərlə formalaşdırılır;*

*- Azərbaycan Silahlı Qüvvələri regionda söz sahibidir və Naxçıvanın hərbi potensialı gələcəkdə də planlı şəkildə gücləndiriləcək.*

Bu, regionda müharibə xarakterli transformasiyaların sürətləndiyi bir zamanda iqtisadi və siyasi sabitliyin qarantının tərkib hissəsidir.

### Azərbaycanın Avrasiya geosiyasi gündəliyindəki statusu

Prezident İlham Əliyev müsahibədə bildirdi: "Bütövlükdə bunu mən artıq həm bəyan etmişdim və həm də biz bunu artıq strukturlaşdırdıq ki, Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir".

Naxçıvan üzrə strategiyanın işğaldan azad edilmiş ərazilərlə uyğunluğu regional münasibətləri Azərbaycanın maraqlarının çərçivəsinə inteqrasiya edir. Naxçıvan Türkiyə, İran və Ermənistanla sərhəddə yerləşən strateji regiondur. Bu, Azərbaycanın təhlükəsizlik çərçivələrinin möhkəmləndiyi bölgə olmaqla yanaşı, iqtisadi-ticari əlaqələr üzrə haba çevrilməyə də çox yaxınlaşır. Bu, daha çox regionda müdafiə baxımından ortaq maraqların formalaşması ilə bərabər, iqtisadi əməkdaşlıqlar üçün fürsətlərin yaranması ilə əlaqəlidir. Naxçıvanla əlaqədar nəticələr yəqin ki, bundan sonra regional və beynəlxalq müstəvidə tez-tez, daha dərindən müzakirə olunacaq. Həm də ona görə ki, muxtar respublika beynəlxalq səviyyədə nəqliyyat arteriyasına çevrilir.

Prezident İlham Əliyevin müsahibəsi qlobal və regional rəqabətin gücləndiyi bir zamanda Azərbaycanın Avrasiya geosiyasətindəki təyinedici xüsusiyyətləri barədə gündəlik formalaşdırdı.

Çünki strateji nəqliyyat bağlantısı ilə bağlı proqramlar Azərbaycan-Ermənistan sülh gündəmi fonunda həm regional dinamikanı, həm də Avropa ilə Asiya arasında ticarətin gələcəyinə müsbət təsir edən prinsiplərə malikdir.

Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək Zəngəzur dəhlizi (TRIPP marşrutu) strateji nəqliyyat marşrutuna çevrilir. Belə ki, Zəngəzur dəhlizinin "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərində birləşdirici qol olması geniş əməkdaşlıq formatı yarada bilər.

Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin perspektivini Naxçıvanda şaxələndiriləcək nəqliyyat infrastrukturu ilə izah etməsi həmin format haqqında müsbət təəssüratlar yaradır. Çünki dövlətimizin başçısı bu dəhlizi Şərq-Qərb və Şimal-Cənub meqa-nəqliyyat arteriyalarının strateji kəsişmə nöqtəsi kimi qiymətləndirdi. Prezidentin verdiyi mesajlardan aydın olur ki:

*- Zəngəzur dəhlizi regional kommunikasiyaların bərpa olunması çərçivələrindən kənara çıxaraq Avrasiyanın logistik zəncirində mühüm rol oynayacaq;*

*- Şaxələndirmə "Şimal-Cənub" dəhlizinin coğrafi əhatəsini Körfəz və Pakistan kimi strateji regionlara qədər genişləndirir. Bu, makrodəhlizlər sistemində Naxçıvanın geoiqtisadi mərkəz statusunu formalaşdırır.*

### Yekun

Dövlətimizin başçısı Naxçıvanın təhlükəsizliyində güc strukturunun əhəmiyyətini vurğulamaqla Azərbaycanın tranzit marşrutları üzərində genişlənən mövqeyinə dərindən nəzər salır. Bu, regionda güc mərkəzlərinin ambisiyaları ilə əlaqəli olan inhisarı aradan qaldırmaq üçün dəqiq hesablanmış addımların elan edilməsi kimi başa düşülə bilər.

Zəngəzur dəhlizi Azərbaycan üçün regional və qlobal əməkdaşlıqda rəqabəti balanslaşdıraraq, əvəzində konsolidasiya yaradan təsir alətidir. Bu, Avropa ilə Asiya bazarlarını birləşdirən ticarət arxitekturasının səmərəli xətlərindən birini təşkil edir. Lakin Azərbaycan daha geniş strateji ölçünü də nəzərə alır. Bu, Avrasiya boyunca normaların nəzərə alınması, mövcud əlaqələr sistemini dəyişdirməyə yönəlmiş geniş geosiyasi mübarizənin yaratdığı risklərin ölçülməsidir.

AZƏRTAC

# Dünya mediası Prezident İlham Əliyevin Naxçıvanda səsləndirdiyi fikirlərə geniş yer ayırıb

















**Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər müxtəlif ölkələrin media qurumları tərəfindən geniş işıqlandırılıb.**

AZƏRTAC xəbər verir ki, Rusiyanın **"Kommersant"**, **"İnterfaks"**, **"Vestnik Kavkaza"** və **"NEWS.ru"** media orqanları dövlətimizin başçısının müsahibəsindən əsas məqamlarını oxucuların diqqətinə çatdırıblar.

**"Kommersant"** Azərbaycanın neft və qazla yanaşı, elektrik enerjisini də Avropa bazarına çıxarmaq niyyətini önə çəkib. Nəşr Prezident İlham Əliyevin müsahibəsində bu barədə səsləndirdiyi "yerləşdiyimiz bölgədə bizdən başqa bu qədər enerji ilə, istər neft-qaz, istər elektrik enerjisi ilə təmin olunan ikinci ölkə yoxdur. Qonşu ölkələrə ixrac imkanlarımızı genişləndirərək biz eyni zamanda Avropa bazarına da çıxacağıq" fikirlərini oxucularının diqqətə çatdırıb.

**"İnterfaks"** isə enerji ixracının genişləndirilməsi, elektrik enerjisinin Gürcüstan və Türkiyə ərazilərindən Avropaya çatdırılması, "Black Sea Energy" layihəsi, eləcə də Naxçıvanda Günəş-elektrik stansiyalarının gücünün artırılması ilə bağlı məlumatlara geniş yer ayırıb. Agentlik xəbərində, həmçinin Prezident İlham Əliyevin TRIPP layihəsi ilə bağlı açıqlamalarına da yer verib.

Agentlik Zəngəzur dəhlizi üzrə praktiki işlərin başlanması, Horadiz-Ağbənd avtomobil yolunun hazırkı vəziyyəti, dəmir yolunun 2027-ci ildə Ermənistan sərhədinə çatdırılmasının planlaşdırılması və marşrutun illik 15 milyon ton yükdaşıma qabiliyyətinə malik olacağı barədə məlumatları oxucularına çatdırıb. Qeyd edilib ki, Naxçıvan dəmir yolunun yenidən qurulması və ümumi uzunluğunun 194,2 kilometrə çatdırılması, həmçinin 10 stansiyanın yenidən qurulması nəzərdə tutulur.

**"Vestnik Kavkaza"** Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın vahid konsepsiya əsasında inkişaf etdirilməsi, eləcə də Zəngəzur dəhlizinin nəqliyyat imkanları ilə bağlı fikirləri xüsusi qeyd edib.

**"NEWS.ru"** portalı isə Azərbaycanın əsas hissəsindən Naxçıvana Ermənistan ərazisindən keçməklə elektrik verilişi xətlərinin çəkilməsi layihəsinin hazır olması barədə Prezident İlham Əliyevin açıqlamasını yayıb.

Gürcüstanın **"Interpressnews.ge"**, **"1TV.ge"** və **"BPN.ge"** xəbər portalları da Prezident İlham Əliyevin fikirlərinə geniş yer verib.

**"1TV.ge"** saytı dövlətimizin başçısının Rusiya, Ermənistan və Azərbaycan arasında imzalanmış üçtərəfli Bəyanatın Ermənistan üçün əhəmiyyəti ilə bağlı açıqlamalarını oxucularına çatdırıb. Eyni zamanda sənədin Ermənistan üçün kapitulyasiya aktı kimi qiymətləndirilməsi barədə fikirlərə də diqqət ayrılıb.

**"Interpressnews.ge"** portalının xəbərində qeyd edilib ki, Azərbaycan Avropa bazarına elektrik enerjisi ixrac etmək niyyətindir. Bu istiqamətdə əsas marşrut Gürcüstan və Türkiyə ərazilərindən keçəcək. Eləcə də Qara dəniz enerji kabeli layihəsinin texniki-iqtisadi əsaslandırması hazırlanıb. Sayt həmçinin Prezident İlham Əliyevin Ermənistanın köhnəlmiş atom elektrik stansiyasının bütün region üçün təhlükə mənbəyi olduğu, onun gec-tez fəaliyyətinin dayandırılmasının zəruriliyi və TRIPP layihəsi çərçivəsində Ermənistan ərazisində elektrikötürücü infrastrukturun yaradılması ilə bağlı fikirlərini ayrıca yayımlayıb.

**"BPN.ge"** isə yaydığı informasiyada Azərbaycanın Avropa enerji bazarına çıxmaq planını, bu məqsədlə Gürcüstan və Türkiyə üzərindən keçəcək marşrutun əhəmiyyətini ön plana çıxarıb. Portal dövlətimizin başçısının bu marşrutun hazırda yeganə çıxış yolu olması barədə fikrini sitat olaraq gətirib: "Qonşu ölkələrə ixrac imkanlarımızı genişləndirərək biz eyni zamanda Avropa bazarına da çıxacağıq. Çünki biz indi Avropaya neftimizlə, qazımızla çıxmışıq. Ancaq biz elektrik enerjisi ilə də çıxmaq istəyirik".

**"Ambebi.ge"** saytı da öz oxucularına Prezident İlham Əliyevin Ermənistanın atom elektrik stansiyasının köhnəlməsi və regiona təhlükə yaratması, stansiya bağlandıqdan sonra yaranacaq enerji böhranı ilə bağlı fikirlərini təqdim edib.

Türkiyə mediası da Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi mühüm məqamları geniş işıqlandırıb.

**"Anadolu Agentliyi"**, **"Haberler.com"**, **"Doğruhaber"** və **"Yeni Akit"** kimi portallar xəbərlərində Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin açılması, TRIPP layihəsinin icrasına başlanılması, dəhlizin illik ən azı 15 milyon ton yükdaşıma potensialı və onun nəqliyyatla yanaşı, fiber-optik, elektrik, gələcəkdə isə neft və qaz xətlərini əhatə edə biləcəyi ilə bağlı fikirlərinə geniş yer ayırıb.

**"Yozgat"**, **"Türkgün"**, **"YeniBirlik"**, **"SonDakika.com"** və **"Saraymedya"** Naxçıvana Ermənistan ərazisindən elektrik xətlərinin çəkilməsi layihəsinin hazır olmasına, Cəbrayılda böyük yarımstansiyanın inşasına və Zəngəzur dəhlizinin enerji komponentinə diqqət yetirib.

**"Ankara NetHaber"** enerji dəhlizinin Ermənistan ərazisindən Naxçıvana, oradan Türkiyə və Avropaya uzanacağını, rəsmi İrəvan üçün alternativ enerji mənbəyi yarada biləcəyini vurğulayıb.

**"Yeni Akit"** qəzeti Ermənistanın atom-elektrik stansiyasının yaratdığı təhlükəyə, "Fikirturu.com" portalı isə Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında "C5+1" formatında nəqliyyat, enerji və iqtisadi əməkdaşlığın əhəmiyyətinə dair fikirləri oxucularına çatdırıb.

**"TRHaber"** ABŞ, Azərbaycan və Ermənistanın Vaşinqton Sammitinin birinci ildönümü ilə bağlı Birgə Bəyanatını işıqlandıraraq, sənəddə ötən il keçirilən görüşdən sonra əldə olunan irəliləyişlərə diqqət çəkildiyini, uzun illər davam edən münaqişəyə son qoyan təməlin möhkəmləndirilməsi və Cənubi Qafqazın daha firavan gələcəyə yönəldilməsi istiqamətində qətiyyətin ifadə olunduğunu qeyd edib.

Şimali Kiprin **"Kıbrıs Türk"** informasiya portalı isə Prezident İlham Əliyevin Naxçıvana Ermənistan ərazisindən elektrik xəttinin çəkilməsi layihəsinin hazır olması, Zəngəzur dəhlizinin yalnız nəqliyyat deyil, həm də enerji, fiber-optik və gələcəkdə neft-qaz xətlərini əhatə edə biləcəyi ilə bağlı açıqlamalarına yer verib. Portal həmçinin yaradılacaq enerji dəhlizinin Naxçıvandan Türkiyəyə və Avropaya uzanacağını, Azərbaycanın elektrik enerjisi ilə Avropa bazarına çıxmaq planı ilə bağlı fikirləri təqdim edib.

# Prezidentin Naxçıvanla bağlı sərəncamından irəli gələn prioritetlər



**Prezident İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncam imzalayıb.**

Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə respublikanın dövlət büdcəsindən və muxtar respublikanın büdcəsindən ümumilikdə 258 milyon manat vəsait ayrılıb.

Bu, dövlətimizin başçısının regiona yönəlmiş sistemli və ardıcıl siyasətinin bariz nümunəsidir. Qeyd edək ki, bu maliyyə paketi, 2023-2027-ci illəri əhatə edən dövlət proqramlarının məntiqi davamıdır. Ayrılan investisiya Naxçıvanın modernləşdirilməsində yeni bir strateji mərhələnin əsasını qoyur. Maliyyə paketi konseptual olaraq aşağıdakı sahələr üzrə keyfiyyət dəyişikliklərinə hədəflənir:

- *Naxçıvanın infrastruktur bazasının möhkəmləndirilməsi,*
- *Naxçıvanın ölkənin ümumi inkişafına töhfəsinin gücləndirilməsi.*

Detallar üzrə gözlənilən inkişaf dinamikası mənzərəni daha aydın şəkildə göstərir.

Belə ki, regionda məşğulluğu artırmaqla əhalinin həyat səviyyəsinin yüksəlməsinə imkan yaradılması bu sərəncamın əhatə dairəsində prioritet təşkil edir.

Dövlətimizin başçısı İlham Əliyev avqustun 11-də Naxçıvanda səfərdə olarkən Azərbaycan Televiziyasına müsahibəsində bildirib: "Digər tədbirlərə gəldikdə, əlbəttə ki, burada xüsusilə iş yerlərinin yaradılması ilə bağlı görülən və görüləcək işləri qeyd edə bilərəm. Bu gün Naxçıvan Sənaye Parkının təməli qoyuldu. Azərbaycanda mənim göstərişimlə bir çox sənaye parkları yaradılmışdır və onların arasında ərazi nöqteyi-nəzərindən Naxçıvan Sənaye Parkı Sumqayıt Sənaye Parkından sonra ikincidir. Dediyim kimi, təməl daşı qoyuldu və əminəm ki, tezliklə bu sənaye parkında artıq praktiki işlər başlanacaqdır".

Hazırda Naxçıvan Sənaye Parkının, Naxçıvan şəhərində 518 mənzilli sosial evlərin və yeni hotel kompleksinin tikintisinə başlanılması üçün müvafiq tədbirlər görülür.

Müsahibədəki ştrixlər və ardınca imzanan sərəncam göstərir ki, Naxçıvanla bağlı proqram təkcə sosial, məşğulluq sahəsini deyil, eyni zamanda:

- *nəqliyyat yollarının şaxələndirilməsini,*
- *bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsini,*
- *abadlıq-quruculuq işlərini,*
- *təhsil infrastrukturunun yenilənməsini də nəzərdə tutur.*






## Nəqliyyat infrastrukturu üzrə

Bildirək ki, Naxçıvan Muxtar Respublikasında nəqliyyat imkanlarının genişləndirilməsi prioritetdir. 194,2 kilometrlik təkxətli Naxçıvan dəmir yolu xəttinin 7 kilometrlik hissəsində tikinti işləri aparılır. Bu yenilənmə və şaxələnmə Zəngəzur dəhlizinin perspektivi ilə daha böyük əhəmiyyət qazanır. Bununla da, Naxçıvan regional inkişafın məntiqinə uyğun olaraq xarici investisiyalar üçün münbit yer olacaq.

Digər tərəfdən, 420 kilometr uzunluğunda kəndlərarası, şəhər və kənd yolları əsaslı təmir ediləcək. Bu, 156,3 min nəfər əhalinin yaşadığı 26 yaşayış məntəqəsini əhatə edir.

## Enerji statusu dəyişir

Naxçıvanın enerji xəritəsindəki yeri, onu idxal edən tərəfdən ixrac potensialına keçid edən statusunu rəsmiləşdirir.

Naxçıvanda 15,6 MVt-lıq yeni SES-in inşasına ayrılan vəsait (66 milyon manat) regionun enerji müstəqilliyini təmin etməklə ölkənin "yaşıl enerji" hədəflərinə xidmət edir. Bölgədə tikintisi sürətlənən Günəş və su elektrik stansiyaları Naxçıvanı təmiz enerji mərkəzinə çevirir.

## Bərpa-quruculuq

Bərpa-quruculuq işləri ilə əlaqədar Naxçıvan, Şərur, Culfa, Ordubad və Şahbuz şəhərlərində ümumilikdə 2 min 164 mənzilli 92 yaşayış binasının tam, Naxçıvan, Culfa və Şərur şəhərlərində cəmi 3 min 87 mənzilli 70 yaşayış binasının isə yalnız fasad hissəsinin əsaslı təmiri üçün 15 milyon manat ayrılıb.

Eləcə də istilik qazanxanalarının əsaslı şəkildə yenidən qurulması, sosial-məişət infrastrukturunun təkmilləşdirilməsi ilə minlərlə ailənin mənzil-kommunal təminatının keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yüksəldəcək. Bu məqsədlə 9 milyon manat ayrılıb.

## Təhsilin inkişafı naminə vəsait

Təhsil sahəsinə ayrılan diqqətin artırılması da ölkənin regiondakı mövqeyini gücləndirir.

Prezident İlham Əliyevin sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının təhsil sahəsinin yenidən qurulması üçün ümumilikdə 45 milyon manat vəsait ayrılması nəzərdə tutulur.

Vəsaitin 25 milyon manatı Naxçıvan Dövlət Universitetində tələbələr üçün 1000 yerlik yataqxana kompleksinin tikintisi məqsədilə ayrılıb.

Daha 20 milyon manat vəsait isə 640 yerlik 5, o cümlədən Naxçıvan şəhərinin Bulqan kəndində 100 yerlik, Ordubad rayonunun Dəstə kəndində 100 yerlik, Şərur şəhərində 100 yerlik, Culfa rayonunun Əbrəqunus kəndində 240 yerlik, Kəngərli rayonunun Qarabağlar kəndində 100 yerlik yeni məktəbəqədər təhsil müəssisəsinin tikintisinə xərclənəcək.

## Yekun

Prezident İlham Əliyevin müvafiq sərəncamı Naxçıvanla əlaqədar nəticə əsaslı yekunlar çıxarır. Belə ki, ayrılan 258 milyon manatlıq maliyyə paketi Naxçıvanı dayanıqlı iqtisadi artım mərkəzinə çevirəcək strateji yanaşmaya əsaslanır.

Sənaye və "yaşıl enerji" sahələrinə qoyulan investisiyalar muxtar respublikanın idxaldan asılılığını minimuma endirməyi hədəfləyir. Bundan sonra onun ixrac potensialının strateji səviyyəyə qaldırılması qarşıya məqsəd qoyulur. Yol-nəqliyyat strukturunun Zəngəzur dəhlizi kontekstində yenilənməsi isə Naxçıvanı regional logistik qovşağa çevirməklə onu xarici sərmayələr üçün cəlbedici məkana çevirir.

Sosial infrastrukturun və təhsil mühitinin eyni vaxtda modernləşdirilməsi insan kapitalının keyfiyyətini artırmağa birbaşa xidmət edir. Bu, demoqrafik statistik göstəricilərin yüksəldilməsi üçün mühüm amildir.

Beləliklə, Prezident İlham Əliyevin sərəncamı Naxçıvanın uzunmüddətli iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, onun Azərbaycanın ümumi daxili məhsulundakı payını əhəmiyyətli dərəcədə gücləndirəcək.

Beynəlxalq iqtisadi icmal

# İqlim və insan amilləri qlobal ərzaq böhranına səbəb ola bilər

**Rusiya-Ukrayna müharibəsi getdikcə şiddətlənir, Amerika ilə İran arasında gah qızışan, gah da səngiyən savaşın isə sonu bəlli deyil. Amma bəlli olan odur ki, hər iki müharibə qlobal iqtisadiyyata ciddi ziyan vurmaqda davam edir.**



Bütün dünyada mal və xidmətlərin qiyməti kəskin bahalaşıb, qlobal iqtisadi inkişafın səviyyəsi aşağı düşüb. Bütün bunların zərbəsi isə daha çox əhaliyə dəyir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) proqnozuna görə, 2026-2027-ci il mövsümündə ərzaqlıq buğda istehsalı ötən mövsümlə müqayisədə 3,8 faiz azalacaq. "Energy and Climate Intelligence Unit"in hesablamalarına əsasən, bu ilin iyun ayında 43 dərəcəyə çatan isti dalğası Avropada təxminən 9 milyon ton taxılı məhv edib. Zərərin 2,1 milyard avroya çatdığı təxmin olunur. Yeri gəlmişkən qeyd edək ki, bu mövsüm Avropa İttifaqında buğda istehsalının 4,2 faiz azalması gözlənilir. Təəssüf ki, belə vəziyyət Avropa ilə məhdudlaşmır, dünyanın digər regionlarını da əhatə edir. ABŞ-də buğda istehsalının Dakota ştatında qeydə alınan quraqlıq, həmçinin payızlıq buğda əkinlərinin kəskin azalması nəticəsində 21,3 faiz azalması ehtimalı var.

Dünyada ərzaq böhranını yarada biləcək iki əsas səbəb var: birincisi, illər boyu dünyada davam edən istilər buğda və düyü kimi mühüm strateji ərzaq növlərində məhsuldarlığın aşağı düşməsinə səbəb olub. Belə vəziyyət isə istər-istəməz qiymətləri bahalaşdırır. Qiymət bahalığı da öz növbəsində inkişaf etməmiş ölkələrdə əhalinin alıcılıq qabiliyyətini aşağı salır.

Dünyada ərzaq böhranının yenidən baş qaldırması təkcə iqlimlə əlaqəli deyil, həm də insan faktoru ilə bağlıdır. Təkcə savaşda olan Rusiya və Ukrayna dünyanın buğdaya olan tələbatının 20 faizini ödəyirdi. Bu gün isə davam edən müharibələr üzündən dünya bazarına tələbatdan az məhsul çıxarılır. Məlum olduğu kimi, Ukrayna və Rusiya buğda ixracını Qara dəniz üzərindən həyata keçirir. İndi həmin dənizlə yük daşımaq təhlükəsiz deyil. Mütəxəssislər hesab edirlər ki, vəziyyət belə davam edərsə, ilin sonunda ən azından qlobal buğda böhranının baş verməsi qaçılmaz olacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bakı Təşəbbüs Qrupu Qlobal Cənub Gənclər Platformasının üzvlərini bir araya gətirib

**Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı və Qlobal Cənub Gənclər Platformasının (GSYP) birgə tərəfdaşlığı ilə 12 Avqust - Beynəlxalq Gənclər Günü münasibətilə geniştərkibli videokonfrans keçirilib.**

BTQ-dən AZƏRTAC-a bildirilib ki, BMT Baş Assambleyası tərəfindən 1999-cu ildə təsis edilən bu əlamətdar gündə baş tutan virtual görüş, Qlobal Cənubun gənc liderlərinin beynəlxalq müstəvidə fəaliyyətini əlaqələndirmək və müştərək beynəlxalq layihələri müzakirə etmək məqsədi daşıyıb. Görüş zamanı tərəflər təmsil etdikləri qurumların fəaliyyət istiqamətləri və prioritetləri barədə məlumat verib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Onlayn konfransda 20 fərqli ölkədən müxtəlif gənclər təşkilatlarının üzvləri, rəhbərləri və BMT İnkişaf Proqramının məsləhətçiləri iştirak ediblər.




Müzakirələr çərçivəsində BTQ və GSYP arasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsi imkanları, perspektivlər, eləcə də birgə təşəbbüslərin həyata keçirilməsi məsələləri nəzərdən keçirilib.

Tərəflər qarşılıqlı maraq doğuran istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi və davamlı əlaqələrin yaradılmasının əhəmiyyətini qeyd ediblər.

Görüşdə həmçinin gələcəkdə mühüm qlobal tədbirlərdə birgə təşəbbüslərin həyata keçirilməsi və digər fəaliyyətlərin təşkili imkanları müzakirə olunub, mümkün əməkdaşlıq formatları barədə ilkin fikir mübadiləsi aparılıb.

Tərəflər gənclərin beynəlxalq proseslərdə fəal iştirakının təşviqi, müxtəlif regionlardan olan gənclər arasında əlaqələrin gücləndirilməsi və onların qlobal əhəmiyyətli məsələlər üzrə dialoqa cəlb olunması istiqamətində birgə təşəbbüslərin həyata keçirilməsi perspektivlərini müzakirə ediblər.

Xatırladaq ki, Qlobal Cənub Gənclər Platforması (GSYP) Bakı Təşəbbüs Qrupunun (BTQ) dəstəyi və təşkilati dəstəyi ilə 2026-cı il mayın 1-də yaradılıb.

# "Müxtəlif sahələrin paralel inkişafı Naxçıvan iqtisadiyyatının şaxələndirilməsini sürətləndirəcək"

"Azərbaycanda mövcud olan iqtisadi-siyasi sabitlik ölkəmizin hərtərəfli inkişafında müstəsna rola malikdir. Həyata keçirilən dövlət proqramları, ardıcıl islahatlar, uğurla reallaşdırılan layihələr ölkəmizin davamlı və dayanıqlı inkişafını, əhalinin sosial rifah halının yüksəldilməsini təmin edir. Təbii ki, Azərbaycanın son illərdə qazandığı sosial-iqtisadi nailiyyətlərin mühüm xüsusiyyətlərindən biri inkişaf prosesinin bütün bölgələri əhatələməsi, regionların mövcud potensialından səmərəli istifadəni təmin edən sistemli yanaşmanın tətbiq olunmasıdır".

Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İSMAYILOV** söyləyib.



O bildirib ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə icra olunan regional inkişaf strategiyası nəticəsində bölgələrimizdə müasir infrastrukturun yaradılması, enerji və nəqliyyat təminatının yaxşılaşdırılması, yeni istehsal sahələrinin formalaşdırılması, məşğulluğun artırılması və digər istiqamətlərdə mühüm nəticələr qazanılıb. Ayrı-ayrı iqtisadi rayonların spesifik imkanları və üstünlükləri nəzərə alınmaqla həyata keçirilən layihələr bütövlükdə ölkəmizin dayanıqlı inkişafında mühüm rol oynayır.

Şahin İsmayılov qeyd edib ki, Prezident İlham Əliyevin bölgələrə mütəmadi səfərləri, görülən işlərlə yerində tanış olması, tapşırıq və tövsiyələrini verməsi regionlarımızın davamlı tərəqqisi istiqamətində tədbirlərin uğurlu icrasını təmin edir. Bu xüsusda, dövlətimizin başçısının Prezident kimi Naxçıvana 17-ci səfəri bölgənin iqtisadi, sosial, mədəni həyatında mühüm tədbirlərlə yadda qaldı.

Muxtar respublikanın inkişafında kompleks yanaşmanın tətbiq olunduğunu söyləyən komitə sədri bildirib ki, burada təhlükəsizliyin təmin edilməsindən iqtisadi fəallığın artırılmasına, energetikadan nəqliyyat infrastrukturuna, kənd təsərrüfatından turizmə, sosial xidmətlərdən tarixi-mədəni irsin qorunmasına qədər geniş istiqamətləri əhatə edən yeni inkişaf modeli tətbiq olunur. Naxçıvan Sənaye Parkının yaradılması bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ölkəmizin ən böyük ikinci sənaye parkı olacaq bu layihə yeni istehsal müəssisələrinin yaradılmasına, özəl investisiyaların cəlbinə və məşğulluğun artırılmasına imkan verəcək. Bununla yanaşı, sosial infrastrukturun yenilənməsi, müasir yolların tikintisi və əsaslı təmiri, rayonlararası nəqliyyatın yenilənməsi və turizm infrastrukturu üzrə nəzərdə tutulan layihələr inkişafın çoxşaxəli xarakter daşıdığını göstərir.

Deputat qeyd edib ki, enerji sahəsində nəzərdə tutulan layihələr Naxçıvanın gələcək iqtisadi inkişafında mühüm rol oynayacaq. Naxçıvanda aqrar sektorun daha da inkişafı üçün böyük potensial mövcuddur. Bu baxımdan yeni artezian quyularının qazılması, müasir suvarma sistemlərinin qurulması və indiyədək suvarılmayan torpaqların əkin dövriyyəsinə cəlb edilməsi kənd yerlərində iqtisadi fəallığın və məşğulluğun artmasına şərait yaradacaq. Beləliklə, sənayeləşmə, energetika, kənd təsərrüfatı, turizm və xidmət sektorlarının paralel inkişafı Naxçıvan iqtisadiyyatının şaxələndirilməsini sürətləndirəcək.



# 20 kanal yenidən qurulacaq, 41 nasos stansiyası əsaslı təmir olunacaq, 40 artezian quyusu qazılacaq

## Su təhlükəsizliyinin təminatı muxtar respublikada kənd təsərrüfatı üzrə hədəflərə çatmağa imkan verəcək

**Bu** ilin may ayında təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda Naxçıvan Muxtar Respublikası ilə bağlı əsas hədəf və pilot layihələrin də özünəməxsus yeri var. Bunlar müəyyən edilərkən Naxçıvanın təbii-iqlim şəraiti və resurs potensialı xüsusi nəzərə alınıb.

Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına verdiyi müsahibədə sözügedən sənəddə Naxçıvana aid xüsusi bir hissə olduğunu bir daha qeyd etmişdir. Bəs muxtar respublikada aqrar sahənin inkişafının əsas istiqamətləri və pilot layihələr nədən ibarətdir? Bunlardan biri model kooperativin yaradılmasıdır. Belə ki, dövlət dəstəyi ilə Naxçıvanda pilot olaraq bir model kənd təsərrüfatı kooperativinin yaradılması və fəaliyyətinin dəstəklənməsi nəzərdə tutulur.

İstehsal və emal sahələrində də hədəflər var. Burada süd, ət istehsalı və qoyunçuluq kimi sahələrdə regional inkişaf prioritetlərinə uyğun olaraq dəyər zəncirinin gücləndirilməsi planlaşdırılır.

Eləcə də modernləşmə və texnologiya diqqət mərkəzindədir. Başqa sözlə, Naxçıvan MR-in aqrar sektorunda müasir texnologiyaların və süni intellekt əsaslı rəqəmsal həllərin tətbiqi imkanları genişləndirilir.

Xüsusi diqqət yetirilən istiqamətlərdən biri də su təminatıdır. Odur ki, dövlət proqramının icra mexanizmlərinə kənd təsərrüfatı təyinatlı təsərrüfatların su təchizatının yaxşılaşdırılması tədbirləri də daxil edilib.

"Yəni proqramın tərkib hissəsinə baxmaq kifayətdir ki, burada hər kəs görsün ki, Naxçıvanın inkişafı reallıqdır. Onu da əlavə edə bilərəm ki, bu yaxınlarda - bir neçə ay bundan əvvəl qəbul edilmiş kənd təsərrüfatının inkişafına dair dövlət proqramında da Naxçıvanın xüsusi yeri var, payı var, lazımi vəsait nəzərdə tutulub. O cümlədən kənd təsərrüfatının inkişafı üçün vacib olan amil - suvarma layihələri icra edilir. Bir çox artezian quyuları qazılacaq, müasir suvarma sistemləri quraşdırılacaq. Bu gün suvarılmayan torpaqlara su veriləcək. Beləliklə, muxtar respublikanın inkişafı daha sürətli və hərtərəfli olacaq",- deyə dövlətimizin başçısı bildirib.

Göründüyü kimi, Naxçıvanda su təhlükəsizliyi üzrə genişmiqyaslı proqram həyata keçiriləcək. Belə ki, ərazinin təbii-coğrafi xüsusiyyətləri nəzərə alınmaqla su təhlükəsizliyinin təmin edilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə, su itkilərinin azaldılması və müasir suvarma infrastrukturunun yaradılması muxtar respublikanın uzunmüddətli inkişaf gündəliyinin strateji istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Bu istiqamətdə işlər ayrıca təsdiq edilən su təsərrüfatına aid tədbirlər planları ilə əlaqəli şəkildə görüləcək.

Xatırladaq ki, bu il fevralın 21-də imzalanmış sərəncamla "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı" təsdiq edilib. Fevralın 24-də imzalanmış digər sərəncamla isə əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər müəyyən olunub.

Qəbul edilmiş qərarlara əsasən, muxtar respublikanın su təsərrüfatı genişmiqyaslı şəkildə yenilənəcək. Həyata keçiriləcək tədbirlər çərçivəsində 41 nasos stansiyası və təzyiqli boru xətləri əsaslı təmir olunacaq, 20 kanal yenidən qurulacaq. Bundan başqa, Salvartı su anbarının bərpası, Heydər Əliyev adına Su Anbarında əsaslı təmir işlərinin aparılması, eləcə də yeni suvarma infrastrukturunun yaradılması planlaşdırılır.

Görüləcək işlərin həcmi rəqəmlərdən də bəlli olur. Belə ki, suvarma imkanlarının genişləndirilməsi məqsədilə 8563 metr özaxınlı boru xəttinin inşası, 2200 hektar ərazidə qapalı suvarma sisteminin, 5600 hektarda isə kollektor-drenaj şəbəkəsinin yaradılması nəzərdə tutulur. Kollektor-drenaj şəbəkəsinin 2200 hektarı Kəngərli, 3400 hektarı Şərur rayonlarını əhatə edəcək, Naxçıvan şəhəri üzrə müvafiq göstəricilər isə layihələndirmənin nəticələrinə əsasən müəyyənləşdiriləcək.

Sudan söz düşmüşkən, onu da qeyd edək ki, adıçəkilən proqramın mühüm istiqamətlərindən biri də əhalinin dayanıqlı və keyfiyyətli içməli su təminatının gücləndirilməsidir. Bu məqsədlə Sədərək və Kəngərli rayonlarının mərkəzlərində və bir sıra yaşayış məntəqələrində su təchizatı və kanalizasiya şəbəkələrinin inşası, Ordubad şəhərinin içməli sutəmizləyici qurğusunun əsaslı təmiri və Babək şəhərində yeni içməli sutəmizləyici qurğunun inşası nəzərdə tutulub.

Əhalinin içməli su təminatının yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək mühüm tədbirlərdən biri kimi subartezian quyusunun qazılması müəyyənləşdirilib. 38 yaşayış məntəqəsində 40 belə quyunun qazılması planlaşdırılıb.

Beləliklə, 2026-2030-cu illəri əhatə edən tədbirlər yalnız ayrı-ayrı su təsərrüfatı obyektlərinin bərpasını deyil, su mənbəyindən istehlakçıya qədər bütöv su idarəetmə zəncirinin yenilənməsini hədəfləyir. Nasos stansiyalarının və magistral su infrastrukturlarının bərpası, kanalların yenidən qurulması, müasir suvarma sistemlərinin yaradılması, sutəmizləyici qurğuların yenilənməsi və yaşayış məntəqələrinin içməli su və kanalizasiya şəbəkələri ilə təmin edilməsi Naxçıvanda su təhlükəsizliyinin uzunmüddətli əsaslarının formalaşdırılmasına, kənd təsərrüfatının dayanıqlı inkişafına və əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək.

Su təhlükəsizliyinin gücləndirilməsi muxtar respublikanın zəngin kənd təsərrüfatı potensialının daha səmərəli reallaşdırılmasına, aqrar sektorun modernləşdirilməsinə və müasir istehsal modellərinin tətbiqi istiqamətində strateji hədəflərə çatmağa dəstək verəcək.

***Flora SADIQLI, "Azərbaycan"***

# TRIPP layihəsi Naxçıvanın iqtisadi inkişafına təkan verəcək

Prezident İlham Əliyevin Naxçıvana səfəri təkcə ölkəmizin ayrılmaz hissəsi olan muxtar respublikanın sosial-iqtisadi inkişafı baxımından deyil, bütövlükdə regionda formalaşan yeni geosiyasi və nəqliyyat reallıqları fonunda da mühüm əhəmiyyət daşıyır. Zəngəzur dəhlizi (TRIPP) Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında Ermənistan ərazisindən keçməklə maneəsiz bağlantının yaradılmasını nəzərdə tutur. 2025-ci ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmalarla bu istiqamətdə siyasi əsas formalaşdırılıb. Azərbaycan tərəfinin təqdim etdiyi konsepsiyada TRIPP yalnız bir nəqliyyat xətti deyil, daha geniş regional bağlantı platforması kimi qiymətləndirilir.



**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyev avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində 2025-ci il avqustun 8-də tarixi Vaşinqton Zirvə görüşündə bu məsələnin öz həllini tapdığını qeyd edib. Deputat qeyd edib ki, bu layihənin ən böyük strateji nəticələrindən biri Naxçıvanın coğrafi baxımdan təcrid olunmuş mövqeyinin əhəmiyyətli dərəcədə dəyişməsidir. Naxçıvan bundan sonra Azərbaycanın əsas hissəsi ilə daha intensiv iqtisadi, logistika və nəqliyyat əlaqələrinə malik olacaq. Bu isə muxtar respublikanın daxili inkişaf dinamikasına, investisiya imkanlarına və biznes mühitinə birbaşa təsir göstərəcək. "Əslində, Naxçıvanın əhəmiyyəti yalnız Azərbaycan daxilindəki bağlantı ilə məhdudlaşmır. Zəngəzur dəhlizinin reallaşması Naxçıvanı Azərbaycan, Türkiyə, Cənubi Qafqaz və daha geniş Avrasiya nəqliyyat sistemləri arasında mühüm keçid məntəqələrindən birinə çevirəcək. Bu baxımdan layihənin Orta Dəhlizlə əlaqələndirilməsi xüsusi əhəmiyyət daşıyır. TRIPP Orta Dəhlizin növbəti mühüm seqmentinə çevrilməklə yanaşı, Asiya ilə Avropa arasında yükdaşımaları və beynəlxalq ticarət imkanlarını daha da genişləndirəcək. Gələcəkdə enerji, elektrik enerjisi, xüsusilə bərpaolunan enerji və fiber-optik kommunikasiya xətlərinin də bu bağlantı imkanlarından faydalanması nəzərdə tutulur. Avropa İttifaqı səviyyəsində də bu layihə xüsusi maraq doğurur. Prezident İlham Əliyev müsahibəsində bu məsələyə toxunaraq bildirdi ki, bir çox beynəlxalq qurum, bəzi ölkələr bu yola maraq göstərir, xüsusilə Azərbaycan dəmir yollarının Naxçıvan seqmentinə. Onlardan biri Avropa İttifaqıdır: "Avropa İttifaqının nümayəndələri Naxçıvana ezam edilmişdir. Burada yerlərdə vəziyyətlə tanış olmuşlar və onlar da bu dəhlizin iştirakçıları olmaq istəyirlər. Biz prinsip etibarilə buna etiraz etmirik. Bizim mövqeyimiz ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsində yerləşən ərazilərdə Azərbaycan Dəmir Yolları artıq bütün işləri yekunlaşdırır və burada hər hansı bir xarici iştiraka ehtiyac yoxdur. O ki qaldı, Naxçıvan dəmir yolunun reabilitasiyasına, burada prinsip etibarilə beynəlxalq konsorsium yaradıla bilər. Təbii ki, nəzarət paketi Azərbaycan dövlətinə məxsus olmaq şərti ilə beynəlxalq konsorsium investorlardan ibarət ola bilər və biz buna açığıq. Olmasa da, biz özümüz bu yolu çəkəcəyik. Bizim indi hansısa maliyyə problemlərimiz yoxdur. Olsaydı belə bu önəmli layihəyə hər zaman biz vəsait tapardıq. Amma biz hesab edirik ki, bu yolu beynəlxalq aktorlar və potensial yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə Naxçıvan dəmir yolu layihəsi məhz dediyim kimi, bir neçə şirkətdən ibarət konsorsium tərəfindən inşa edilə bilər", - deyə deputat əlavə edib.

V.Rəhimzadə deyib ki, bütün bunlar Zəngəzur dəhlizinin artıq yalnız regional məsələ olmadığını göstərir. Həyata keçirilən layihələr Naxçıvanı Azərbaycanın Avrasiya nəqliyyat xəritəsində mövqeyini daha da gücləndirə biləcək strateji platformaya çevirir. Prezident İlham Əliyevin Naxçıvana səfəri də bu baxımdan xüsusi önəm kəsb edir. "Dövlət başçısının digər regionlarımız kimi Naxçıvana da diqqəti bu bölgəmizin Azərbaycanın ümumi iqtisadi və geostrateji inkişaf strategiyasındakı rolunun artdığını nümayiş etdirir. Son dövrdə Naxçıvanda sənaye, sahibkarlıq və investisiya istiqamətində həyata keçirilən layihələr də bu prosesin yalnız nəqliyyatla məhdudlaşmadığını göstərir", - deyə o bildirib.

Deputat vurğulayıb ki, 2026-2027-ci illərdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsini, yol, nəqliyyat və təhsil infrastrukturunun yenilənməsini, habelə abadlıq-quruculuq işlərinin davam etdirilməsini təmin etmək məqsədilə imzalanan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncam böyük əhəmiyyət kəsb edir: "Qəbul edilmiş qərarların ardıcıl və sistemli icrası inkişaf siyasətinin mühüm tərkib hissəsidir. TRIPP-ın reallaşması Naxçıvan üçün yeni imkanlar yaradacaq: nəqliyyat və logistika fəaliyyətini genişləndirəcək, investisiya və istehsal potensialını artıracaq. Ən mühüm məqam isə ondan ibarətdir ki, Zəngəzur dəhlizinin mahiyyəti təkcə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında bağlantının təmin edilməsindən ibarət deyil. Bu layihə Cənubi Qafqazda uzun illər mövcud olmuş nəqliyyat məhdudiyyətlərinin aradan qaldırılması, region ölkələri arasında iqtisadi qarşılıqlı asılılığın artırılması və yeni ticarət marşrutlarının formalaşması baxımından daha geniş əhəmiyyət daşıyır. Bu mənada Naxçıvan gələcəkdə Şərqlə Qərbi, Azərbaycanla Türkiyəni, Mərkəzi Asiya ilə Avropanı birləşdirən mühüm strateji halqa kimi çıxış edəcək. Naxçıvanın strateji əhəmiyyəti daha da artacaq və TRIPP bu prosesin ən mühüm dayaqlarından birinə çevriləcək. Layihənin uğurlu icrası Naxçıvanın iqtisadi inkişafını sürətləndirməklə yanaşı, Azərbaycanın qlobal nəqliyyat və logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirəcək".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Naxçıvanın sosial-iqtisadi inkişafında yeni mərhələ başlayır

## Potensiallar reallıqlara çevriləcək

**N**axçıvan Muxtar Respublikası tarix boyu mürəkkəb coğrafi mövqeyinə baxmayaraq, öz inkişaf yolunu tapmağı bacaran bir diyar olub. Bu qədim torpaq əsrlər boyu zəngin tarixi və mədəni irsi, eləcə də insanlarının zəhməti, quruculuq ənənələri və iqtisadi potensialı ilə seçilib. İndi isə Naxçıvanın qarşısında yeni dövrün tələblərinə uyğun mühüm vəzifələr dayanır. Bu, mövcud imkanları daha geniş iqtisadi fəallığa çevirmək, yeni investisiyalar və istehsal sahələri yaratmaq, əhalinin məşğulluğunu artırmaq və insanların rifahını daha da yüksəltməkdən ibarət olan bir mərhələdir.

Son illər Naxçıvanın inkişafı istiqamətində həyata keçirilən ardıcıl tədbirlər qədim diyarın iqtisadi potensialının yeni müstəvidə dəyərləndirilməsi üçün mühüm zəmin yaradıb. Enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat, sahibkarlıq və sosial infrastruktur sahələrində atılan addımlar Naxçıvanın gələcək inkişaf konturlarını daha aydın göstərir. Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" sərəncamı məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Sərəncam Naxçıvanın qarşısında yeni inkişaf perspektivləri açmaqla yanaşı, burada iqtisadi fəallığın artırılması, sahibkarlığın və investisiya mühitinin genişləndirilməsi, sosial məsələlərin daha ardıcıl həlli üçün mühüm istiqamətlər müəyyənləşdirir. Başqa sözlə, qarşıdakı mərhələdə söhbət yalnız görülən işlərin davam etdirilməsindən deyil, Naxçıvanın malik olduğu potensialın daha böyük iqtisadi gücə çevrilməsindən gedir.

Sənəddə nəzərdə tutulan 258 milyon manatlıq vəsaitin müxtəlif istiqamətlər üzrə bölüşdürülməsi Naxçıvanın inkişafına kompleks yanaşmanı ortaya qoyur. Burada bir tərəfdən Ordubad rayonunun Tivi kəndində Gilançay üzərində ümumi gücü 15,6 MVt olan su-elektrik stansiyasının tikintisinin davam etdirilməsi ilə enerji imkanlarının genişləndirilməsinə, digər tərəfdən 26 yaşayış məntəqəsini birləşdirən yolların əsaslı təmirinə və şəhərlərarası ictimai nəqliyyat parkının yenilənməsinə diqqət yetirilir. Üstəlik, Naxçıvan Dövlət Universitetində tələbələr üçün yeni yataqxana kompleksinin, beş yaşayış məntəqəsində məktəbəqədər təhsil müəssisələrinin inşasının nəzərdə tutulması sosial inkişafın da diqqət mərkəzində olduğunu göstərir.

Bu addımların hər biri ayrı-ayrılıqda mühüm olsa da, onların ümumi mahiyyəti daha böyük bir məqsəddə birləşir: Naxçıvanda müasir həyat və inkişaf üçün zəruri olan əsas infrastrukturun daha da gücləndirilməsi. Yolun yenilənməsi yaşayış məntəqələri arasındakı əlaqələri yaxşılaşdırır, nəqliyyat imkanlarının genişlənməsi insanların gündəlik həyatını asanlaşdırır, enerji layihələri gələcək iqtisadi fəallıq üçün daha möhkəm zəmin yaradır. Təhsil infrastrukturu ilə bağlı tədbirlər isə bu inkişafın mərkəzində insan amilinin dayandığını göstərir.

Digər bir məqam insan amilinin ön plana çıxarılmasıdır. Yeni infrastrukturun qurulması yalnız fiziki dəyişiklik yaratmır. Yolun yenilənməsi yaşayış məntəqələri arasındakı məsafəni qısaldır, nəqliyyat imkanlarının yaxşılaşdırılması insanların gündəlik hərəkətini asanlaşdırır, təhsil infrastrukturu gənclərin daha yaxşı şəraitdə təhsil almasına imkan verir, yaşayış binalarının və istilik sistemlərinin yenilənməsi isə birbaşa ailələrin məişət rahatlığına təsir göstərir. Beləliklə, böyükhəcmli dövlət investisiyalarının son nəticədə ünvanlandığı əsas məkan insan həyatıdır.

Naxçıvanın enerji gələcəyi ilə bağlı məqamlar da sənəddə yer alıb. Muxtar respublikanın "yaşıl enerji" zonası kimi inkişaf etdirilməsi yalnız ekoloji baxımdan deyil, iqtisadi baxımdan da yeni imkanlar yaradır. Bərpaolunan enerjinin geniş tətbiqi Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, zəngin enerji potensialını regional əməkdaşlıq və yeni iqtisadi imkanlar baxımından mühüm üstünlüyə çevirir. Enerji məsələsi burada nəqliyyat və iqtisadi inkişafla da birbaşa bağlıdır. Müasir enerji infrastrukturu olmadan yeni istehsal müəssisələrinin, sənaye parklarının, rəqəmsal xidmətlərin və digər iqtisadi fəaliyyət sahələrinin genişləndirilməsi çətin olar. Buna görə Naxçıvanda enerji sisteminin yenilənməsi ilə bağlı görülən işlərə yalnız texniki infrastruktur layihələri kimi deyil, gələcək iqtisadi fəallığın əsas dayaqlarından biri kimi baxmaq lazımdır.

Eyni yanaşmanı yol və nəqliyyat infrastrukturuna da aid etmək mümkündür. Naxçıvanın coğrafi mövqeyi nəqliyyat əlaqələrinin burada xüsusi əhəmiyyət daşımasına səbəb olur. Müasir yollar kənd təsərrüfatı məhsullarının bazarlara çıxışını asanlaşdırır, turizm imkanlarını genişləndirir, sahibkarlıq fəaliyyətinə yeni nəfəs verir. Başqa sözlə, yol infrastrukturu iqtisadi dövriyyənin sürətlənməsi deməkdir.

Təhsil istiqamətində nəzərdə tutulan addımlar isə Naxçıvanın inkişafında başqa bir vacib məsələyə - insan kapitalına yönəlir. Müasir iqtisadiyyat savadlı, peşəkar və yeniliklərə açıq insanlara da söykənir. Bu baxımdan, tələbələr üçün yaradılan yeni imkanlar gələcəyə qoyulan investisiya kimi dəyərləndirilə bilər. Çünki bu gün daha yaxşı təhsil və yaşayış şəraiti qazanan gənc sabah Naxçıvanın iqtisadi, elmi və ictimai həyatında daha fəal rol oynayacaq.

Təbii ki, sərəncamda nəzərdə tutulan tədbirlərin əhəmiyyətini yalnız ayrılan vəsaitlərin həcmi və həyata keçiriləcək layihələrin sayı ilə ölçmək doğru olmaz. Əsas məsələ bu rəqəmlərin arxasında dayanan böyük inkişaf məqsədidir. Bütün istiqamətlər Naxçıvanın daha rahat, daha dinamik və daha dayanıqlı inkişafına hesablanıb.

Bu baxımdan, yeni sərəncamı Naxçıvanın gələcəyinə yönələn növbəti mühüm addım kimi qiymətləndirmək olar. Çünki burada söhbət yalnız bu günün ehtiyaclarının qarşılanmasından getmir. Görülən hər bir işin arxasında sabahın daha güclü iqtisadiyyatı, daha müasir infrastrukturu və daha yüksək həyat səviyyəsi dayanır. Naxçıvanın zəngin potensialının ardıcıl dövlət dəstəyi ilə hərəkətə gətirilməsi isə bu qədim diyarın yeni inkişaf mərhələsinə daha inamla qədəm qoymasına imkan verir.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

# Dövlət başçısının muxtar respublikaya səfəri regionun inkişaf istiqamətlərini müəyyənləşdirdi

**Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına budəfəki səfəri regionun gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm siyasi və strateji əhəmiyyət daşıyır. Səfər çərçivəsində istifadəyə verilən sosial obyektlər və Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində verdiyi mesajlar Naxçıvanın təhlükəsizlik, enerji, nəqliyyat, sənaye, kənd təsərrüfatı, turizm və sosial inkişaf baxımından yeni mərhələyə qədəm qoyduğunu göstərir.**



**Milli Məclisin deputatı Nigar MƏMMƏDOVA** qəzetimizə açıqlamasında deyib ki, Prezidentin Naxçıvana 17-ci səfəri çərçivəsində verdiyi mesajların əsas qayəsini muxtar respublikanın dayanıqlı və hərtərəfli inkişafının təmin olunması təşkil edir. Dövlətimizin başçısı vurğulayıb ki, Naxçıvanın inkişafı daha geniş coğrafiyanın iqtisadi və nəqliyyat imkanlarına təsir göstərən strateji prosesdir. "Naxçıvanın hərtərəfli inkişafı sistemli xarakter daşıyır və müxtəlif istiqamətlərdə atılan addımlar vahid inkişaf strategiyasının tərkib hissəsidir. Naxçıvanın strateji coğrafi mövqeyi onun təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilməsini zəruri edir. Cənab Prezidentin də söylədiyi kimi, Naxçıvanın müdafiə potensialının gücləndirilməsi prioritet istiqamətlərdən biridir: "Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək". Bu mesaj Azərbaycanın Naxçıvanın təhlükəsizliyinə verdiyi strateji əhəmiyyətin göstəricisidir. Müasir hərbi texnika, yeni komando qüvvələri və əlahiddə ordunun imkanlarının gücləndirilməsi Naxçıvanın müdafiə qabiliyyətinin davamlı şəkildə artırılmasına xidmət edir", - deyə o bildirib.

Naxçıvanın həm də sənaye və enerji mərkəzinə çevrildiyini söyləyən deputat qeyd edib ki, burada Sənaye Parkının təməlinin qoyulması regionda istehsal imkanlarının genişləndirilməsi, yeni iş yerlərinin açılması və iqtisadi fəallığın artırılması baxımından mühüm addımdır. Bununla yanaşı, sənaye parkının tərkibində 300 meqavat gücündə istilik-elektrik stansiyasının inşası nəzərdə tutulur. Naxçıvan həm də günəş enerjisi potensialının yüksək olması ilə fərqlənir. 600 hektardan artıq ərazidə yüzlərlə meqavat gücündə günəş-elektrik stansiyalarının yaradılması planlaşdırılır. Prezident Naxçıvanda günəş enerjisi istehsalının gələcəkdə ən azı 500 meqavat, potensial olaraq isə 1000 meqavata çata biləcəyini bəyan etdi. Beləliklə, Naxçıvan gələcəkdə enerji ixrac edən mühüm mərkəzlərdən birinə çevriləcək.

N.Məmmədova bildirib ki, Zəngəzur dəhlizi də Naxçıvanın strateji əhəmiyyətini artıracaq: "Prezident bu xüsusda qeyd etdi ki, bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən strateji nəqliyyat bağlantısı olmaqla yanaşı, daha geniş regional nəqliyyat sisteminin mühüm hissəsinə çevriləcək. Dövlət başçımızın açıqlamalarından aydın olur ki, Azərbaycanın əsas hissəsində Horadiz-Ağbənd istiqamətində həm avtomobil, həm də dəmir yolu layihələri sürətlə həyata keçirilir. Naxçıvan istiqamətində dəmir yolu infrastrukturunun bərpası üzrə işlər davam etdirilir. Xüsusilə diqqətçəkən məqamlardan biri Naxçıvan dəmir yolunun gələcəkdə 15 milyon ton yükdaşıma qabiliyyətinə çatdırılması planıdır. Bu isə Naxçıvanın regional tranzit qovşağına çevrilməsi üçün ciddi iqtisadi potensial yaradır. Bu baxımdan Zəngəzur dəhlizi "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının inkişafı baxımından da böyük əhəmiyyət daşıyır. Naxçıvanın bu dəhlizlərin kəsişməsində yerləşməsi onun regional iqtisadi çəkisini əhəmiyyətli dərəcədə artırır".

Deputat vurğulayıb ki, Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində diqqətçəkən digər məqam Zəngəzur dəhlizi üzrə gələcəkdə elektrik xətlərinin, fiber-optik kabellərin, zərurət yaranacağı təqdirdə isə digər enerji infrastrukturlarının yaradılması imkanlarının nəzərdən keçirilməsidir. Bu o deməkdir ki, Zəngəzur dəhlizi daha geniş geoiqtisadi layihəyə çevrilir. Səfər zamanı Naxçıvanın tarixi-mədəni irsinə də xüsusi diqqət yetirilib. Möminə xatun məqbərəsinin bərpası ilə bağlı görülən işlər dövlətin tarixi abidələrin qorunmasına münasibətinin göstəricisidir. Dövlət başçımızın da söylədiyi kimi, "bütün görülən işlərin təməlində bizim milli kimliyimiz dayanır, milli ruhumuz dayanır, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, tariximiz dayanır". Yəni tarixi irsin qorunması, milli-mədəni dəyərlərin gələcək nəsillərə ötürülməsi də dövlət siyasətinin mühüm istiqamətlərindən biridir.

N.Məmmədova qeyd edib ki, Naxçıvanın inkişaf strategiyasında sosial məsələlər də əsas prioritetlər sırasındadır: "Səfər zamanı DOST Mərkəzinin açılışı, "ASAN xidmət" sisteminin fəaliyyəti, yeni elektrik avtobuslarının təqdimatı, şəhərlərarası və rayonlararası nəqliyyatın yaxşılaşdırılması ilə bağlı qərarlar bu istiqamətdə atılan addımlar sırasındadır. Bu layihələr birbaşa insanların gündəlik həyatına təsir edən məsələlərin həllinə yönəlib. Cənab Prezidentin verdiyi əsas mesajlardan biri də Naxçıvanın Qarabağ və Şərqi Zəngəzurla vahid inkişaf konsepsiyası çərçivəsində nəzərdən keçirilməsidir. Dövlət başçımız söylədi ki, Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir. Bu yanaşma üç region arasında iqtisadi, nəqliyyat, enerji və sosial əlaqələrin gələcəkdə daha da gücləndirilməsini nəzərdə tutur. Xüsusilə Zəngilanla Ordubad arasındakı coğrafi yaxınlıq bu ərazilərin regional inkişaf baxımından bir-birini tamamlayan məkanlara çevrilməsi üçün imkan yaradır. Qarabağ və Şərqi Zəngəzurla bərabər Naxçıvanın da "yaşıl enerji" zonası kimi inkişaf etdirilməsi nəzərdə tutulur. Batareya saxlanc qurğularının yaradılması isə bərpaolunan enerji mənbələrindən daha səmərəli istifadə imkanlarını genişləndirəcək".

Deputat bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən idarəetmə modelinin Naxçıvanda da tətbiqi dövlət idarəçiliyinin çevikliyinin artırılmasına yönəlib. Burada əsas məqsəd muxtar respublikanın statusunu qorumaqla idarəetmənin daha səmərəli qurulması, kadr və struktur islahatlarının inkişaf məqsədlərinə uyğunlaşdırılmasıdır. Ən əsas məsələ isə budur ki, dövlət başçısının da söylədiyi kimi, planlar böyükdür və bu planların icrası ilə bağlı heç bir şübhə yoxdur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qlobal güclərin maraqları fonunda Azərbaycanın balanslaşdırılmış xarici siyasət modeli

**Dövlətimizin son illər həyata keçirdiyi xarici siyasətə nəzər saldıqda siyasi qərarlarla iqtisadi və geosiyasi reallıqların bir-birindən ayrılmadığı aydın görünür. Türkiyə ilə münasibətlər bunun nümunəsidir. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini müttəfiqlik səviyyəsinə yüksəldib. Rusiya ilə münasibətlər də Azərbaycan xarici siyasətinin çoxvektorlu xarakterini nümayiş etdirir. 2022-ci ildə imzalanmış bəyannamə iki ölkə arasında siyasi, iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlığın hüquqi-siyasi əsaslarını genişləndirib.**



Burada mühüm məqam ondan ibarətdir ki, Azərbaycan Rusiya ilə əməkdaşlıq etdiyi halda Qərblə münasibətlərini məhdudlaşdırmır, Avropa ilə birgə enerji və nəqliyyat layihələri həyata keçirir, Türkiyə ilə müttəfiqlik münasibətlərini möhkəmləndirir. Bu, Azərbaycanın xarici siyasətində müstəqil qərarvermənin mühüm məqamıdır.

Qeyd etdiyimiz kimi, ölkəmizin Avropa ilə münasibətlərində enerji amili xüsusi əhəmiyyət daşıyır. "Cənub qaz dəhlizi" Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasını təmin edən mühüm infrastruktur layihəsidir. Azərbaycan bununla Avropaya enerji təchizatını şaxələndirməyə imkan yaradıb. Orta dəhlizin genişləndirilməsi, Xəzər üzərindən yükdaşımaların artırılması və Bakı Limanının imkanlarının gücləndirilməsi Azərbaycanın təkcə regionda yox, bütün dünyada geoiqtisadi rolunu artırır.

Azərbaycanın balanslaşdırılmış xarici siyasətinin digər mühüm istiqaməti Çinlə münasibətlərin inkişafıdır. Çin Avropa ilə Asiya arasında ticarət yollarının şaxələndirilməsində maraqlıdır. Azərbaycan isə coğrafi mövqeyinə görə bu marşrutların mühüm halqalarından biridir. Orta dəhliz məhz bu baxımdan Azərbaycanın geosiyasi imkanlarını artırır. Çindən Mərkəzi Asiyaya, oradan Xəzər dənizi vasitəsilə Azərbaycana, daha sonra Gürcüstan, Türkiyə və Avropaya uzanan marşrut ölkəmizi qlobal logistika sisteminin mühüm qovşaqlarından birinə çevirir. Bu layihə Azərbaycanın yalnız tranzit ölkə deyil, beynəlxalq ticarət və logistika proseslərinin fəal iştirakçısı kimi mövqeyini möhkəmləndirir.

Dövlətimizin balanslaşdırılmış xarici siyasət modelinin mahiyyətini anlamaq üçün Prezident İlham Əliyevin Naxçıvana səfəri zamanı Azərbaycan televiziyasına verdiyi müsahibədə səsləndirdiyi fikirlər xüsusi əhəmiyyət daşıyır. Müsahibədə Zəngəzur istiqamətində nəqliyyat bağlantısının yaradılmasının Azərbaycanın uzunmüddətli strateji məqsədi olduğu xususi vurğulanır. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, ölkəmiz regional layihələrdə yalnız başqa dövlətlərin təşəbbüslərinə reaksiya verən tərəf deyil, həm də öz strateji gündəliyini müəyyənləşdirən və həmin gündəliyin həyata keçirilməsi üçün siyasi, diplomatik və iqtisadi imkanlarını səfərbər edən dövlətdir. Zəngəzur istiqamətində nəqliyyat bağlantısı Azərbaycan üçün ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin bərpası, Türkiyə ilə quru bağlantısının genişləndirilməsi, Orta dəhlizin yeni imkanlar qazanması və "Şimal-Cənub" nəqliyyat marşrutunun alternativ bağlantılarının yaranması baxımından strateji əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin həmin müsahibəsində səsləndirdiyi digər fikirlər Azərbaycanın iqtisadi imkanları ilə siyasi müstəqilliyi arasındakı əlaqəni göstərir. Naxçıvan dəmir yolunun reabilitasiyası ilə bağlı beynəlxalq tərəfdaşların iştirakına açıq olan Azərbaycan eyni zamanda belə strateji layihələrin həyata keçirilməsi üçün öz maliyyə imkanlarına da malikdir. Bu yanaşma Azərbaycanın iqtisadi baxımdan xarici tərəfdaşlardan asılı vəziyyətə düşməmək prinsipinə söykəndiyini göstərir. Dövlətin öz strateji layihələrini maliyyələşdirmək imkanının olması isə xarici siyasətdə manevr imkanlarını genişləndirir. Başqa sözlə, iqtisadi müstəqillik siyasi qərarların müstəqilliyini gücləndirir.

Naxçıvanın gələcək geoiqtisadi rolu da bu strategiyanın mühüm istiqamətlərindəndir. Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat bağlantısının "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ilə əlaqələndirilməsi Naxçıvanın regional nəqliyyat sistemində əhəmiyyətini xeyli artırır. Naxçıvan burada yalnız Azərbaycanın ayrılmaz tərkib hissəsi olan muxtar respublika kimi yox, gələcəkdə Avrasiya nəqliyyat xəritəsinin mühüm qovşaqlarından biri kimi nəzərdən keçirilir. Bu da Azərbaycanın coğrafi məhdudiyyətlərini üstünlüyə çevirmək siyasətinin bir nümunəsidir.

Məlumdur ki, Azərbaycanın açıq dənizlərə və okeanlara birbaşa çıxışı yoxdur. Lakin ölkəmizin yerləşdiyi coğrafiya bizi Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm bağlantı məkanına çevirib. Azərbaycan bu üstünlükdən elə istifadə etməyə çalışır ki, müxtəlif istiqamətlər üzrə beynəlxalq yükdaşımaların mühüm hissəsi ölkəmiz üzərindən keçsin. Bu yanaşma bizim geoiqtisadi əhəmiyyətimizi artırmaqla yanaşı, xarici siyasətdə manevr imkanlarımızı da genişləndirir.

Balanslaşdırılmış xarici siyasətinin mühüm istiqamətlərindən biri də Ermənistanla münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda davamlı sülhə nail olunması ilə bağlıdır. Bu gün ölkəmizin təklif etdiyi sülh gündəliyi yalnız iki dövlət arasındakı münasibətlərlə məhdudlaşmır, eyni zamanda Cənubi Qafqazın iqtisadi və nəqliyyat əlaqələrinin bərpasını, kommunikasiyaların açılmasını və region dövlətlərin qarşılıqlı iqtisadi maraqlarının artırılmasını da nəzərdə tutur. Sülh həm də sərhədlərin müəyyənləşdirilməsi, kommunikasiyaların açılması, iqtisadi əməkdaşlığın genişləndirilməsi və region xalqları arasında düşmənçilik mühitinin tədricən aradan qaldırılmasıdır. Bu baxımdan, Azərbaycan özünü Cənubi Qafqazda sülhün və yeni regional əməkdaşlığın əsas təşəbbüsçülərindən biri kimi təqdim edir.

Cənubi Qafqazda müxtəlif güc mərkəzlərinin maraqları bir-birindən fərqlənir. Rusiya regionda öz təhlükəsizlik və iqtisadi maraqlarını qorumağa çalışır. Avropa İttifaqı enerji təhlükəsizliyinin şaxələndirilməsində və yeni nəqliyyat marşrutlarının inkişafında maraqlıdır. ABŞ regional təhlükəsizlik, enerji və nəqliyyat layihələri, həmçinin Azərbaycan-Ermənistan sülh prosesində rolunu artırmağa çalışır. Çin Avropa-Asiya ticarət bağlantılarının şaxələndirilməsinə və Orta dəhlizin inkişafına dəstək vermək istəyir. Türkiyə isə Azərbaycanla müttəfiqlik münasibətlərinə əsaslanaraq regional nəqliyyat və enerji əlaqələrinin inkişafında mühüm rol oynayır. İran da Azərbaycanla qonşuluq münasibətləri, nəqliyyat və tranzit imkanları baxımından regionun mühüm aktorlarından biri kimi çıxış etməyə çalışır. Azərbaycanın siyasətinin üstünlüyü ondadır ki, Bakı bu maraqların heç birini öz xarici siyasətinin müəyyənedici amilinə çevirmədən həmin tərəflərin hamısı ilə əməkdaşlıq edir, lakin strateji qərarların əsas meyarı milli maraq olaraq qalır.

Məhz bu zaman Prezident İlham Əliyevin xarici siyasət modelinin əsas xüsusiyyəti üzə çıxır: tərəfdaşların çoxluğu siyasi asılılığın azalmasına, Azərbaycanın geosiyasi manevr imkanlarının genişlənməsinə xidmət edir. Azərbaycan Rusiya ilə əməkdaşlıq edə bilər, amma bu, onun Çinlə münasibətlər qurmasına mane olmur. Azərbaycan Türkiyə ilə müttəfiq ola bilər, amma bu, Avropa ilə enerji və iqtisadi əməkdaşlığı məhdudlaşdırmır. Azərbaycan Avropa üçün mühüm enerji tərəfdaşı ola bilər, amma bu, onun İran və digər qonşu dövlətlərlə münasibətlər saxlamasına maneə yaratmır. Azərbaycan Çinlə strateji tərəfdaşlıq qura bilər, amma bu, digər istiqamətlərdə əməkdaşlığı istisna etmir. Məhz bu çoxşaxəlilik balanslaşdırılmış xarici siyasətin əsas güc mənbəyidir.

Prezident İlham Əliyevin Naxçıvana səfəri zamanı verdiyi müsahibədə Zəngəzur istiqamətindəki nəqliyyat layihəsi ilə bağlı səsləndirdiyi fikirlər bu siyasətin praktiki mahiyyətini bir daha göstərdi. Azərbaycan heç bir güc mərkəzinə qarşı düşmənçilik siyasəti aparmadan, heç bir güc mərkəzindən asılı vəziyyətə düşmədən bütün tərəflərlə öz milli maraqları əsasında əməkdaşlıq edir. Cənubi Qafqazda sülhün möhkəmləndirilməsi, Ermənistanla münasibətlərin normallaşdırılması, kommunikasiyaların açılması, Orta dəhlizin inkişafı, "Şimal-Cənub" marşrutunun genişləndirilməsi və enerji təhlükəsizliyinə töhfə Azərbaycanın bu siyasətinin nəticələridir.

Ölkəmizin qarşısında duran əsas məqsəd regionu böyük güclərin rəqabət meydanından əməkdaşlıq məkanına çevirməkdir. Bu baxımdan, Azərbaycan təkcə öz təhlükəsizliyini və iqtisadi maraqlarını qoruyan dövlət deyil, Cənubi Qafqazda yeni sülh və əməkdaşlıq arxitekturasının formalaşmasını təmin edən əsas dövlətdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Zəngəzur dəhlizi ölkəmizin tranzit imkanlarına əlavə güc qatacaq

Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbədən sonra regionumuzda yeni bir geosiyasi vəziyyət yarandı. İllərlə ölkəmizə siyasi təzyiq vasitəsi olan "Qarabağ problemi"nə son qoyuldu. Ərazi bütövlüyümüzün bərpası ölkəmizlə daha inamlı xarici siyasət aparmağa imkan verdi.

Yeni şəraitdə yaranan imkanlardan biri də Zəngəzur dəhlizinin açılmasıdır. Prezident İlham Əliyevin apardığı logistika siyasəti sayəsində dəhlizə qlobal güclərin də marağı çoxdur. Xüsusən bu məsələ ilə bağlı ABŞ ilə aparılan səmərəli danışıqlar sayəsində ötən ilin avqustunda Vaşinqtonda Zəngəzur dəhlizinin açılması barədə tarixi sənəd imzalandı.

Burada bir məsələyə diqqət yetirmək vacibdir. Biz qonşu ölkənin bu dəhlizin açılmaması üçün atdığı bütün addımlara rəğmən, ölkəmizin ərazisində dəhlizə qədər olan işlərin icrasına başladıq. Hazırda həm dəmir yolu, həm də avtomobil yolu ilə bağlı layihələr tamamlanmaq üzrədir. Hələ bu işin başlanğıcında Prezident İlham Əliyev demişdir ki, Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq. Belə də oldu. Prezident İlham Əliyev öz qətiyyətli mövqeyi ilə sübut etdi ki, güclü dövlətin güclü lideridir. Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan televiziyasına verdiyi müsahibəsində Zəngəzur dəhlizinin açılması ilə bağlı demişdir: "Məsələn, bu gün bizim enerji xətlərimiz Rusiya ilə, İranla, Gürcüstanla, Gürcüstan vasitəsilə Türkiyə ilə birləşdirilib. Ona görə Ermənistan ərazisindən Naxçıvana, ondan sonra Türkiyəyə və Avropaya uzanacaq enerji dəhlizi, eyni zamanda Ermənistanın enerjisisteminin ayaqda qalmasına, - əgər böhran yaranarsa, - imkan yaradacaq. Ona görə biz bunu nə qədər tez icra etsək, o qədər yaxşıdır... Amma Ermənistan təbii ki, özü bunu etməlidir. Ona görə hesab edirəm ki, bu məsələyə tezliklə aydınlıq gətirilməlidir. Bu, Zəngəzur dəhlizinin, TRIPP-ın ayrılmaz hissəsi olacaq. Çünki bu layihə təkcə dəmir yolu, avtomobil yolu deyil. Hətta buradan fiber-optik kabel, ondan sonra elektrik xətləri, gələcəkdə əgər ehtiyac olarsa, neft-qaz kəmərləri də keçə bilər".

Söz düşmüşkən, qeyd edək ki, dövlətimizin başçısına Naxçıvanda Zəngəzur dəhlizi ilə bağlı görülən işlər barədə ətraflı məlumat verildi. Bildirildi ki, Naxçıvan dəmir yolu xəttinin layihələndirilməsinə və tikinti işlərinin icrasına ötən ildən başlanılıb. Mövcud xəttin uzunluğu 188 kilometrdir, yeni layihədə isə bu xətt bir qədər artırılaraq 194,2 kilometrə çatdırılıb. Burada 10 stansiyanın və 3 sərnişin dayanacağı platformasının yenidən qurulması planlaşdırılır. Paralel olaraq Naxçıvan dəmir yolu xəttinin Salamməlik stansiyasından Ermənistanla dövlət sərhədinə olan 7 kilometrlik hissəsi üzrə layihələndirmə işləri tamamlanıb. Orada tikinti işlərinin görülməsi TRIPP marşrutu üzrə layihə hazır olduqdan sonra başlanacaq.

Məlum olduğu kimi, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana yüklərin daşınması ilə məhdudlaşmayacaq. Bu marşrut açıldıqdan sonra dəhliz vasitəsilə Türkiyə üzərindən Avropa və dünya bazarına tranzit yüklərin daşınması mümkün olacaq.

Azərbaycanın apardığı logistika siyasəti, yeni təşəbbüslərlə çıxış etməsi "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri ilə tranzit yüklərin daşınmasının həcmini sürətlə artırır. Bu ilin 7 ayında ölkəmiz üzərindən daşınan tranzit yüklərin həcmi 9,1 milyon tonu keçərək son 5 ilin ən yüksək göstəricisinə çatıb. O cümlədən Orta dəhlizlə daşınan yüklərin həcmi 16,5, Şimal-Cənub istiqaməti üzrə isə 14,3 faiz artıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması isə ölkəmizə ildə əlavə 15 milyon ton yükün daşımasına imkan verəcək. Nəqliyyat marşrutlarının şaxələnməsi həm də ölkəmiz üzərindən yüklərin daşınmasına beynəlxalq biznes dairələrinin marağını artıracaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Naxçıvan enerji strategiyamızın vacib halqası olacaq

**Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın avqustun 11-də Naxçıvana səfəri çərçivəsində bir sıra mühüm sosial obyektlərin açılışlarında və təməlqoyma mərasimində iştirak etmələri ölkə rəhbərliyinin muxtar respublikanın sosial-iqtisadi inkişafını hər zaman diqqətdə saxladığının bariz nümunəsidir. Naxçıvanda həyata keçirilən irimiqyaslı layihələrin, eləcə də bu istiqamətdə işlərin gələcəkdə də davam etdirilməsinin nəzərdə tutulması Naxçıvanın sosial-iqtisadi inkişafını sürətləndirəcək və naxçıvanlıların sosial rifahının yüksəldilməsinə böyük təkan verəcək.**



**Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə ƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin sərəncamına əsasən, Naxçıvanın enerji, nəqliyyat, təhsil və bir çox sahələrinin inkişafına maliyyə vəsaitinin ayrılması muxtar respublikanın regionun geoiqtisadi mərkəzinə çevrilməsinə yönəlmiş bir addımdır: "Dövlət başçısı Naxçıvana səfəri çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Naxçıvanın Azərbaycanla yanaşı, regionun nəqliyyat mərkəzinə çevriləcəyini xüsusi vurğuladı. Coğrafi cəhətdən Azərbaycanın əsas hissəsi ilə quru əlaqəsinin olmaması muxtar respublikanın təhlükəsizliyini ön plana çıxarır. Dövlət başçımızın əlahiddə ordunun yaradılmasını, yeni komanda qüvvələrinin formalaşdırılmasını və ən müasir hərbi texnika ilə təmin edilməsini xüsusi vurğulaması isə göstərir ki, Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi dövlətimizin strategiyasının fundamental istiqamətlərindən biri olaraq qalır. Prezident Naxçıvanın hərbi təhlükəsizliyi ilə yanaşı, enerji təhlükəsizliyinin də təmin olunmasının olduqca vacib bir amil olmasını da xüsusi vurğuladı".

Ekspert qeyd edib ki, muxtar respublikada Sənaye Parkının yaradılması və onun tərkibində 300 meqavat gücündə İstilik-Elektrik Stansiyasının inşası barədə qərar olduqca önəmli bir addımdır. Naxçıvanda bərpaolunan enerji sahəsində böyük layihələr reallaşdırılıb. Belə ki, inşa edilmiş günəş-elektrik stansiyasının gücünün ən azı 500 meqavat, gələcəkdə isə 1000 meqavata çatdırılması "yaşıl enerji" siyasətinin uzunmüddətli və dayanıqlı olmasından xəbər verir, eyni zamanda, enerji ixracını da reallaşdırır. "Yaxın zamanda Naxçıvanın qonşu ölkələrə enerji ixrac edəcəyi önəmli bir hadisə olacaq. Ötürücü xətlərin çəkilişindən sonra Naxçıvandan Türkiyə və İranla yanaşı, Avropaya da "yaşıl enerji" ixrac olunacaq ki, bu da Azərbaycanın "yaşıl enerji" ixracı coğrafiyasını daha da genişləndirəcək. Azərbaycan dünyada neft və qaz ixrac edən ölkə kimi tanınsa da, qısa zamanda Avrasiya məkanında "yaşıl enerj"i ixracatçısı olan vacib dövlət kimi tanınacaq. Bu məsələdə Naxçıvan enerji strategiyamızın mühüm bir hissəsi olacaq", - deyə o əlavə edib.

K.Əliyeva bildirib ki, müasir dünyada səmərəli nəqliyyat xəritəsi strateji bir amil kimi qiymətləndirilir. Bu baxımdan, Naxçıvan olduqca əlverişli coğrafi mövqedə yerləşir. Prezident İlham Əliyev müsahibəsində Naxçıvanın "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyindən böyük imkanlara malik olması barədə də fikirlər səsləndirdi. Şərqlə Qərbi birləşdirən Orta dəhlizin bir hissəsi olan Zəngəzur dəhlizi məhz Naxçıvandan keçir və bu marşrut Avropa ilə Asiyanı birləşdirən iqtisadi cəhətdən ən səmərəli nəqliyyat yoludur. "Horadiz-Ağbənd avtomobil yolu isə demək olar ki, hazırdır və dəmir yolunun Ermənistan sərhədinə qədər çəkilməsi, eyni zamanda Naxçıvan dəmir yol infrastrukturunun bərpasına başlanması Azərbaycanın öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməsinin sübutudur. Ermənistan da öz ərazisindən keçən dəmir yolu infrastrukturunu yaratmağa təşəbbüs göstərməlidir", - deyə o bildirib.

Naxçıvan dəmir yolunun yaxın gələcəkdə yükdaşıma qabiliyyətinin 15 milyon tona çatdırılması barədə Prezident İlham Əliyevin söylədiyi fikirlərin mühüm iqtisadi mesaj olduğunu deyən ekspert vurğulayıb ki, yükdaşımanın həcminin artırılması tək Naxçıvan və Azərbaycanın deyil, ümumilikdə Avrasiya məkanının iqtisadi tərəqqisinə xidmət edəcək. Avropa İttifaqı nümayəndələrinin Naxçıvana səfərləri də, təşkilatın Naxçıvan dəmir yol layihəsinə böyük maraq göstərdiklərini sübut edir.

K.Əliyeva deyib ki, Naxçıvan, həmçinin qədim tarixi köklərə malik, bəşəriyyətin mənəvi irs xəzinəsinə daxil edilən məbədləri qoruyub saxlayan, Azərbaycan xalqının mədəni irsini yaşadan, eyni zamanda dünyaya dahi şəxsiyyətlər bəxş edən bir diyardır: "Bu diyar Heydər Əliyev kimi bir şəxsiyyəti Azərbaycana bəxş edib. Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu olmaqla yanaşı, ölkəmizin nüfuzunu dünyada qaldıran dahi liderdir".

Ekspert sonda vurğulayıb ki, Prezident İlham Əliyevin Naxçıvana səfəri, oradan verdiyi mesajlar bu bölgənin yaxın zamanda Avrasiyanın geosiyasi və geoiqtisadi mərkəzinə çevriləcəyindən xəbər verir.

*Ə.QABİLQIZI,*
*"Azərbaycan"*

**Cənubi Qafqazın siyasi və iqtisadi mənzərəsində baş verən dəyişiklik regionun nəqliyyat xəritəsini kökündən yeniləyir. Nəqliyyat dəhlizlərinin qlobal miqyasda yenidən qurulduğu, alternativ ticarət yollarına tələbatın sürətlə artdığı müasir dövrdə Azərbaycan həyata keçirdiyi uzaqgörən siyasi kursla bu dəyişikliyin mərkəzində dayanır. Bu xəttin real müstəvidə təzahürü strateji layihələrin reallaşdırılması istiqamətində atılan addımlarda özünü göstərir.**



# İLHAM ƏLİYEV

# Zəngəzur dəhlizinin təşəbbüskarıdır

## Bu layihənin reallaşması regionda çoxtərəfli iqtisadi inteqrasiyanın bünövrəsini qoyacaq və dayanıqlı sülhü təmin edəcək

Azərbaycanın geostrateji mövqeyinin gücləndirilməsi daxili bölgələrin, xüsusilə də Naxçıvanın strateji imkanlarının tam reallaşdırılması ilə sıx bağlıdır. Regionda reallaşdırılan irimiqyaslı layihələr muxtar respublikanın həm iqtisadi, həm də logistik baxımdan yeni mərhələyə keçməsini zəruri edir. Bu kontekstdə avqustun 11-də Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri bölgənin hərtərəfli inkişafında müstəsna əhəmiyyətə malik yeni mərhələnin əsasını qoydu. Dövlətimizin başçısının Naxçıvana budəfəki səfəri yalnız bir sıra sənaye, nəqliyyat, şəhərsalma və sosial obyektlərin açılışı kimi deyil, muxtar respublikanın inkişaf çərçivəsinin müəyyənləşdirilməsi baxımından mühüm tarixi hadisəyə çevrildi. Səfər zamanı verilən tapşırıqlar, qəbul edilən qərarlar bir daha sübut etdi ki, Naxçıvanın sürətli sosial-iqtisadi inkişafı və müdafiə potensialının ən müasir texnikalarla, yeni komando qüvvələri ilə gücləndirilməsi dövlətimizin əsas prioritetlərindəndir.

Səfərin önəmli məqamlarından biri dövlətimizin başçısının Azərbaycan Televiziyasına verdiyi geniş müsahibə və Zəngəzur dəhlizi ilə bağlı mesajlar oldu. Prezident İlham Əliyev müsahibədə Zəngəzur dəhlizini, sadəcə, nəqliyyat xətti kimi deyil, Naxçıvanın təhlükəsizliyini, iqtisadi dirçəlişini, enerji ixracını və Azərbaycanın qlobal logistika strategiyasını özündə birləşdirən çoxşaxəli layihə kimi təqdim etdi. Dövlətimizin başçısı vurğuladı ki, Bakı üçün Zəngəzur dəhlizi hər şeydən əvvəl kommunikasiya bağlantısının bərpası, daha sonra isə beynəlxalq nəqliyyat magistralına çevrilmə layihəsidir. Prezident İlham Əliyev müsahibəsində dəhlizin gündəmə gətirilməsində Azərbaycanın qətiyyətli mövqeyini xüsusi vurğulayıb: "Zəngəzur dəhlizinin yaradılması, bildiyiniz kimi, bizim təşəbbüsümüz olub. Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirmək bizim çoxdankı arzumuz olub. Biz bu hədəfə doğru inamla və çox böyük məharətlə addımlayırdıq, yaxınlaşırdıq və artıq yaxınlaşmışıq".

Milli hədəflərdən olan bu proses zaman keçdikcə beynəlxalq müstəviyə çıxaraq qlobal güclərin də diqqət mərkəzinə düşüb. Ermənistanın müxtəlif bəhanələrlə prosesi tormozlamaq cəhdlərinə baxmayaraq, 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən tarixi görüş bu məsələdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı oldu. Artıq Zəngəzur dəhlizi, yaxud digər adı ilə "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) təkcə iki ölkə arasındakı münasibətlərin mövzusu deyil, ABŞ-nin də dəstəklədiyi genişmiqyaslı geosiyasi və logistik layihə kimi qəbul edilir. Dövlətimizin başçısı müsahibədə bu məqama diqqət çəkib: "TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq - avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək".

Siyasi baxımdan Zəngəzur dəhlizinin reallaşması regionda dayanıqlı sülhün, təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın bərqərar olması üçün mühüm platformadır. Bu layihə təkcə bilavasitə marşrut üzərində yerləşən dövlətlərin deyil, geniş coğrafiyada yerləşən bütün regional ölkələrin uzunmüddətli iqtisadi və strateji maraqlarına tam cavab verir. Nəqliyyat və logistika imkanlarının şaxələndirilməsi region xalqları arasında ticarət dövriyyəsini artırmaqla yanaşı, diplomatik münasibətlərin də konstruktiv müstəvidə inkişafına güclü təkandır. Qarşılıqlı iqtisadi asılılığın və birgə maraqların yaratdığı bu yeni regional model Cənubi Qafqazda münaqişə risklərini minimuma endirir, eskalasiya ehtimallarını neytrallaşdırır və beləliklə, gələcək nəsillər üçün uzunmüddətli sabitlik, təhlükəsizlik və tərəqqi mühitini təmin edir.

Vacib məqamlardan biri Zəngəzur dəhlizinin multimodal xarakter daşımasıdır. Yəni söhbət yalnız avtomobil və ya dəmir yolundan getmir, eyni zamanda yüksək gərginlikli elektrik xətlərinin, fiber-optik rabitə kanallarının və digər kommunikasiya infrastrukturunun bu marşrut boyunca çəkilməsi nəzərdə tutulur. Bu isə "dəhliz" anlayışını daha geniş nəqliyyat-enerji platforması səviyyəsinə qaldırır. Xüsusilə dəmir yolu şəbəkəsinin yenidən qurulması və ötürücülük qabiliyyətinin artırılması iqtisadi səmərəliliyin əsas göstəricisidir. Əgər əvvəllər mövcud infrastrukturun imkanları məhdud idisə, indi qarşıya qoyulan hədəflər tamamilə fərqli miqyasdan xəbər verir. Bu infrastruktur hədəflərinə toxunan Prezident İlham Əliyev qeyd etmişdir: "Amma bizim istəyimiz ondan ibarətdir ki, bu nəqliyyat dəhlizindən ən azı 15 milyon ton yük keçsin. Onun üçün bu gün mövcud olan dəmir yolu yenidən qurulmalıdır, reabilitasiya edilməlidir".

Naxçıvan dəmir yolunun müasir standartlara uyğun bərpası muxtar respublikanın tranzit potensialını bir neçə dəfə artıracaq. Layihənin iqtisadi rentabelliyi onun qlobal nəqliyyat qovşaqlarına inteqrasiya olunması ilə ölçülür. Zəngəzur dəhlizi yalnız "Şərq-Qərb" marşrutunun, yəni Mərkəzi Asiya, Çin, Azərbaycan, Türkiyə və Avropa xəttinin mühüm halqası olmaqla kifayətlənməyəcək, eyni zamanda "Şimal-Cənub" nəqliyyat dəhlizinə tam inteqrasiya olunacaq. Zəngəzur istiqamətindən Naxçıvana daxil olan yük axınları Culfa dəmir yolu məntəqəsi vasitəsilə İrana, oradan isə Fars körfəzinə və Cənubi Asiyaya çıxış əldə edəcək. Bu, Azərbaycanın İranla ikinci dəmir yolu bağlantısını formalaşdıracaq və yüklərin daha tez və ucuz daşınmasına şərait yaradacaq.

Prezident İlham Əliyev bu strateji qovşağın coğrafi əhatəsini və Naxçıvanın mərkəzi rolunu belə izah edib: "Qeyd etdiyim kimi, bu, "Şərq-Qərb" nəqliyyat dəhlizinin bir qolu olacaq. Eyni zamanda "Şimal-Cənub" nəqliyyat dəhlizinin bir qolu olacaq. Çünki bu gün "Şimal-Cənub" nəqliyyat dəhlizi deyəndə, adətən, Rusiya-Azərbaycan-İran, yəni Astaraya keçid, Astara-Rəşt, İran ərazisində layihə nəzərdə tutulur. Layihənin icrası, bildiyimə görə, ya başlayıb, ya da başlayacaq. Hər halda, Azərbaycan ərazisində bu layihə hazırdır. Amma Zəngəzur dəhlizi açılandan sonra artıq Azərbaycandan İrana ikinci dəmir yolu xətti açılacaqdır. Məhz Zəngəzur dəhlizindən Naxçıvana girərək və Culfa dəmiryol məntəqəsindən İrana dəmir yolu var. Yəni bu layihə daha tez reallaşa bilər. "Şimal-Cənub" nəqliyyat dəhlizi Fars körfəzinə istiqamətləndirilir. Oradan o bölgəyə yaxın olan, məsələn, Pakistana uzana bilər. Yəni bu, çox önəmli bir nəqliyyat layihəsi olacaqdır və bunun mərkəzində Naxçıvan dayanır".

Türkiyə, İran və Ermənistanla sərhəddə yerləşən Naxçıvanın unikal coğrafi mövqeyi ona təxminən 200 milyonluq böyük bir regional bazara birbaşa çıxış imkanı verir. İndiyədək regiondan keçən yük axınlarının əsasən bir istiqamətə yönəldiyini nəzərə alsaq, Naxçıvan üzərindən açılan yeni xətlər qlobal ticarət üçün əvəzolunmaz alternativə çevrilir. Avropa ilə Asiya arasında illik ticarət dövriyyəsinin və yükdaşımaların dəyərinin yüz milyardlarla dollar həcmində artması Orta dəhlizə və ona inteqrasiya olunan Zəngəzur marşrutuna xüsusi önəm qazandırır. Bu nəhəng ticarət axınlarının bir hissəsinin Naxçıvandan keçməsi regional iqtisadiyyat üçün geniş imkanlar deməkdir.

İqtisadi dividend yalnız yüklərin fiziki olaraq muxtar respublikadan keçməsi ilə bitmir. Məqsəd tranzit hərəkətini daxili iqtisadi dinamikaya çevirməkdir. Yük axınlarının artması Naxçıvanda anbar, çeşidləmə, gömrük, logistika, sığorta və texniki xidmət sahələrinin sürətli inkişafına təkan verəcək. Bunun üçün nəqliyyat magistralı boyunca istehsal müəssisələrinin, yeni sənaye parklarının və logistik mərkəzlərin qurulması nəzərdə tutulur. Tranzitlə başlayan iqtisadi dövriyyə Naxçıvanda yeni iş yerlərinin açılmasına, xammalın əlavə dəyərli məhsula çevrilməsinə və yerli əhalinin rifahının yüksəlməsinə xidmət edəcək.

Zəngəzur dəhlizinin strateji əhəmiyyətini tamamlayan mühüm istiqamətlərdən biri də onun "yaşıl enerji" və rəqəmsal kommunikasiya mərkəzi kimi formalaşmasıdır. Günəş və külək enerjisi potensialı zəngin olan Naxçıvan yaxın gələcəkdə irimiqyaslı "yaşıl enerji" istehsalçısına çevriləcək. Dəhliz boyunca çəkiləcək yüksək gərginlikli elektrik xətləri Naxçıvanda istehsal olunan bərpaolunan enerjinin Azərbaycanın əsas enerji şəbəkəsinə, eləcə də Türkiyə üzərindən Avropa bazarlarına ixracına imkan yaradacaq. Eyni zamanda layihə çərçivəsində çəkilməsi planlaşdırılan fiber-optik rabitə xətləri Asiya ilə Avropa arasında ən qısa rəqəmsal data marşrutunu formalaşdıraraq Naxçıvanı regional rəqəmsal mərkəzə çevirəcək.

Bundan əlavə, dəhlizin fəaliyyətə başlaması regionda humanitar, sosial və turizm əlaqələrinin də inkişafına ciddi təkan verəcək. Blokadanın tam aradan qalxması ilə Naxçıvanın zəngin mədəni-tarixi irsi, müalicəvi turizm mərkəzləri və ekoloji turizm potensialı beynəlxalq ziyarətçilər üçün daha əlçatan olacaq, bu da xidmət sektorunun şaxələnməsini təmin edəcək.

Yekun olaraq qeyd etmək olar ki, Zəngəzur dəhlizi çoxdankı arzumuzun gerçəkləşməsi ilə yanaşı, Avrasiya məkanında sülhün, sabitliyin, iqtisadi tərəqqinin və təhlükəsizliyin ən etibarlı zəmanətinə çevriləcək. Bu dəhliz regional nəqliyyat, "yaşıl enerji", rəqəmsal texnologiyalar və ticarət axınlarının kəsişdiyi strateji mərkəz olaraq Azərbaycanın qlobal geoiqtisadi mövqeyini daha da möhkəmləndirəcək.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Geostrateji yüksəliş və yenilməz hərbi qüdrət

## Naxçıvan zəngin hərbi arsenalı, formalaşan yeni beynəlxalq logistika xəritəsindəki açar rolu ilə Azərbaycanın regional liderliyinin parlaq rəmzidir

Azərbaycanın dövlətçilik salnaməsində Naxçıvan hər zaman məğrurluq və sarsılmaz iradə qalası olub. Zaman-zaman tarixin ən ağır sınaqları ilə üz-üzə qalan, işğal təhdidlərinə və amansız blokada məngənəsinə sinə gərən bu qədim türk torpağı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Zəfərin işığında özünün yeni, möhtəşəm intibah dövrünü yaşayır. Azərbaycanın qazandığı şanlı qələbə təkcə Qarabağın və Şərqi Zəngəzurun azadlığı ilə məhdudlaşmır, həm də Naxçıvan Muxtar Respublikasının neçə illik təcridinə son qoyacaq, bütöv türk dünyasını və qlobal ticarət marşrutlarını birləşdirəcək geostrateji zəfər günəşi tək bütün regiona şölə saçacaq.

### Günnütdən Şuşaya

Döyüş meydanında yazılan qəhrəmanlıq dastanının diplomatik masadakı parlaq davamı kimi ortaya çıxan bu yeni reallıq Naxçıvanı regional təhlükəsizliyin keçilməz istehkamına və Avrasiyanın ən mühüm nəqliyyat-logistika mərkəzinə çevirir. Naxçıvandan başlayan yüksəliş, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması ilə Azərbaycanın hərbi və iqtisadi zəfərini tam layihələndirərək onu tarixi kökləri üstündə yenidən ucaldır.

Naxçıvan əsrlər boyu Azərbaycanın geostrateji dayaq nöqtəsi, Şərqlə Qərb arasında körpü rolu oynayan qədim türk yurdu olub. 1990-cı illərin mürəkkəb xaosunda, ozamankı naşı və xəyanətkar mərkəzi hökumətin etinasızlığı üzündən ağır blokadaya düşən Naxçıvan düşmən təcavüzü ilə üz-üzə qalmışdı. Lakin xalqın təkidli tələbi ilə idarəçiliyə qayıdan Ümummilli Lider Heydər Əliyev 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilərək xilaskarlıq missiyasını başlatdı. Ulu Öndərin uzaqgörən qərarları, 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi və muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, milli müstəqilliyimizin ilk təməl daşları oldu.

Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı böyük Zəfərlə regionda tamamilə yeni hərbi-siyasi reallıqlar diktə edir. Bu yeni reallıqların mərkəzində dayanan ən mühüm geostrateji faktorlardan biri isə Zəngəzur dəhlizidir.

Döyüş meydanında əldə edilən zəfərlər heç də təsadüfi deyil, illərlə səbirlə və dəqiqliklə həyata keçirilən ordu quruculuğu strategiyasının məntiqi nəticəsidir. Prezident İlham Əliyevin sərəncamı ilə Naxçıvanda yaradılan Əlahiddə Ümumqoşun Ordu regionun coğrafi özəlliyi və birbaşa quru bağlantısının olmaması nəzərə alınaraq ən müasir hərbi texnologiyalarla təchiz edilib.

Böyük Zəfərə aparan qələbə yolunun ən mühüm addımlarından biri 2018-ci ildə Naxçıvan əməliyyatı zamanı atıldı. 2018-ci il may ayının 20-dən 27-nə qədər baş verən döyüşlərdə Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyətli yüksəkliklər Əlahiddə Ümumqoşun Ordunun əks-həmlə əməliyyatları ilə işğaldan azad edildi. Uğurlu Naxçıvan əməliyyatı sayəsində ümumilikdə 11 min hektardan çox ərazi və Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı düşməndən azad edildi. Dərələyəz mahalının Arpa kəndi isə Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Əməliyyat ordumuza İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etməyə imkan verdi.

İkinci Qarabağ müharibəsində bu strateji kommunikasiyaya nəzarət imkanlarımız düşmənin hərəkət trayektoriyasını izləməyə və bir çox önəmli kəşfiyyat məlumatlarının əldə edilməsinə böyük töhfə verdi.

Vətən müharibəsində Naxçıvan xüsusi təyinatlıları və digər hərbi birləşmələrinin döyüşçüləri ərazilərimizin işğaldan azad edilməsində böyük fədakarlıq və qəhrəmanlıq göstərdilər.

Cari il avqustun 11-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Naxçıvanda Əlahiddə Ümumqoşun Orduda yeni yaradılan əməliyyat (komando) hərbi hissələrinə döyüş bayraqlarının verilməsinə həsr olunmuş mərasimdə iştirak etdilər.

Əlahiddə Ümumqoşun Orduda yeni əməliyyat (komando) hərbi hissələrinin yaradılması bölgədəki hərbi balansı tamamilə Azərbaycanın xeyrinə saxlayır.

Ümumiyyətlə, yenidən qurulan hərbi hissələr, 2021-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı və Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromu bu bölgəni istənilən təhdidə anında cavab verməyə qadir keçilməz qala edib.

Avqustun 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev Naxçıvanın müdafiə sahəsindəki inkişafını belə dəyərləndirdi: "Bu illər ərzində, əlbəttə ki, ilk növbədə, Naxçıvanın müdafiə potensialının gücləndirilməsi məsələsi prioritet məsələlər sırasında idi. Bu istiqamətdə də böyük işlər görüldü və bu gün bayrağın təqdimetmə mərasimində bir daha Naxçıvanın hərbi gücü özünü göstərdi, həm texnika ilə təchizat, - özü də ən müasir texnika ilə, - həm də yeni komando qüvvələrinin yaradılması. Bu da Azərbaycan Silahlı Qüvvələrində son vaxtlar müşahidə olunan mənzərədir... ...Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək".

### Hərbi gücdən qlobal logistika qovşağına

Prezident İlham Əliyevin müzəffər liderliklə yanaşı, diplomatik masada nümayiş etdirdiyi uzaqgörənlik müharibənin hərbi nəticələrini böyük geopolitik üstünlüyə çevirdi.

Tarixi Vaşinqton razılaşmasına əsasən açılacaq Zəngəzur dəhlizi Naxçıvanı təkcə nəqliyyat keçidi deyil, həm də iri logistika mərkəzlərinin, sənaye zonalarının və ticarət habının mərkəzi edir.

Naxçıvan Muxtar Respublikası bu gün həm zəngin hərbi arsenalı, həm də formalaşan yeni beynəlxalq logistika xəritəsindəki açar rolu ilə Azərbaycanın regional liderliyinin ən parlaq rəmzidir. Zəngəzur dəhlizinin tam gücü ilə fəaliyyətə başlaması isə bu tarixi missiyanı zirvələrə daşıyaraq Naxçıvanı Şərqlə Qərb, Şimalla Cənub arasında sülhün, təhlükəsizliyin və iqtisadi tərəqqinin qırılmaz bəndi halına gətirir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Naxçıvan Avrasiyanın yeni enerji və logistika mərkəzinə çevrilir

Cənubi Qafqaz regionu bu gün öz tarixinin ən böyük dəyişikliklər dövrünü yaşayır. Əlbəttə, bu böyük transformasiyanın təməlində Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər dayanır. Döyüş meydanında əldə edilən şanlı qələbə hərbi uğurla yanaşı, diplomatik masada və iqtisadi müstəvidə yeni reallıqlar formalaşdırdı. Məhz bu geostrateji gedişlərin sayəsində "Prezident İlham Əliyev həm müharibəni, həm də sülhü qazandı" fikri öz əyani təsdiqini tapdı. Dövlətimizin başçısı sülh gündəliyini dəmir yolları, müasir logistika mərkəzləri və transmilli enerji layihələri vasitəsilə regional inkişafın əsas hərəkətverici qüvvəsinə çevirdi.

Uzun illər kənar kommunikasiyalardan təcrid olunmuş, ağır blokada şəraitində yaşamış Naxçıvan Muxtar Respublikası daim ölkə rəhbərliyinin xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Müstəqilliyimizin ilk illərində Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və xilaskarlıq missiyası Naxçıvanı məhv olmaqdan xilas etdi. Bu gün isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Naxçıvan sürətli inkişaf yolundadır. Muxtar respublika indi Cənubi Qafqazın ən mühüm geosiyasi məkanlarından birinə çevrilir. Naxçıvan regionun yeni nəqliyyat, logistika və enerji qovşağı kimi formalaşır.

Prezident İlham Əliyevin Naxçıvana reallaşan səfərləri sadəcə bir bölgənin sosial-iqtisadi tərəqqisi kimi qiymətləndirilə bilməz. Bu səfərlər, ümumilikdə, Azərbaycanın regional mövqeyinin güclənməsinə xidmət göstərir. Eyni zamanda Cənubi Qafqazda yeni nəqliyyat-kommunikasiya xəritəsinin formalaşması və Şərqlə Qərb arasında əlaqələrin genişlənməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Azərbaycanın nəqliyyat imkanlarının genişlənməsi, regionda bağlı qalmış kommunikasiyaların bərpası, Türkiyə və İranla strateji əlaqələrin dərinləşməsi və Ermənistanla sülh gündəliyi vahid bir konsepsiyanın tərkib hissəsidir.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat koridorlarının qovşağında yerləşən muxtar respublika gələcəkdə regionun ticarət mərkəzinə çevrilmək potensialına malikdir. Əvvəllər əsas yük axınları və ticarət marşrutları Gürcüstan üzərindən keçirdisə, indi böyük həcmlər Naxçıvana yönələcək. İran, Türkiyə və Ermənistanla həmsərhəd olan Naxçıvan təxminən 200 milyonluq böyük bir bazara birbaşa çıxış imkanı əldə edir. Tarixən Yaxın Şərqə gedən qədim karvan yolları müasir magistrallar şəklində yenidən Naxçıvandan keçəcək. Bu proses Mərkəzi Asiya ilə Avropanı birləşdirən və 15 milyon ton yükaşırma gücünə malik olan nəqliyyat dəhlizinin reallaşmasını təmin edəcək.

Bununla yanaşı, TRIPP layihəsinin reallaşdırılması regionda nəqliyyat kommunikasiyalarının genişlənməsinə böyük təkan verəcək. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında fasiləsiz nəqliyyat yolunun qurulması sadəcə Cənubi Qafqaz iqtisadiyyatına kifayətlənməyərək, bütövlükdə Avrasiya məkanında ticarət marşrutlarına müsbət təsir göstərəcək. Əlverişli coğrafi mövqeyi sayəsində Naxçıvan gələcəkdə yeni istehsal mərkəzlərinin qurulacağı strateji məkana çevriləcək. Buradan Mərkəzi Asiya və Azərbaycandan Türkiyəyə, oradan isə Avropaya uzanan böyük enerji xətləri keçəcək.

Naxçıvanın dayanıqlı inkişafının və iqtisadi təhlükəsizliyinin strateji dayaqlarından biri məhz enerji təminatının şaxələndirilməsi və müasir enerji infrastrukturunun formalaşdırılmasıdır. Görülən məqsədyönlü tədbirlər nəticəsində Naxçıvan hazırda özünü tam təmin edən və potensial ixracatçıya çevrilən bir bölgə olub.

Dövlət proqramları çərçivəsində muxtar respublikada genişmiqyaslı işlər həyata keçirilib. Bu sahədə idarəetmənin və infrastrukturun rəqəmsallaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılıb. "Naxçıvan Enerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binası və Regional Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib. Muxtar respublikanın enerji şəbəkəsini gücləndirən "Çeşməbasar", "Qapalı tipli Naxçıvan" və "Babək" yarımstansiyalarının inşası tam başa çatdırılıb. "Yaşıl enerji" potensialının artırılması məqsədilə hazırda gücü 36 meqavat olan "Ordubad" və 15,6 meqavat gücündə "Tivi" su-elektrik stansiyalarının, eləcə də "Çevirici" yarımstansiyalarının tikintisi uğurla davam etdirilir. Enerji istehsalının fasiləsizliyini təmin etmək üçün 2024-cü il 23 dekabr tarixində imzalanmış sərəncamla muxtar respublikada yeni istilik-elektrik stansiyasının tikintisi ilə bağlı tədbirlər müəyyən edilib.

Bundan başqa, şəbəkənin modernləşdirilməsi məqsədilə 2025-ci il 5 avqust tarixində təsdiq olunmuş sərəncamla paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpasına dair 2026-2030-cu illəri əhatə edən Tədbirlər Planı həyata keçirilir. Bu Tədbirlər Planı şəbəkədə itkilərin azaldılmasına, enerji təchizatının fasiləsizliyinin və keyfiyyətinin yüksəldilməsinə hesablanıb.

Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin edilməsində və diversifikasiya olunmasında tarixi əhəmiyyət daşıyan mühüm layihələrdən biri İğdır-Naxçıvan təbii qaz boru kəməridir. 2025-ci il martın 5-də Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə istifadəyə verilən bu kəmər muxtar respublikanın qaz təchizatını şaxələndirərək etibarlı enerji təminatını daha da gücləndirib. Bu layihə Naxçıvanın xarici enerjidən asılılığını tamamilə aradan qaldırıb və bölgənin strateji dayanıqlılığını təmin edib.

Bununla da, diversifikasiya olunmuş təchizat (qaz+elektrik), bərpaolunan enerji mənbələrinin yüksək payı, modern infrastruktur və vahid idarəetmə sisteminə inteqrasiya Naxçıvanın enerji təhlükəsizliyini uzunmüddətli və dayanıqlı şəkildə təmin edir. Bu kompleks yanaşma daxili tələbatın tam təmin olunması ilə bərabər, Naxçıvanın regional enerji mərkəzinə çevrilməsi və Türkiyə vasitəsilə Avropa bazarlarına "yaşıl enerji" çıxarmaq imkanlarını genişləndirir.

Beləliklə, Naxçıvanda reallaşdırılan enerji və infrastruktur layihələri lokallaşdırılmış tədbirlər sırasından çıxaraq qlobal geoiqtisadi xarakter alıb. Prezident İlham Əliyevin müasir idarəetmə modeli və yönəldilən ardıcıl dövlət sərmayələri Naxçıvanı dinamik inkişaf edən bölgəyə çevirib. Naxçıvan bu gün Şərqlə Qərbi, Mərkəzi Asiya ilə Avropanı birləşdirən transmilli nəqliyyat və enerji dəhlizlərinin vacib qovşağı olacaq. Yaxın gələcəkdə reallaşacaq bərpaolunan enerji layihələri və yeni kommunikasiya xətləri Naxçıvanın adını Avrasiyanın ən mühüm "yaşıl enerji" mərkəzləri sırasına qızıl hərflərlə yazacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Qədim diyarın yeni səhifəsi

## Prezident İlham Əliyevin Naxçıvana səfəri və böyük hədəflər

**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin avqustun 11-də Naxçıvana 17-ci səfəri respublikamızın siyasi, iqtisadi və sosial həyatında mühüm hadisəyə çevrildi. Səfər zamanı Prezident İlham Əliyevin iştirakı ilə həyata keçirilən açılış və təməlqoyma mərasimləri göstərdi ki, qədim Azərbaycan yurdu Naxçıvanın inkişafı, yüksəlişi və təhlükəsizliyi hər zaman ölkə rəhbərinin xüsusi diqqət mərkəzindədir. Bu, həm də muxtar respublikanın inkişafının sürətli, davamlı və dinamik olduğunun əyani göstəricisidir".**



Bunu qəzetimizə açıqlamasında **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu ABDULLAYEV** deyib. O bildirib ki, dövlətimizin başçısının Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi fikirlər Naxçıvan Muxtar Respublikasının Azərbaycanın gələcək inkişaf hədəflərindəki roluna işıq saldı: "Müsahibədə vurğulanan məqamlar bir daha göstərdi ki, yeni reallıqlarda Naxçıvanın strateji mövqeyi, iqtisadi gücü və inteqrasiya imkanları keyfiyyətcə tamamilə yeni bir mərhələyə qədəm qoyur. Naxçıvan Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar şəraitində Azərbaycanın ümumi inkişaf perspektivində xüsusi rol oynayan, regional dinamikanı və geoiqtisadi xəritəni müəyyən edən strateji bölgədir.

Naxçıvanın bugünkü uğurlarının, iqtisadi dayanıqlılığının və hərbi təhlükəsizliyinin bünövrəsində Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Ümummilli Liderin Naxçıvana diqqət və qayğı siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla, layiqincə və dövrün tələblərinə uyğun olaraq yeni məzmunda davam etdirilir. Dövlətimizin başçısının təsdiq etdiyi "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" bu siyasətin inzibati və iqtisadi mexanizmini təşkil edir. Proqram çərçivəsində idarəetmədə şəffaflığın artırılması, institusional islahatların dərinləşdirilməsi və muxtar respublikanın iqtisadi potensialının tam gücü ilə işə salınması təmin edilir. Naxçıvanın hər bir uğuru bu tarixi varisliyin, sistemli islahatların və məqsədyönlü strategiyanın məntiqi təzahürüdür".

A.Abdullayev qeyd edib ki, bütün iqtisadi yüksəlişin və sosial layihələrin uğurlu icrasının təməlində etibarlı təhlükəsizlik amili dayanır: "Dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibəsində Naxçıvanın təhlükəsizlik amilini və hərbi potensialını xüsusi vurğulayaraq bildirib ki, Naxçıvanda onun sərəncamı ilə əlahiddə ordu yaradılıb. Dövlətimizin başçısı deyib ki, bu ordu Azərbaycan Silahlı Qüvvələrinin ayrılmaz tərkib hissəsidir: "Ancaq Naxçıvanın spesifikası, coğrafiyası, Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə coğrafi bağlantısının olmaması, əlbəttə ki, bu diyarın - muxtar respublikanın təhlükəsizliyinə daha böyük diqqət göstərməyimizə gətirib çıxardı və bu, daim belədir. Ona görə bu, birinci şərtdir. Bu gün qeyd etdiyim kimi, Azərbaycan Silahlı Qüvvələri bölgədə söz sahibidir. O cümlədən Naxçıvanda hərbi potensial gündən-günə gücləndirilir və gücləndiriləcək". Göründüyü kimi, Muxtar respublikanın təhlükəsizliyinin möhkəmləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi bu gün də uğurla davam etdirilir".

Həmsöhbətimizin sözlərinə görə, Naxçıvanın strateji mövqeyi, burada icra olunan və nəzərdə tutulan layihələr təkcə Azərbaycan üçün deyil, eyni zamanda geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir: "Naxçıvanın timsalında regionda yeni nəqliyyat dəhlizlərinin yarandığı aydın görünür. Azərbaycanın əsas hissəsini onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanla birbaşa birləşdirmək xalqımızın çoxdankı arzusu olub. Dövlətimiz bu ali hədəfə doğru inamla, planlı şəkildə və çox böyük məharətlə addımlayıb. Zəngəzur dəhlizinin reallaşması, eyni zamanda Qars-İğdır-Aralıq-Dilucu-Naxçıvan dəmir yolu xəttinin inkişafı muxtar respublikanı regionun dünyaya açılan mühüm qapısına, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutlarının, Orta dəhlizin strateji düyün nöqtəsinə çevirəcək. Prezident İlham Əliyev müsahibəsində Zəngəzur dəhlizinin tarixi əhəmiyyətini belə bəyan edib: "Nəticə etibarilə 2025-ci il avqustun 8-də tarixi Vaşinqton Zirvə görüşündə bu məsələ öz həllini tapdı. TRIPP adını daşıyan bu layihənin icrasına artıq start verilmişdir. Bu yaxınlarda, üç gün bundan qabaq - avqustun 8-də Prezident Trampla söhbət əsnasında bu məsələyə də toxunuldu və hər iki tərəf əminliyini vurğuladı ki, bu önəmli nəqliyyat layihəsi mütləq və tezliklə icra ediləcək".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini əlavə edib ki, muxtar respublika üçün mühüm məsələlərdən biri təhlükəsizlik və enerji müstəqilliyidir: "Dövlətimizin həyata keçirdiyi ardıcıl tədbirlər nəticəsində Naxçıvanın müdafiə potensialı ən yüksək səviyyəyə qaldırılıb və təhlükəsizlik məsələləri tam həll olunub. Eyni zamanda vaxtilə qaz və elektrik təchizatından məhrum olan Naxçıvanın enerji təhlükəsizliyi də etibarlı şəkildə təmin edilib. Bu gün isə tamamilə yeni bir mərhələ başlayır. Artıq Naxçıvan öz daxili ehtiyaclarını ödəməklə yanaşı, enerjinin ixracı ilə də məşğul olacaq. Prezident İlham Əliyevin vurğuladığı kimi, Naxçıvan, o cümlədən Şərqi Zəngəzur və Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir. Dövlətimizin başçısı Naxçıvanın azad olunmuş ərazilərlə vahid konsepsiya əsasında inkişafını və idarəetmə modelini belə xarakterizə edib: "Bütövlükdə bunu mən artıq həm bəyan etmişdim və həm də biz bunu artıq strukturlaşdırdıq ki, Naxçıvan, azad olunmuş ərazilər - Şərqi Zəngəzur, Qarabağ vahid konsepsiya əsasında inkişaf etməlidir... Naxçıvanda Qarabağ və Şərqi Zəngəzurdakı kimi idarəetmə üsuli-idarəsini yaratmaqla faktiki olaraq biz bu üç bölgəni inzibati nöqteyi-nəzərindən də birləşdiririk. Təbii ki, Naxçıvan Muxtar Respublikasının muxtar respublika statusu qalmaq şərti ilə, ancaq idarəetmə qaydaları təkmilləşməlidir". Bu bölgələrin həm nəqliyyat, həm də "yaşıl enerji" potensialı Azərbaycanın ümumi iqtisadi və ekoloji hədəflərinin ana xəttini təşkil edir. Günəş və külək-elektrik stansiyalarının tikintisi, su-elektrik resurslarının bərpası Naxçıvanı ölkəmizin "yaşıl enerji" zonasına və Türkiyə vasitəsilə Avropaya elektrik enerjisi ixrac edən əsas mərkəzlərdən birinə çevirir.

A.Abdullayev vurğulayıb ki, Naxçıvanın gələcək iqtisadi mənzərəsində ticarət, logistika, kənd təsərrüfatı və turizmin inkişafı xüsusi yer tutur: "Muxtar respublikada əlverişli biznes mühitinin dəstəklənməsi, gömrük və vergi güzəştlərini nəzərdə tutan Azad İqtisadi Zonanın və ticarət habının formalaşdırılması yerli və xarici investisiyaların cəlb edilməsinə güclü təkan verir. Naxçıvanın ekoloji təmiz kənd təsərrüfatı məhsulları və "Badamlı", "Sirab" kimi mineral suları brend olaraq xarici bazarlara çıxış imkanlarını genişləndirir. Bu böyük hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 2026-2027-ci illərdə sosial-iqtisadi inkişafını sürətləndirmək məqsədilə imzaladığı yeni sərəncam müstəsna rol oynayır. Sərəncama əsasən, ümumilikdə 258 milyon manat vəsait muxtar respublikanın həyatında keyfiyyət dəyişikliklərinə səbəb olan konkret layihələrə yönəldiləcək. Sənədin əsas əhəmiyyəti Naxçıvanın "yaşıl enerji" potensialını artırmaq, regionun nəqliyyat və mənzil-kommunal şəraitini təkmilləşdirmək və əhalinin sosial rifahı ilə təhsil imkanlarını müasir standartlara yüksəltməkdir. Bu genişmiqyaslı layihələrin sürətli və keyfiyyətli icrası Naxçıvanın dayanıqlı inkişafını təmin etməklə yanaşı, muxtar respublikanın iqtisadi müstəqilliyini, təhlükəsizliyini və strateji mövqeyini daha da gücləndirəcəkdir".

Müsahibimiz əlavə edib ki, Prezident İlham Əliyevin Naxçıvana növbəti səfəri və qəbul edilən qərarlar bir daha təsdiqləyir ki, muxtar respublika özünün yeni inkişaf mərhələsində yalnız Azərbaycanın deyil, bütün regionun parlaq gələcəyinə, iqtisadi inteqrasiyasına və təhlükəsizliyinə xidmət edən mühüm mərkəz olacaq: "Bu səfər bir daha nümayiş etdirdi ki, Naxçıvan özünün keyfiyyətcə yeni inkişaf mərhələsində qlobal və regional miqyaslı layihələrin aparıcı hərəkətverici qüvvəsinə çevrilməkdədir. Muxtar respublikada formalaşdırılan müasir ordu strukturu, sürətlə modernləşdirilən mülki və sosial infrastrukturlar, həmçinin beynəlxalq nəqliyyat dəhlizlərinə inteqrasiya addımları bölgədə tamamilə yeni reallıqlar yaradır. Bu gün Naxçıvan geniş regional coğrafiyanın gələcək xəritəsini müəyyən edən strateji qovşaq rolunu oynayır. Reallaşdırılan irimiqyaslı infrastrukturlar, Zəngəzur dəhlizinin açılması istiqamətində atılan qətiyyətli addımlar, "yaşıl enerji" potensialının tam gücü ilə işə salınması və Azad İqtisadi Zonanın formalaşdırılması Naxçıvanın geoiqtisadi çəkisini misilsiz dərəcədə artırır. Bütün bunlar göstərir ki, Naxçıvan yalnız ölkəmizin daxili sosial-iqtisadi tərəqqisinə deyil, bütövlükdə regionun dayanıqlı təhlükəsizliyinə, iqtisadi inteqrasiyasına və işıqlı gələcəyinə xidmət edən həlledici mərkəzə çevrilir".

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# "Şərqin qapısı" bütün dünyanın üzünə açılır

## **Prezident İlham ƏLİYEV:** "Naxçıvanın turizm potensialı çox zəngindir: həm tarixi abidələri, həm gözəl təbiəti, təmiz havası və mənzərəli yerləri var"

**Tarixən Şərqin qapısı kimi tanınan Naxçıvan regionda qədimliklə müasirliyin, zəngin mədəni irslə bənzərsiz təbiətin qovuşduğu unikal məkanlardandır. Minilliklərə söykənən tarixi, qədim memarlıq ənənələri, özünəməxsus təbii-coğrafi xüsusiyyətləri və zəngin mədəni irsi bu diyarın yaxın illərdə Azərbaycanın ən cəlbedici turizm məkanlarından birinə çevrilməsi üçün geniş imkan verir.**



Mövcud potensialın tam reallaşdırılması isə yalnız tarixi abidələrin və təbii gözəlliklərin mövcudluğu ilə məhdudlaşmır. Müasir yollar, rahat nəqliyyat, keyfiyyətli kommunal xidmətlər, şəhər infrastrukturu, sosial obyektlər və əlverişli iqtisadi mühit turizmin davamlı inkişafının mühüm şərtləri kimi bu bölgədə də təmin edilir.

Son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işləri məhz bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda bölgənin sosial-iqtisadi inkişafı, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və muxtar respublikanın ölkə iqtisadiyyatına daha sıx inteqrasiyası üçün sistemli inkişaf xətti müəyyənləşdirilib. Proqramda 11 prioritet istiqamətin müəyyən edilməsi Naxçıvanda həyata keçirilən dəyişikliklərin kompleks və uzunmüddətli inkişaf strategiyasının tərkib hissəsi olduğunu göstərir.

Bu prosesin miqyasını maliyyə göstəriciləri də təsdiqləyir. 2023-cü il iyunun 22-də imzalanmış sərəncamla Naxçıvanda infrastruktur və sosial layihələrin həyata keçirilməsinə 50 milyon manat vəsait ayrılıb. Dövlətin maliyyə dəstəyi, Sahibkarlığın İnkişafı Fondunun kreditləri və özəl investisiyalar hesabına 2023-cü ildən 2026-cı il iyulun 1-dək muxtar respublikada 359 istehsal və xidmət sahəsinin yaradılması başa çatdırılıb. Dövlət proqramlarının və infrastruktur layihələrinin uğurlu icrası nəticəsində Naxçıvan Muxtar Respublikasında dinamik inkişaf təmin olunub. Bu çərçivədə Naxçıvan Regional DOST Mərkəzi inşa edilmiş, şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 68 mənzil ayrılmış, Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılmışdır. Hazırda Möminə xatun türbəsində bərpa-konservasiya işləri aparılır.

Prezidentin 12 avqust 2026-cı il tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə tədbirlərin həyata keçirilməsinə Azərbaycan Respublikasının dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən ümumilikdə 258 milyon manat vəsait ayrılacaq. Bu, Naxçıvan Muxtar Respublikasında 2026-2027-ci illərdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsinə, yol, nəqliyyat və təhsil infrastrukturunun yenilənməsinə, habelə abadlıq-quruculuq işlərinin davam etdirilməsinə yönəldiləcək.

Bütün bunlar Naxçıvanda iqtisadi fəallığın yeni mərhələyə keçdiyini göstərməklə yanaşı, turizm üçün də əlverişli biznes mühitinin formalaşmasına zəmin yaradır. Çünki turizmin inkişafı yalnız turistlərin səfər etdiyi tarixi və təbii məkanların sayı ilə ölçülmür, bu, həmin məkanların ətrafında xidmət sektorunun, sahibkarlığın, nəqliyyatın və digər əlaqəli sahələrin inkişafından da çox asılıdır.

### Yol mədəniyyətdir

Turizm potensialının reallaşdırılmasında ən mühüm amillərdən biri nəqliyyat əlçatanlığıdır. Müasir nəqliyyat sektoru qonaqların görmək istədikləri məkana rahat, təhlükəsiz və sürətli çatmaları deməkdir. Bu baxımdan, Naxçıvanda son illər həyata keçirilən yol tikintisi və təmir layihələri xüsusi əhəmiyyət daşıyır. 2023-cü ildən cari tarixədək muxtar respublikada ümumilikdə 183,6 kilometr uzunluğunda avtomobil yolu əsaslı təmir edilib. Yenilənən yollar rayonlararası əlaqələri sürətləndirib, kənd təsərrüfatı məhsullarının bazara çıxarılmasını asanlaşdırıb və ən əsası, turizm marşrutlarına çıxış imkanlarını yaxşılaşdırıb. Müasir yol infrastrukturu turist axınının yalnız Naxçıvan şəhərində cəmləşmədən rayonların, kəndlərin və müxtəlif tarixi-mədəni məkanların da vahid turizm marşrutlarına daxil edilməsinə imkan verib.

Onu da qeyd edək ki, Naxçıvanın turizm potensialının əsas üstünlüklərindən biri elə məhz müxtəlif turizm istiqamətlərinin bir coğrafiyada cəmləşməsidir. Tarix və memarlıq, mədəni irs, təbiət və regionların özünəməxsusluğu burada bir-birini tamamlayır. Bu potensialın səmərəli şəkildə reallaşdırılması üçün rayonlararası nəqliyyat əlaqələrinin yaxşılaşdırılması mühüm əhəmiyyət daşıyır. Avtomobil yollarının əsaslı təmiri bu baxımdan nəqliyyat layihəsi olmaqla yanaşı, həm də turizm infrastrukturu layihəsidir. Naxçıvan şəhəri ilə yanaşı, Ordubad, Şahbuz, Şərur, Babək, Culfa, Kəngərli və Sədərək rayonlarının turizm imkanlarının bir-biri ilə əlaqələndirilməsi gələcək inkişaf üçün mühüm addımlardır. Yol infrastrukturu yaxşılaşdıqca turistlərin müxtəlif istiqamətlərə səfəri asanlaşır və ayrı-ayrı məkanların vahid turizm marşrutunda birləşdirilməsi üçün imkanlar genişlənir.

Naxçıvanda ictimai nəqliyyat sisteminin yenilənməsi də şəhərin müasir turizm mühitinin formalaşmasına xidmət göstərir. 2025-ci il martın 4-də imzalanmış sərəncamla Naxçıvan şəhərində sərnişin daşımalarının yalnız elektriklə işləyən avtomobillərlə təşkili üçün 60 elektrik mühərrikli avtobusun alınması, enerjidoldurma cihazlarının quraşdırılması və depo-qaraj infrastrukturunun təkmilləşdirilməsi üçün 33,5 milyon manat vəsait ayrılıb. Layihənin əsas məqsədlərindən biri şəhərdə hava mühitinin yaxşılaşdırılması və sərnişindaşıma xidmətlərinin keyfiyyətinin yüksəldilməsidir. Beləliklə, Naxçıvan şəhərinin nəqliyyat sistemi tədricən daha müasir, ekoloji və turistlər üçün rahat şəhər mühitinin mühüm elementinə çevrilir. Prezident İlham Əliyev Naxçıvanda Azərbaycan Televiziyasına verdiyi müsahibəsində bu məsələyə xüsusi toxundu: "Naxçıvan şəhərinin nəqliyyat problemləri həll olundu. Bu gün yeni elektrik avtobuslarının təqdimatı oldu və artıq onlar, yəqin ki, sabahdan xəttə buraxılacaq. Köhnə avtobuslar tamamilə sıradan çıxarılıb və bu yaşıl rəngli avtobusları biz Bakı küçələrində də tez-tez görürük. Daha çox görəcəyik, çünki onların faiz nisbəti dizel avtobuslarla müqayisədə daha da artır".

### Tarixi irs - Naxçıvan turizminin əsas sərvəti

Naxçıvanın turizm potensialından söhbət açarkən onun ən mühüm üstünlüklərindən olan tarixi-mədəni irsi xüsusi qeyd etmək lazımdır. Minilliklərə söykənən Naxçıvan tarixinin, regionun zəngin memarlıq məktəbinin və mədəni irsin qorunması dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Son illər bu sahədə atılan addımlar Naxçıvanın mədəni turizm imkanlarını daha da genişləndirib. Muxtar respublikanın 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması da bu diyarın tarixinin və müasir inkişaf yolunun diqqət mərkəzinə gətirilməsi baxımından əhəmiyyətli hadisə idi.

2024-cü il fevralın 21-də "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması xüsusilə diqqətəlayiq addımdır. Qoruq statusu Ordubadın tarixi-mədəni simasının qorunması və gələcək nəsillərə çatdırılması ilə yanaşı, onun turizm imkanlarının sistemli şəkildə inkişaf etdirilməsi üçün də yeni perspektivlər açır. Dünya əhəmiyyətli tarix-memarlıq abidəsi olan Möminə xatun türbəsində aparılan bərpa və konservasiya işləri bu siyasətin mühüm nümunəsidir. Abidənin bərpası üçün 2025-ci ildə ilkin olaraq 1 milyon, işlərin davam etdirilməsi üçün 2026-cı ildə əlavə 9,6 milyon manat vəsait ayrılıb. Eyni zamanda memar Əcəmi Naxçıvaninin abidəsinin ucaldılması və görkəmli memarın 900 illik yubileyinin qeyd olunması ilə bağlı qərarlar qəbul edilib.

Bu layihələrin əhəmiyyəti yalnız ayrı-ayrı abidələrin fiziki vəziyyətinin yaxşılaşdırılması ilə məhdudlaşmır. Onlar Naxçıvanın tarixi-mədəni kimliyinin qorunmasına, şəhərin və rayonların turizm brendinin gücləndirilməsinə, mədəni turizm marşrutlarının zənginləşdirilməsinə xidmət edən çox əhəmiyyətli işlərdir.

Prezident İlham Əliyev qeyd etdiyimiz müsahibəsində bildirdi ki, Naxçıvanın tarixi-mədəni abidələrinin qorunması səfərinin proqramında ən vacib sahədir. "Bildiyiniz kimi, Naxçıvan çox zəngin tarixə və mədəniyyətə, o cümlədən memarlıq mədəniyyətinə malikdir. Naxçıvan qədim Atabəylər dövlətinin paytaxtı olub və o dövrə, ondan sonrakı dövrə aid olan bir çox abidələr dünya əhəmiyyətli abidələrdir. Möminə xatun məqbərəsinin bərpası ilə bağlı görülən işlər bu gün mənə təqdim edildi. Eyni zamanda digər tarixi-mədəni obyektlərin konservasiyası, qorunması və bərpası nəzərdə tutulur. Möminə xatun məqbərəsinin müəllifi məşhur naxçıvanlı memar Əcəmi Naxçıvaninin şərəfinə abidə ucaldıldı. O abidənin arxasında onun ölməz əsəri Möminə xatun məqbərəsi yerləşir.

Bütün bu məsələlər böyük əhəmiyyət daşıyır. Çünki təbii ki, sosial-iqtisadi inkişaf, enerji təhlükəsizliyi vacib məsələlərdir. Ancaq bütün bu görülən işlərin təməlində bizim milli kimliyimiz dayanır, milli ruhumuz dayanır, mədəniyyətimiz, dilimiz, ədəbiyyatımız, tariximiz dayanır. Azərbaycan xalqı xoşbəxt xalqdır. Biz tariximizlə, mədəniyyətimizlə, görkəmli şəxsiyyətlərimizlə fəxr edə bilərik.

Naxçıvan, eyni zamanda Azərbaycana bir çox görkəmli şəxsiyyətlər bəxş edib. Naxçıvan Azərbaycan xalqına dahi şəxsiyyət Heydər Əliyev kimi Ulu Öndər bəxş edib. Yəni bu bölgənin zəngin tarixi, bu bölgədə yaşayan insanların mərdliyi, doğma Vətənə bağlılığı və eyni zamanda Naxçıvanın strateji yerləşməsi və imkanları, burada icra olunan və olunacaq layihələr bu gün təkcə Azərbaycan üçün deyil, - halbuki birinci növbədə Azərbaycan üçün, - geniş coğrafiya üçün böyük əhəmiyyət kəsb edir", - deyə dövlətimizin başçısı bildirmişdir.

Müasir turizm üçün fasiləsiz enerji, keyfiyyətli içməli su və digər kommunal xidmətlərin də mühüm əhəmiyyəti var. Uzun illər blokada şəraitində yaşamış Naxçıvanda bu gün enerji təhlükəsizliyi tam təmin olunub. 2025-ci il martın 5-də istifadəyə verilmiş İğdır-Naxçıvan təbii qaz boru kəməri isə muxtar respublikanın enerji təminatının şaxələndirilməsi baxımından mühüm layihədir.

Muxtar respublikada su təsərrüfatının yenilənməsi istiqamətində nəzərdə tutulan genişmiqyaslı tədbirlər bölgədə yaşayış və iqtisadi mühitin daha dayanıqlı olmasına xidmət edir. 2026-2030-cu illər üçün nəzərdə tutulan tədbirlər çərçivəsində nasos stansiyalarının və kanalların yenidən qurulması, suvarma sistemlərinin yaradılması, sutəmizləyici qurğuların yenilənməsi və yaşayış məntəqələrinin su və kanalizasiya şəbəkələri ilə təmin olunması planlaşdırılır.

### Yeni xidmət ekosistemi

Naxçıvanda aparılan quruculuq işlərinin digər mühüm nəticəsi iqtisadi fəallığın genişlənməsidir. 2023-2025-ci illərdə muxtar respublikanın ÜDM-in real ifadədə 7,6, sənaye istehsalı 4,6, nəqliyyat və anbar təsərrüfatı 25,7 faiz artıb. Əsas kapitala yatırılan investisiyalar isə 2023-cü illə müqayisədə 2,5 dəfə yüksəlib.

Turizm də məhz belə çoxşaxəli iqtisadi mühitdə inkişaf edir. Yeni xidmət sahələrinin yaradılması, sahibkarlığın genişləndirilməsi və investisiyaların artması mehmanxana, ictimai iaşə, nəqliyyat, əyləncə, bələdçilik və digər xidmət istiqamətlərinin inkişafına təkan verir. Bununla belə, görülməli işlər də var. Azərbaycan Prezidenti müsahibəsində bu barədə demişdir: "Ancaq əfsuslar olsun ki, mehmanxanaların az olması və o qədər də səviyyəli olmaması turizmin inkişafını əngəlləyir. Bu gün şəhərin mərkəzində beşulduzlu yeni mehmanxananın təməli qoyuldu və yəqin ki, təqribən 2028-ci ildə hazır olacaq. Yəni dövlət tərəfindən Naxçıvan Muxtar Respublikasının inkişafına nə lazımdırsa, o da bu günə qədər edilib və ediləcək".

Bir faktı da qeyd edək ki, Naxçıvanın strateji coğrafi mövqeyi də onun turizm potensialını artıran mühüm amillərdəndir. Bu baxımdan, Zəngəzur dəhlizi ilə bağlı proseslər xüsusi əhəmiyyət daşıyır. Dəhliz çərçivəsində Naxçıvana dəmir yolu bağlantısının bərpası, Türkiyə ərazisində Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisinin tamamlanması gələcəkdə muxtar respublikanın nəqliyyat imkanlarını əhəmiyyətli dərəcədə genişləndirəcək. Layihənin reallaşması Naxçıvanın ölkənin əsas hissəsi ilə birbaşa quru bağlantısı əldə etməsinə, tranzit, logistika və ticarət imkanlarının artmasına şərait yaradacaq. Bu imkanların turizm baxımından çox mühüm nəticələri olacaq. Nəqliyyat əlçatanlığının artması Naxçıvana səfərlərin asanlaşmasına, yeni turist marşrutlarının açılmasına və muxtar respublikanın regional turizm xəritəsində mövqeyinin möhkəmlənməsinə imkan verəcək.

### Müasir Naxçıvanın insan və yaşayış mühiti

İstənilən ölkədə aparılan abadlıq və quruculuq siyasətinin ali məqsədi insanların həyat keyfiyyətinin yüksəldilməsi olmalıdır. Bu məqsəd muxtar respublikada həyata keçirilən inkişaf siyasətində də qorunur. Naxçıvanda "ASAN xidmət" və Naxçıvan Regional DOST mərkəzlərinin açılması, müxtəlif rayonlarda yeni məktəblərin, məktəbdənkənar təhsil müəssisələrinin və STEAM Təlim-Tədris Mərkəzinin istifadəyə verilməsi sosial infrastrukturun yenilənməsinin miqyasını göstərir. Turizm isə məhz belə mühitin üzərində inkişaf edə bilər.

2023-2026-cı illərdə həyata keçirilən tədbirlər Naxçıvanın inkişafında yeni mərhələnin başladığını göstərir. Bu mənzərədə Naxçıvanın turizm potensialı ayrıca və təcrid olunmuş sahə kimi yox, ümumi inkişaf strategiyasının mühüm istiqaməti kimi nəzərdən keçirilməlidir. Tarixi irsin qorunması ilə müasir infrastrukturun, sahibkarlığın inkişafı ilə nəqliyyat imkanlarının, şəhərsalma ilə turizm perspektivlərinin bir araya gəlməsi Naxçıvanın yeni inkişaf modelinin mühüm xüsusiyyətləridir. "Şərqin qapısı"nın yeni inkişaf salnaməsi məhz bu mənzərə reallığında yazılır və bölgənin tərəqqisi üçün yeni imkanlar açır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan-Pakistan strateji tərəfdaşlığı zamanın sınağından uğurla çıxıb

**XX əsrin ortalarında islam dünyasında yeni bir dövlətin - Pakistanın yaranması Cənubi Asiyanın siyasi xəritəsini dəyişməklə beynəlxalq münasibətlər sistemində mühüm hadisə oldu. Pakistan yarım əsrdən sonra sosial-iqtisadi və hərbi-siyasi təlatümlərə sinə gərərək müsəlman aləmində yeganə rəsmi nüvə dövləti oldu. Bu dövlət Cənubi Asiya, Mərkəzi Asiya, Yaxın Şərq və Çini birləşdirən strateji əhəmiyyət kəsb edən bir regionda yerləşir. Region Çin-Pakistan İqtisadi Dəhlizi vasitəsilə Çinin Hind okeanına (Qvadar limanı) çıxışını təmin edir və dənizə çıxışı olmayan Mərkəzi Asiya ölkələri üçün ən qısa tranzit marşrutudur.**



Pakistan Çinin ən yaxın strateji müttəfiqi olmaqla yanaşı, ABŞ, BƏƏ, Səudiyyə Ərəbistanı və Türkiyə ilə də dərin hərbi-siyasi əlaqələrə malikdir. Bu, ona böyük dövlətlərin diplomatiyasında balanslaşdırıcı vasitə olmaq imkanı verir. O, həmçinin regionun ən böyük və təcrübəli ordularından birinə sahib olmaqla Cənubi Asiyada güclər balansı baxımından həlledici rol oynayır.

2025-2026-cı illərdə Pakistan dünyanın ən çox əhaliyə malik beşinci ölkəsi (259 milyon nəfər) olaraq qalır, ümumi daxili məhsulun artımı 3,7 faiz təşkil edir, inflyasiya isə sərt monetar siyasət nəticəsində tək rəqəmli səviyyələrə (illik təqribən 7,2-9,2 faiz) enmişdir. Pakistanın ümumi valyuta ehtiyatları 22,47 milyard dollar təşkil etmişdir.

Pakistanda son illər iqtisadiyyatın modernləşdirilməsi və xarici investisiyaların cəlb edilməsi məqsədilə xüsusi sahələrin inkişafına üstünlük verilir. Hazırda ölkədə sürətlə böyüyən və dinamik inkişaf edən bir sıra iqtisadi sahələr mövcuddur. Belə ki, Pakistan informasiya texnologiyaları və rəqəmsal xidmətlər, proqram təminatı sahəsində regional mərkəzlərdən birinə çevrilməkdədir. Xarici investisiyaların cəlb edilməsi, tranzit-nəqliyyat qovşağına çevrilmək (Mərkəzi Asiyanı dənizə bağlamaq) və BMT, ŞƏT kimi beynəlxalq platformalarda iqtisadi maraqları irəli sürmək əsas hədəflər hesab olunur.

Pakistanın xarici siyasəti, əsasən, onun geostrateji mövqeyi, milli təhlükəsizlik prioritetləri və regional balans amilləri əsasında formalaşmışdır. Onun ən mühüm və prioritet istiqaməti ərazi bütövlüyünün və milli təhlükəsizliyinin qorunmasıdır. Əsas geosiyasi rəqibi olan Hindistanla münasibətlərin mərkəzində Cammu və Kəşmir problemi dayanır. Pakistan bu ərazinin gələcəyinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq plebisit (xalq səsverməsi) yolu ilə həll olunmasını tələb edir. Başqa sözlə desək, BMT TŞ-nin qətnamələrinin yerinə yetirilməsini istəyir. Hindistan ilə strateji balansı saxlamaq məqsədilə Pakistan öz nüvə proqramını xarici və təhlükəsizlik siyasətinin əsas zəmanəti hesab edir.

İslamabad Çin-Pakistan İqtisadi Dəhlizi çərçivəsində Pekinlə strateji əməkdaşlığını davam etdirir. Çin Pakistanın xarici siyasətində ən yaxın strateji, hərbi və iqtisadi müttəfiqidir. Çin-Pakistan iqtisadi dəhlizi Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün flaqman layihəsidir. Bu, Qvadar limanı vasitəsilə Çinin Ərəb dənizinə çıxışını təmin edir və Pakistana milyardlarla dollar investisiya gətirir.

Pakistan Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuşdur. Təsadüfi deyil ki, bu iki qardaş dövlət arasında əlaqələr zəngin tarixi köklərə, ortaq mənəvi dəyərlərə və hazırda güclü diplomatik tərəfdaşlığa dayanır. Hər iki xalqı birləşdirən əsas amillərdən biri islam irsi, ortaq mənəvi dəyərlər və Şərq mədəniyyətinə mənsubluqdur. Cənubi Asiya ilə Qafqaz arasında ticarət və mədəniyyət mübadiləsi hələ böyük İpək yolu dövründən mövcud olmuşdur. Bakıdakı Atəşgah məbədində yerləşən və multani (Pakistanın Multan şəhərindən olan) tacirlərə aid tarixi yazılar bu əlaqələrin bariz nümunəsidir.

2025-2026-cı illərdə Azərbaycan və Pakistan arasında siyasi münasibətlər strateji müttəfiqlik və qardaşlıq ruhunda yüksələn xətlə inkişaf etmiş, qarşılıqlı yüksəksəviyyəli səfərlər, hərbi-siyasi həmrəylik və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıqla yadda qalmışdır. Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında indiyədək 60-dan çox ikitərəfli sənəd (müqavilə, saziş, Anlaşma Memorandumu və protokol) imzalanmışdır.

Yüksəksəviyyəli qarşılıqlı əlaqələr və görüşlər münasibətlərin digər sahələrinə müsbət təsir edən mühüm amil olmuşdur. 2025-ci ilin fevralında Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Azərbaycana rəsmi səfər etmiş, iki ölkə arasında enerji və nəqliyyat sahələrini əhatə edən mühüm sənədlər və Anlaşma memorandumları imzalanmışdır. May ayında isə Baş nazir Şahbaz Şərif regional səfər çərçivəsində yenidən Azərbaycana gələrək ikitərəfli əməkdaşlığın şaxələndirilməsini müzakirə etmişdir. Həmin ilin noyabrında Pakistanın Baş naziri Bakıda Azərbaycanın Zəfər Gününün 5-ci ildönümünə həsr olunmuş hərbi paradda iştirak etmişdir. Səfər çərçivəsində Prezident İlham Əliyevlə keçirilən görüşdə suverenlik və ərazi bütövlüyünə qarşılıqlı qəti dəstək bir daha təsdiqlənmişdir. Xüsusi vurğulamaq lazımdır ki, dövlət başçıları arasında şəxsi əlaqələrin yüksək səviyyədə olması digər sahələrdə əməkdaşlığın inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi üçün mühüm rol oynamışdır.

Azərbaycan-Pakistan-Türkiyə parlament sədrlərinin üçtərəfli əməkdaşlıq formatı vasitəsilə regional sabitlik, iqtisadi və mədəni əlaqələrin genişləndirilməsi üçün ciddi səylər göstərilmişdir. Nüvə dövləti olan Pakistan, NATO-nun aparıcı ordularından birinə sahib Türkiyə və Cənubi Qafqazın lideri Azərbaycanın birliyi regionda sabitliyin ən böyük təminatçısıdır. Həmçinin üçtərəfli parlament əməkdaşlığı çərçivəsində rəqəmsal təhdidlər, hibrid müharibələr və regional terrorizmə qarşı birgə qanunvericilik mexanizmləri işlənib hazırlanır.

Azərbaycan ilə Pakistan arasında iqtisadi əlaqələr 2025-2026-cı illərdə strateji tərəfdaşlıq, ikitərəfli investisiya layihələri və ticarət dövriyyəsinin artırılması istiqamətində dinamik inkişaf mərhələsinə qədəm qoymuşdur. Son illər müntəzəm olaraq hökumətlərarası komissiyaların, ticarət, sərmayə və kənd təsərrüfatı sahəsində işçi qruplarının görüşləri keçirilmişdir. 2026-cı ilin ortalarında Azərbaycan ilə Pakistan arasında ticarət sahəsində əməkdaşlıq üzrə birgə işçi qrupunun növbəti iclasları keçirilmiş, tekstil, turizm, kiçik və orta biznes subyektləri arasında əlaqələrin dərinləşdirilməsi müzakirə olunmuşdur.

Azərbaycan eyni zamanda Pakistan ilə BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq edir. Azərbaycan 2024-cü ilin sonlarında inkişaf etməkdə olan ölkələri birləşdirən D-8-ə üzv qəbul edildikdən sonra təşkilatın səhiyyə üzrə işçi qruplarında, xüsusilə də rəqəmsal səhiyyə və iqlim dəyişikliyinin əhalinin sağlamlığına təsirləri ilə mübarizə istiqamətlərində Pakistan və digər üzv ölkələrlə birgə təşəbbüslərdə yer alır.

İki ölkə arasında siyasi əlaqələr yüksək səviyyədə olsa da, iqtisadi və ticarət əlaqələrinin bu potensiala uyğunlaşdırılması sahəsində hazırda ciddi işlər görülür. 2025-ci ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsi 26 milyon 48 min dollar təşkil etmişdir. Bunun 80 min dolları ixrac, 25,9 milyon dolları isə idxalın payına düşmüşdür. Hər iki ölkənin qanunverici və icraedici orqanları Preferensial Ticarət Sazişinin tam gücü ilə işləməsi sayəsində ticarət dövriyyəsini mərhələli şəkildə 2030-cu ildə 2 milyard dollara çatdırmağı hədəfləyir. 2026-cı ilin iyulunda keçirilən ticarət üzrə birgə işçi qrupunun iclasında tekstil, turizm, enerji və kiçik-orta biznes investisiyalarının artırılması üçün yeni hüquqi protokollar imzalanmışdır. 2025-2026-cı illərdə Azərbaycan ilə Pakistan arasında ticarət-iqtisadi əlaqələr strateji tərəfdaşlığın dərinləşdirilməsi, tranzit-logistika imkanlarının genişləndirilməsi və qarşılıqlı investisiyaların artırılması xətti ilə inkişaf etmişdir. Siyasi müstəvidəki yüksəksəviyyəli dostluq münasibətləri iqtisadi sahədə ticarət dövriyyəsini nəzərdə tutulmuş həddə çatdırmaq məqsədilə dəstəklənir.

Son zamanlar iqtisadi və investisiya əməkdaşlığı sahəsində canlanma müşahidə olunur. Hər iki ölkə enerji, infrastruktur, mineral resurslar, geologiya və rəqəmsal texnologiyalar sahəsində ilkin investisiya və birgə layihələrin həyata keçirilməsi istiqamətində addımlar atırlar. Güzəştli ticarət sazişləri və razılaşmalar ticarət dövriyyəsinin durmadan artmasına təkan verir. Preferensial ticarət sazişləri və tranzit ticarət sazişləri çərçivəsində müəyyən məhsul növləri üzrə tariflər endirilmiş, vergi və gömrük imtiyazları tətbiq olunmuşdur. Enerji sahəsində də müsbət addımlar atılıb.

Azərbaycan-Pakistan ticarət dövriyyəsi tarixi olaraq Azərbaycanın idxalyönümlü strukturuna malikdir, lakin enerji və sənaye məhsulları ilə bu balansın bərabərləşdirilməsi hədəflənir. Pakistandan Azərbaycana düyü (Super Basmati), əczaçılıq və digər tibb məhsulları, toxuculuq və tekstil, gübrələr göndərilir. Azərbaycan Prezidentinin müvafiq qərarı ilə Pakistandan idxal edilən düyü məhsulları üçün 15 faizlik idxal gömrük rüsumu ləğv edilmişdir. Bu birtərəfli tarif güzəşti Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə 31 dekabr 2027-ci ilə qədər qüvvədədir və Pakistan düyüsünün Azərbaycan bazarında rəqabət qabiliyyətini kəskin artırmışdır. Tətbiq edilən Preferensial Ticarət Sazişi çərçivəsində tərəflər qarşılıqlı olaraq müxtəlif çeşidli mallar - xüsusilə tekstil, idman malları, tibb ləvazimatları və kənd təsərrüfatı məhsulları üzrə gömrük tariflərinin endirilməsi və ya tamamilə sıfırlanmasını təmin etmişlər.

Azərbaycan ilə Pakistan arasında hərbi və hərbi-texniki əməkdaşlıq iki ölkə arasındakı strateji tərəfdaşlığın və qardaşlıq münasibətlərinin ən mühüm sütunlarından biridir. Bu əməkdaşlıq həm ikitərəfli müstəvidə, həm də Türkiyənin iştirakı ilə üçtərəfli formatda dinamik şəkildə inkişaf edir. Pakistan Ermənistanın işğalçılıq siyasətinə etiraz olaraq bu ölkəni müstəqil dövlət kimi tanımayan azsaylı ölkələrdəndir. Vətən müharibəsi dövründə və sonrakı mərhələlərdə Pakistan Azərbaycana tam mənəvi və siyasi dəstək nümayiş etdirmişdir. İki ölkə arasında hərbi sahədə əməkdaşlığa dair ilk sazişlər 2000-ci illərin əvvəllərindən imzalanmağa başlamış, 2014-cü ildə hərbi-texniki əməkdaşlıq haqqında saziş və sonrakı strateji tərəfdaşlıq bəyannamələri ilə möhkəmləndirilmişdir.

Səhiyyə sahəsində intensiv əlaqələr davam edir, universitetlər arasında əməkdaşlıq genişlənir. Azərbaycan Tibb Universiteti ilə Pakistanın Rifah Beynəlxalq Universiteti arasında tibb təhsili və akademik mübadilə sahəsində fəal tərəfdaşlıq mövcuddur. Birgə elmi konfranslar, distant təlimlər və mütəxəssis mübadiləsi proqramları həyata keçirilir. Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Komissiyasının qərarlarına əsasən, səhiyyə üzrə işçi qrupu çərçivəsində tərəflər əczaçılıq məhsullarının qarşılıqlı tanınması, tibbi avadanlıq və dərman vasitələrinin təchizatı sahəsində ticarət dövriyyəsinin artırılmasını planlaşdırır.

Heydər Əliyev Fondu Pakistanda genişmiqyaslı mədəni-humanitar layihələr həyata keçirir. Fond tərəfindən Muzaffarabad şəhərində qızlar üçün məktəbin inşası, səhiyyə ocaqlarının bərpası və müxtəlif mədəni tədbirlərin təşkili Pakistan ictimaiyyətində böyük rəğbət qazanmışdır. Bakı ilə İslamabad, eləcə də Gəncə ilə Multan şəhərləri arasında qardaşlaşma əlaqələri mövcuddur. Bu status şəhərlərarası mədəni mübadiləni və birgə tədbirlərin keçirilməsini stimullaşdırır.

Həm Bakıda, həm də İslamabadda mütəmadi olaraq "Azərbaycan Mədəniyyəti Günləri" və "Pakistan Mədəniyyəti Günləri" təşkil olunur. Bu tədbirlərdə xalq tətbiqi sənəti, milli geyimlər, miniatür sənəti və fotosərgilər nümayiş etdirilir. Pakistanın Qəzzali musiqi ənənəsi ilə Azərbaycan Muğam sənəti arasında mənəvi yaxınlıq var. İki ölkənin musiqiçiləri müxtəlif beynəlxalq festivallarda (məsələn, Xarıbülbül Musiqi Festivalı) birgə çıxışlar edirlər.

Böyük inamla qeyd edə bilərik ki, Pakistan-Azərbaycan strateji tərəfdaşlığı hər iki ölkənin maraqlarının təmin edilməsi ilə yanaşı, həmsərhəd və region ölkələrinin də mehriban qonşuluq şəraitində yaşamasına müsbət zəmin yaradır. Çünki, bu tərəfdaşlıq heç bir üçüncü dövlətə qarşı çevrilməyib, yalnız iqtisadi əməkdaşlığın genişləndirilməsi və iqtisadi dəhlizlərin müntəzəm fəaliyyəti üçün təhlükəsiz, sabit bir mühitin yaradılmasına yönəlib.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# Azərbaycan diplomatiyasının fəallığı Cənubi Qafqazda sülhə və əməkdaşlığa yeni təkan verir

Azərbaycanın xarici siyasətinin uğurları sırasında 2025-ci ilin 8 avqustunda Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin razılaşdırılmış mətninin paraflanması, ATƏT-in Minsk prosesi və onunla əlaqəli strukturların bağlanmasına dair birgə müraciətin imzalanması və regional kommunikasiyaların açılması ilə bağlı siyasi iradənin ortaya qoyulması xüsusi yer tutur.

Rəsmi Bakının müstəqil siyasətinin məntiqi nəticəsi olan həmin prosesi bütün dünya irəliyə doğru atılmış ciddi addım kimi qiymətləndirir. Onun reallaşmasında başlıca faktorun Azərbaycan Prezidenti İlham Əliyevin Vətən müharibəsindəki qələbədən sonra davamlı, qətiyyətli və tam müstəqil sülh siyasəti yeritməsi olduğunu qəbul edirlər.

Bu kontekstdə sülh sazişinin mətni paraflanarkən ekspertlər onun əhəmiyyətini bir neçə istiqamətdə xüsusi vurğulamışdılar:

Birincisi, iki dövlət arasında 30 ildən çox davam edən münaqişə siyasi-diplomatik müstəvidə başa çatırdı. Azərbaycanın hərb meydanındakı qələbəsi sayəsində buna nail olmaq imkanı yaranmışdır.

İkincisi, regional miqyasda dövlətlərarası münasibətlərdə keyfiyyət və məqsədcə yeni mərhələnin başladığı hüquqi olaraq təsbit edilirdi.



Üçüncüsü, regional sülhün formalaşmasında Azərbaycanın oynadığı aparıcı rol dünyanın ən qüdrətli dövləti olan ABŞ tərəfindən rəsmi olaraq təsdiq edilirdi.

Dördüncüsü, Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının yaranması üçün geniş imkanlar açılırdı.

Beşincisi, Azərbaycanın əsas hissəsinin Naxçıvanla birbaşa quru əlaqəsi qurmaq şansı meydana gəlirdi.

Altıncısı, türk dünyasının tarixən mövcud olan quru bağlantısı bərpa olunurdu.

Yeddincisi, qlobal əməkdaşlıq layihələrinin reallaşması üçün böyük imkan yaranırdı.

Buna görədir ki, həmin dönəmdə ekspertlər yazırdılar: "Prezident İlham Əliyevin ABŞ-yə səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış Bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin paraflanmasının və ATƏT-in Minsk qrupunun ləğvinə dair birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyəti çox böyükdür".

Parlamentarilər və ekspertlər bu nəticəyə gəlinməsində Prezident İlham Əliyevin xüsusi töhfəsinin olduğunu ayrıca vurğulayırdılar. Milli Məclisin iclaslarının müzakirələrində belə bir tezis səslənirdi: "Vaşinqton razılaşmaları sülh diplomatiyasının və müdrik liderliyin təntənəsidir".

Geosiyasi kontekstdə əhəmiyyəti aydın ifadə edilən bir məqamı da ekspertlər xüsusi vurğulamışdılar. Onlar yazırdılar ki, "Avqustun 8-də Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması bir çox aspektlərdə vacib və mütərəqqi geosiyasi nəticələr vəd edir. Ən mühüm kontekst kimi önə çıxan məsələ Cənubi Qafqazda 30 ildən artıq bir dövrdən sonra sülhə nail olunmasıdır - SSRİ-nin dağılması ərəfəsində "əsası qoyulan" və sonradan müharibəyə çevrilən "münaqişə" 2020-ci ilin 44 günlük Vətən müharibəsi ilə başa çatdı. 2023-cü ilin sentyabrında baş verən antiterror tədbirləri nəticəsində isə bölgədəki separatizm meyilləri "dəfn olundu". Beləliklə, qarşıda yeni dövr, yeni mərhələ və yeni münasibətlər sisteminin qurulması prosesi dayanır".

## Regional kontekst: yeni mərhələdə yeni münasibətlər sistemi

Sözügedən sazişin geosiyasi, siyasi və təhlükəsizlik aspektləri ilə bağlı yuxarıda vurğulanan məqamlardan məntiqi olaraq Vaşinqton razılaşmasına Cənubi Qafqaz kontekstində yeni mərhələnin başlanğıcı kimi baxılır və onun əsasında yeni regional münasibətlər sisteminin formalaşmasına böyük əminlik vardı. Buna görə də artıq bir il vaxt keçməsinin fonunda hansı addımların atıldığının ümumi geosiyasi təhlili aktualdır.

Yenə də ekspert qiymətləndirməsinə nəzər salaq. Çoxsaylı faktların təhlili əsasında ekspertlərin gəldiyi qənaət belədir ki, Vaşinqton razılaşmasının şərtlərinə uyğun olaraq Azərbaycan bir il müddətində nəticəverici fəaliyyət göstərmişdir. Artıq Ermənistanla nəqliyyat, yüklərin daşınması və enerjidaşıyıcıları ilə təminat məsələsində konkret əməkdaşlıq mühiti yaradılmışdır. Bu "...əməkdaşlıq Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində mümkün olub. Rəsmi Bakı Vaşinqton görüşündə əldə edilən razılığa və imzalanan sənədlərə uyğun olaraq sülh, normallaşma prosesinə töhfələr verir".

Qarşı tərəfin fəaliyyəti ilə bağlı qənaət isə aşağıdakı kimidir: "Təəssüf ki, Ermənistan üzərinə götürdüyü öhdəlikləri həyata keçirməkdə ləng fəaliyyət göstərir. İki ölkə arasında münasibətlərin normallaşması və yekun sülh sazişinin imzalanması üçün Ermənistan konstitusiyasındakı təcavüzkar preambula və müddəalar qalır. Rəsmi İrəvan əsas qanunda dəyişiklik etmək, habelə bu kimi iki tərəfin marağını təmin edən fundamental məsələlərlə bağlı hələ ki, vədlər verir. Bundan başqa, Ermənistanda Azərbaycanın daxili işlərinə müdaxilə etmək cəhdləri də müşahidə olunur".

Bunlar onu göstərir ki, hələlik yalnız Azərbaycan əldə olunan razılaşmalara tam əməl edir və bu istiqamətdə konkret addımlar atır. Ermənistanda "Azərbaycan torpaqlarının yenidən işğal edilməsi istiqamətində təbliğatın aparılması, bu tip revanşistlərin fəaliyyətinə şərait yaradılması və imkan verilməsi, habelə Azərbaycanda hərbi cinayətlər törətməkdə mühakimə olunmuşların Ermənistanda müdafiəsinə rəsmi İrəvanın göz yumması kimi hallar Vaşinqtonda əldə edilən razılaşmaların müddəalarına və ruhuna ziddir". Bu kimi məsələlər regionda əməkdaşlıq və təhlükəsizliyi risk altına atır. Bu gedişatın təbii ki, qlobal miqyasda özünəxas təsiri vardır.

## Qlobal miqyas: İrəvan riskli və qeyri-müəyyən vəziyyət yaradır

ABŞ-İsrail-İran və Ukrayna-Rusiya münaqişələri fonunda rəsmi İrəvanın bu cür davranışı ciddi risklər meydana gətirir. Ermənistan rəhbərliyi fərqli bəyanatlar verirlər. Belə görünür ki, onlar hələ də qəti geosiyasi seçim edə bilməmişlər. Gah ABŞ və Avropaya, gah İrana, gah da Rusiyaya reveranslar edirlər. Bütün bunların fonunda normallaşmada əhəmiyyəti olan addımlar atmamışlar. O cümlədən konstitusiyadan Azərbaycana qarşı ərazi iddiaları çıxarılmamışdır, Ermənistan TRIPP-lə bağlı üzərinə düşənləri etməmiş, əksinə, alternativ nəqliyyat dəhlizlərinin qurulması üzərində iş aparır. Ermənistan parlamentində bir sıra deputatlar "tarixi ərazi" iddialarından danışırlar. Rəsmi Moskvanın bəyanatlarında da Vaşinqton sazişinin ruhuna uyğun cavablar verilmir.

Son dövrlərdə isə Ukrayna-Rusiya münaqişəsinin gərginliyi Xəzər hövzəsində daha çox hiss olunur. Bu gərginliyin rəsmi İrəvanın mövqeyinə necə təsir edəcəyi aydın deyildir. Şübhə yoxdur ki, İran tərəfinin təzyiqlərinə də Ermənistan rəhbərliyi reaksiyasız qalmayacaq.

Bütün bunların fonunda Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin Türkiyə media nümayəndələrinə verdiyi son müsahibədə maraqlı fikirlər ifadə etməsi diqqət çəkir. Azərbaycan rəsmisi birmənalı və qətiyyətlə bəyan etmişdir ki, Azərbaycan tam müstəqil və prinsipial siyasətini davam etdirəcəkdir.

Belə bir qənaətə gəlmək olar ki, Vaşinqton razılaşmalarından bir il keçəndən sonra da Ermənistanda hələ də bir sıra ziddiyyətlər qalmaqdadır. Onların mənbəyi isə bu ölkənin tərəddüdlü xarici siyasət yeritməsi və qeyri-müəyyən geosiyasi vəziyyətdə olmasıdır. Ancaq Azərbaycanın qətiyyətli mövqeyi bu maneələrin də aradan qaldırılacağına təminat verir. Yəni Azərbaycanın regional sülhə nail olmaq istiqamətində fəaliyyəti davam edir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!

# Zəfər davam edir

## Bu dəfə quruculuq cəbhəsində

**Qarabağ və Şərqi Zəngəzur Ermənistan silahlı qüvvələrinin işğalından azad edildikdən, ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərpa olunduqdan sonra dağıdılmış şəhər və kəndlərin tikilməsi, infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin ata-baba yurdlarına qayıtması mühüm bir vəzifə kimi ölkəmizin qarşısında dayanırdı.**

Bütün bu quruculuq işləri Zəfərin davamı olacaqdı, zəfərdən sonra növbəti zəfərə gedən yollarımız başlayacaqdı. Xalqımız şəhər və kəndlərimizin bərpası və yenidən qurulması naminə İkinci Qarabağ müharibəsində necə fədakarlıq göstərib vuruşmuşdusa, quruculuq işlərində də o cür fəallıq və cəsarət göstərəcəkdi.

Müharibədə qazanılmış Zəfərdən çox keçməmiş Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinə start verildi. Yollar çəkilməyə, infrastrukturlar bərpa olunmağa, kəndlər, şəhərlər yenidən salınmağa başladı. İşğal dövründə ermənilər şəhər və kəndlərimizi darmadağın edərək viran qoymuşdular. Keçmiş köçkünlərin geri dönüb yaşamaları üçün heç bir şərait yox idi. Şəhər və kəndlər yenidən tikilməliydi, yenidən qurulmalıydı. Əsaslı bərpa aparılmalıydı, müvafiq quruculuq tədbirləri görülməliydi. Rəşadətli ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı Zəfərdən bir müddət sonra Prezident İlham Əliyev xalqa müraciətində demişdir: "Böyük Qayıdış başlayır, bütün bərpa işlərinə başlanılıb. Əminəm ki, biz düşməni cəmi 44 gündə öz torpaqlarımızdan qovduğumuz kimi, tarixi torpağımızı - Qarabağımızı da ən qısa müddətdə bərpa edəcəyik".



Ötən illər ərzində Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işləri, şəhər və kəndlərin yenidən salınması, bərpa edilməsi, keçmiş köçkünlərin mərhələ-mərhələ doğma ocaqlarına qayıtması bir daha göstərdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin dedikləri sadəcə bir vəd olmur. Dövlət başçısının rəhbərliyi altında işlənib hazırlanmış "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın qəbulundan sonra Qarabağ və Şərqi Zəngəzurda, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənməyə, şəhər və kəndlər yenidən tikilməyə, infrastruktur layihələri həyata keçirilməyə başlandı. Ərazidə aparılan quruculuq işlərində, şəhər və kəndlərin salınmasında böyük canlanma yarandı.

Yaranan bu canlanma nəticəsində Qarabağa və Şərqi Zəngəzura həyat qayıtdı. Prezident İlham Əliyev deyir ki, əsas infrastruktur layihələrini, yəqin ki, bir-iki ilə başa çatdıracağıq. Ən çox vəsait bu layihələrə gedir. Çünki 60 kilometrdən çox tunellər, körpülər, elektrik stansiyaları, su anbarları inşa edilir: "Biz artıq orada 30-dan çox su-elektrik stansiyasını işə salmışıq, dəmir yolları çəkmişik. Yəni bütün bunlar əsas maliyyə yükü götürür. Təqribən 2-3 ildən sonra əsas infrastruktur layihələri başa çatacaq və ondan sonra yaşayış fondunun yaranmasına istiqamətləndiriləcək məbləğ daha böyük olacaq".

Prezident İlham Əliyev şəxsi nüfuzundan istifadə edərək bir çox xarici dövlətləri Azərbaycanın işğaldan azad olunmuş şəhər və kəndlərinin tikinti və quruculuq işlərinə cəlb edir. Məhz dövlətimizin başçısının səyləri sayəsində Qarabağda bərpa və quruculuq işlərinin ilk günlərindən başlayaraq, Azərbaycan Türkiyə, İtaliya, Çin, Mərkəzi Asiya ölkələri ilə fəal əməkdaşlıq edir. Yolların, tunellərin, sənaye zonalarının tikintisinə iri xarici şirkətlər cəlb olunur. Qarabağın və Şərqi Zəngəzurun genişmiqyaslı yenidən qurulmasına başlandığı ilk gündən türk dövlətləri bu prosesə böyük töhfələr verirlər.

Bu gün Azərbaycanın ürəyi, qəlbi Qarabağda və Şərqi Zəngəzurda döyünür. Erməni işğalından azad olmuş ərazilərin bərpası və yenidən qurulması Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla və sürətlə davam edir.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

# Adına və andına sadiq qaldı

**1996-cı il oktyabrın 1-də, sərin bir payız günündə Goranboyun Yolqulular kəndində yaşayan Qüdrət kişinin ailəsində bir oğul övladı dünyaya gəldi. "Həmişə elə arxa, dayaq olsun" - deyib körpənin adını Qəhrəman qoydular.**



İllər yavaş-yavaş ötüb keçdikcə Qəhrəman da boya-başa çatdı. 6 yaşı olanda valideynlərinin əlindən tutub yaşıdları ilə çiyin-çiyinə kəndlərindəki orta məktəbə getdi. Beləcə, günlər, həftələr, aylar yavaş-yavaş ilə dönərək durna qatarı kimi ötüb keçdi. Qəhrəman həm dərslərini yaxşı oxuyur, həm də məktəbin ictimai həyatında yaxından iştirak edirdi. "Üfüqdə parıltı", "Cəsurlar", "Şahin" hərbi idman və turizm oyunlarında böyük fəallıq göstərirdi.

Qəhrəman Məmmədov 2014-cü ildə ordu sıralarına çağırıldı. O, bu günü çoxdan gözləyirdi. Gözləyirdi ki, əyninə hərbi forma geyinib ordu sıralarına yollansın, Vətənə xidmət eləsin. Qoynunda dünyaya göz açdığı torpaqları düşmənlərdən qorusun. Artıq Qəhrəman arzusuna çatmışdı.

Doğmaları, yaxınları onu ordu sıralarına təntənə ilə yola saldılar. Qəhrəman əsgərliyə yollanarkən doğmalarına verdiyi sözə sadiq qaldı. Xidmətinin ilk günlərindən təlim-məşqlərdə fəal iştirak etdi, hərbi biliklərə dərindən yiyələndi.

Günlər keçdikcə, xidməti davam etdikcə əsgər Qəhrəman Məmmədovun orduya, hərbi xidmətə sevgisi daha da artırdı. Silahlı Qüvvələrin sıralarında xidmət etməyi özü üçün böyük şərəf bilən Qəhrəman Vətənə xidmət etmək istəyirdi. Odur ki, ordu sıralarında qalıb müddətdən artıq həqiqi xidmət qulluqçusu kimi xidmət etmək istədiyini komandanlığa bildirdi. Etiraz etmədilər.

Qəhrəman Məmmədov torpaqlarımızın azadlığı uğrunda döyüşməyə, igidlik göstərməyə hər an hazır idi. Onun gözlədiyi gün 2020-ci il sentyabrın 27-də gəldi. İkinci Qarabağ müharibəsi başlayanda Qəhrəman Məmmədov ön xətdə idi. Bir müddətdən sonra onları Suqovuşana göndərdilər. Bu istiqamətdə qanlı döyüşlər gedirdi. Geriyə çəkilmək istəməyən düşmən əlverişli mövqelərdə möhkəmlənərək ciddi müqavimət göstərirdi. Amma nəyin bahasına olursa olsun, yağılar geri oturdulmalıydı.

Qəhrəman Məmmədov cəsarətlə vuruşurdu. Atdığı güllələrin biri də olsun hədəfdən yayınmırdı. Düşmən ordumuzun güclü əks-hücumları qarşısında dayana bilməyərək geri çəkilirdi. Amma Suqovuşandan geri çəkilən düşmən strateji yüksəkliklərdə mövqelər tutaraq müqavimət göstərməyə çalışırdı. Döyüşün qızğın, həlledici məqamında Qəhrəman kürəyindən yaralandı. Buna baxmayaraq, döyüş mövqeyindən çıxmadı, geri çəkilmədi, atəşi dayandırmadı. Gülləri düşmənin başına dolu kimi yağdırmağa davam etdi. Təəssüf ki, bir azdan düşmənin atdığı güllə bu dəfə onun başından dəydi. Əsgər Qəhrəman Məmmədov şəhid oldu.



Doğmaları, əzizləri göz yaşları içində onu doğulduğu Yolqulular kəndində torpağa tapşırdılar. Qəhrəman ölümü ilə də valideynlərinin, doğmalarının başını el içində uca etdi. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edildi.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Şəhidliyi ilə heç zaman enməyəcəyi yüksəkliklərə ucaldı



**44 günlük Vətən müharibəsinin ilk günlərindən erməni qəsbkarlarına qarşı igidliklə vuruşanların sırasında əsgər Pərviz Natiq oğlu Novruzov da var idi. Onun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti düşməni əsasən Füzuli rayonu istiqamətindən geri sıxışdırırdı.**

Oktyabrın 2-si - müharibənin 7-ci günü idi. Pərvizin döyüşdüyü bölüyün zabit və əsgərləri düşmənin ön mövqelərini yararaq Füzuli və Xocavənd istiqamətində xeyli irəliləmişdi. İşğalçılar onları minaatan qurğulardan atəşə tutsalar da, əsgərlərimiz qorxu bilmədən düşməni sıxışdırmağa davam edirdilər. Lakin düşmən də asanlıqla geri çəkilmək istəmirdi. Belə vəziyyətdə Pərviz özünə daha əlverişli mövqe seçmək üçün irəli atılanda yağı gülləsinə tuş gəldi.

Həkimlər onun həyatını xilas edə bilmədilər. Pərviz canından da çox sevdiyi Vətənin azadlığı uğrunda gedən döyüşlərdə şəhid oldu. Ömür yolu yarıda qırıldı, Şuşa, Xankəndi, Xocalı və başqa bölgələr uğrunda vuruşmaq istəyi ürəyində qaldı. Pərvizin şəhid olması xəbəri zabit və əsgər yoldaşlarını da sarsıtdı.

Həmin gün Pərvizgilin evinin qapısını onun şəhid olduğu barədə acı xəbər döydü. Atası Natiq, anası Afaq və doğmaları qəm dəryasına batdılar. Yaxınlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə Pərviz Novruzov oktyabrın 3-də 19 il əvvəl doğulduğu Kürdəmir rayonunun Ərəbxana kənd qəbiristanlığında torpağa tapşırıldı. İkinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə, Pərviz Natiq oğlu Novruzov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad edilməsinə görə" və "Xocavəndin azad edilməsinə görə" medalları ilə təltif olundu.



Pərviz 2002-ci ildə Kürdəmirin Ərəbxana kəndində dünyaya göz açmışdı. 2019-cu ildə orta təhsilini başa vurduqdan sonra Şamaxı Dövlət Regional Kollecinə qəbul olmuş, birinci kursun ilk yarısını bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmışdı.

Atası Natiq Novruzov oğlu haqqında göz yaşı içində danışdı. Dedi ki, Pərviz çox diribaş, gözüaçıq, hazırcavab uşaq idi: "Yaşadığı qısa ömründə heç vaxt eşitmədik ki, kiminləsə söz-söhbəti olsun. Onun balaca cüssəsində böyük hünər vardı. Tez-tez Qarabağ müharibəsindən söz açar, ermənilərin torpaqlarımızı işğal etməsindən ürəkağrısı ilə danışardı".

Anası Afaq xanım isə deyir ki, oğlum elə bil şəhid olacağını əvvəlcədən bilirmiş: "Bizi də yavaş-yavaş buna alışdırmağa çalışırdı. Pərviz futbola da böyük maraq göstərirdi. Orta məktəbdə oxuyanda kəndlərarası yarışlarda həvəslə iştirak edirdi. Onun həm də yaxşı rəqs etməyi var idi. O toy olmazdı ki, oynamasın. Oğlum ordu sıralarına 2020-ci ilin aprelində çağırılmışdı. Amma pandemiya ilə əlaqədar onu bir ay gec - mayın 7-də apardılar. Dəfələrlə ona təklif etdik ki, hərbi xidmətə kolleci bitirəndən sonra getsin. Qulaq asmadı, özünün fikirləşdiyi yolla getdi. Deyirdi ki, mənim üçün hər şeydən vacib əsgərlikdir".

Şəhid anası sözünə davam edərək onu da dedi ki, avqustun 23-də yanına getmişdik: "Bu bizim onunla son görüşümüz oldu. Bir aydan sonra müharibə başladı. Pərviz hələ uşaqlıqdan Lələtəpəni görmək istəyirdi. Onun yanına gedəndə gördüm ki, xidmətdə olduğu hərbi hissə dağların arasındadır. Soruşdum ki, ay oğul, elə hey Lələtəpə, Lələtəpə deyirdin, deyəsən arzuna çatmısan. O təkcə Lələtəpə deyil, işğal altındakı torpaqlarımızın hamısının həsrətini çəkirdi, o yerlərin azadlığı uğrunda döyüşmək istəyirdi. Oğlum bu arzusuna da çatdı, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etdi, Vətən uğrunda şəhid oldu".

*V.MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici ölkələrdəki hərbi attaşelərinin və nümayəndələrinin illik iclası keçirilib



**Bu günlərdə cari il üçün təsdiq olunmuş fəaliyyət planına əsasən, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərin nəzdində fəaliyyət göstərən hərbi attaşeləri və hərbi nümayəndələrinin iştirakı ilə illik iclas keçirilib.**

Tədbirin açılışında Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Elçin Abdullayev çıxış edərək hərbi diplomatiyanın inkişafı, beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi və qarşıda duran mühüm vəzifələr barədə ətraflı məlumat verib.

İclasda hərbi attaşelərin və nümayəndələrin ötən dövr ərzində görülən işlər, aidiyyəti ölkələrlə ikitərəfli hərbi əməkdaşlığın mövcud vəziyyəti, eləcə də perspektiv fəaliyyət istiqamətləri üzrə hesabat məruzələri dinlənilib.

Görüşlərdə beynəlxalq hərbi əməkdaşlığın inkişafı perspektivləri müzakirə olunub və hərbi diplomatların qarşısında duran əsas vəzifələrə dair müvafiq tapşırıqlar verilib.

Tədbir çərçivəsində Müdafiə Nazirliyinin baş idarə və idarələri, eləcə də aidiyyəti dövlət qurumlarının nümayəndələri tərəfindən aktual mövzular barədə təqdimatlar təşkil olunub.

Sonra hərbi attaşelər və nümayəndələr Müdafiə Sənayesi Nazirliyinin "İqlim" Elmi-İstehsalat Müəssisəsini ziyarət edərək müəssisənin istehsal imkanları və yenilikləri ilə tanış olublar.

Yekunda iştirakçılar Zəfər parkını ziyarət ediblər.

# Dahi şair Nizami Gəncəvinin Marneulidəki büstü yenidən bərpa olunub

Böyük şair və filosof Nizami Gəncəvinin Gürcüstanın Marneuli şəhərində N.Nərimanov və N.Gəncəvi küçələrinin kəsişməsində yerləşən büstü yenidən bərpa olunub.




AZƏRTAC xəbər verir ki, avqustun 13-də büstün bərpadan sonra açılışı olub.

Açılış mərasimində bildirilib ki, büst bir müddət əvvəl vandalizmə məruz qalaraq zədələnmişdi və onun bərpasına ciddi ehtiyac yaranmışdı. Azərbaycanın Gürcüstandakı səfirliyinin dəstəyi və Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) təşəbbüsü ilə görülən restavrasiya işlərindən sonra abidə yenidən əvvəlki görkəminə qaytarılıb.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev bərpa prosesində əməyi olan şəxslərə və şəhər rəhbərliyinə təşəkkür edib. O, Gürcüstanda Azərbaycan xalqının tarixi, mədəniyyəti və incəsənətinin qorunmasına göstərilən dəstəyin əhəmiyyətini xüsusi qeyd edib.

İki ölkə arasında mədəni əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan səfir bildirib ki, avqustun 17-də Azərbaycandan Gürcüstana böyük rəssam heyəti səfər edəcək. F.Quliyev bu tədbirin də Azərbaycan-Gürcüstan mədəni əlaqələrinin inkişafına töhfə verəcəyini vurğulayıb.

"Bizim irsimiz Gürcüstanda qorunur. Tariximizə, mədəniyyətimizə və incəsənətimizə böyük dəstək var. Bu dəstək bütün illər ərzində göstərilib və bu gün də davam edir", - deyə səfir bildirib.

Onun sözlərinə görə, mədəni əlaqələr Azərbaycan və Gürcüstan arasında siyasi və iqtisadi münasibətlərin inkişafına da öz töhfəsini verir.

Qeyd edək ki, Marneulidə Nizami Gəncəvinin büstü 2012-ci ildə ucaldılıb. 14 il sonra büstün bərpası ilə bağlı işlər həyata keçirilib. Bərpa işlərini rəssam, bədii oyma ustası Qəşəm Süleymanov təmənnasız həyata keçirib. O bildirib ki, büstün bərpasına təxminən 20 gün vaxt sərf olunub.

"Büstü 20 günə bərpa etdim və bu vəziyyətə çatdırdım. Bu iş məndə böyük fərəh hissi yaratdı. Belə görkəmli şairimizin büstünü bərpa edib əvvəlki vəziyyətinə gətirmək mənim üçün qürurverici idi", - deyə Q.Süleymanov əlavə edib.

Bərpa təşəbbüsünün həyata keçirilməsində iştirak edən rəssam Əli İsayev isə görülən işləri Azərbaycan xalqının mədəni irsinə olan borcun yerinə yetirilməsi kimi qiymətləndirib. "Bu, bizim mənəvi borcumuz idi və biz borcumuzu yerinə yetirdik", - deyə Ə.İsayev vurğulayıb.

Tədbir daha sonra Marneulidəki "Azərbaycan Evi"ndə davam etdirilib. Orada N.Gəncəvinin əsərləri səhnələşdirilib. GAK sədri Hüseyin Yusubov, səfirliyin təhsil məsələləri üzrə müşaviri Fuad Çıraqov, Gürcüstandakı Azərbaycandilli Məktəblər Birliyinin rəhbəri Esmira Ələkbərli də Gəncəvinin həyat və yaradıcılığından danışıb, uşaqlar dahi şairin şeirlərindən parçalar söyləyiblər.

Burada Nizami Gəncəvinin zəngin ədəbi irsi, şairin yaradıcılığının Azərbaycan və Gürcüstan xalqları arasında mədəni və ədəbi əlaqələrin inkişafındakı rolu barədə fikir mübadiləsi aparılıb.

Çıxışlarda Nizami Gəncəvi irsinin gələcək nəsillərə çatdırılmasının, onun yaradıcılığının təbliğinin və Azərbaycan-Gürcüstan mədəni əlaqələrinin daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Həmçinin iki ölkə arasında ədəbi və mədəni əməkdaşlığın, qarşılıqlı mədəni layihələrin və bu istiqamətdə həyata keçirilən təşəbbüslərin əhəmiyyətindən danışılıb.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# MAQATE rəhbəri BMT strukturunun sadələşdirilməsini təklif edib

BMT Baş katibi vəzifəsinə namizədlərdən biri olan MAQATE-nin baş direktoru Rafael Qrossi beynəlxalq təşkilatın daxilində bir çox funksiyaların təkrarlandığını və buna görə də onun daha kompakt hala gətirilməli olduğunu bildirib.



O, Britaniyanın "Financial Times" qəzetinə verdiyi müsahibədə deyib: "BMT-ni yenidən yoluna qoymalıyıq... Təşkilatın daha diqqətli və düzgün ölçüdə olmasına ehtiyacımız var". R.Qrossi bildirib ki, buna daha kompakt struktur vasitəsilə nail olmaq tamamilə mümkündür. O, həmçinin qeyd edib ki, bir çox funksiyalar, xüsusən də BMT-nin iqlim və inkişaf proqramları daxilində "təkrarlanır, hətta üçqat və ya dördqat şəkildə..."

Qəzet xatırladır ki, R.Qrossi növbəti BMT Baş katibi vəzifəsinə 5 potensial namizəddən biridir. Namizədlər arasında Çilinin keçmiş Prezidenti, BMT-nin İnsan Hüquqları üzrə sabiq Ali Komissarı Mişel Baçelet, Seneqalın eks lideri Maki Sall və digər siyasətçilər var.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq axtarışda olan şəxs Azərbaycana ekstradisiya edilib

"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 22.01.1993-cü il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşı Əsgərov Ruslan Əli oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatəti Moldova Respublikasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Samux Rayon Prokurorluğunda ibtidai istintaqı aparılan cinayət işi üzrə 1981-ci il təvəllüdlü Əsgərov Ruslan Əli oğlunun sifarişlə qəsdən adam öldürməni təşkil etməsinə əsaslı şübhələr müəyyən olunduğundan, barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə haqqında qərar qəbul olunub və o, istintaqdan qaçıb gizləndiyinə görə beynəlxalq axtarışa verilib. Ruslan Əsgərov Moldova ərazisində saxlanılaraq Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiətilə Azərbaycana gətirilib.

Qeyd edək ki, həmin cinayət işi üzrə daha əvvəl iki şəxs - Mehdiyev Elvin Qardaşəli oğlu (icraçı) və Yusifov Tural Ərəstun oğlu (köməkçi) barəsində ibtidai istintaq Samux Rayon Prokurorluğu tərəfindən yekunlaşdırılaraq cinayət işi baxılması üçün məhkəməyə göndərilib. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə E.Mehdiyev 18 il, T.Yusifov isə 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər.

# Bakıdakı civəli termometr bərpa edilib

Paytaxt sakinlərinin müraciətləri nəzərə alınaraq Bakı Şəhər İcra Hakimiyyətinin binasının qarşısında yerləşən civəli termometr yenidən bərpa edilib. Həmin məkanda termometr hələ sovet dövründə quraşdırılıb və uzun illər şəhərin tanınan elementlərindən biri olub. Termometr müstəqillik illərində də orada olub, lakin sonrakı dövrdə buradan götürülüb.

Termometrin bərpası, sadəcə, nostalji xarakter daşımır. Bu addım Bakının şəhər yaddaşının qorunması, keçmişdən qalan simvolların müasir şəhər mühitinə uyğun şəkildə yaşadılması baxımından da diqqət çəkir. Dünyanın bir sıra məşhur paytaxt və böyük şəhərlərində küçə termometrlərindən istifadə geniş yayılmış şəhər ənənələrindəndir. Hazırda Bakıda isti hava şəraitinin hökm sürdüyü bir vaxtda civəli termometrin yenidən əvvəlki yerində quraşdırılması buradan keçən sakinlər tərəfindən rəğbətlə qarşılanıb.

***"Azərbaycan"***



Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən nazirliyin Tibb Xidmətinin əməkdaşı Nərgiz Pənah qızı Qarayevanın adına verilmiş 1038988A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Kənd Təsərrüfatı Nazirliyi Samuxda baş vermiş hadisə ilə bağlı məlumat yayıb

Kənd Təsərrüfatı Nazirliyi (KTN) Samux rayonu Alıuşağı kəndində baş vermiş hadisə ilə bağlı məlumat yayıb.

KTN-dən AZƏRTAC-a bildirilib ki, nazirlik yanında Aqrar Xidmətlər Agentliyinə daxil olmuş məlumat əsasında Samux rayonunun Alıuşağı kəndində yerləşən heyvandarlıq təsərrüfatında qarayara xəstəliyinə şübhə yaradan hadisə ilə əlaqədar Gəncə şəhər və Samux rayon Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri (HSBX) idarələrinin əməkdaşları tərəfindən təsərrüfatda ilkin epizootoloji araşdırma və baytarlıq tədbirləri həyata keçirilib.

Hadisə yerində təsərrüfatdakı heyvanlara klinik baxış keçirilib, termometriya aparılıb. Ərazi və heyvanların saxlanıldığı sahələrdə dezinfeksiya tədbirləri görülüb, giriş hissəsində dezinfeksiya baryeri hazırlanaraq müvafiq dezinfeksiyaedici məhlulla təmin edilib. Eyni zamanda xəstəliyin mümkün yayılma riskinin qarşısının alınması məqsədilə təsərrüfat ərazisinə heyvan və nəqliyyat vasitələrinin giriş-çıxışı məhdudlaşdırılıb.

Hazırda təsərrüfatda saxlanılan 3 baş iribuynuzlu heyvanda bədən temperaturunun yüksəlməsi müşahidə edilib, həmin heyvanlara baytarlıq mütəxəssisləri tərəfindən zəruri müalicə tədbirləri aparılıb. Bununla yanaşı, hazırkı mərhələdə canlı heyvanlardan laborator müayinə üçün nümunələr götürülməyib. Laborator müayinə məqsədilə məcburi kəsilmiş heyvanın ətindən və hadisə yerindən torpaq nümunələri götürülüb. Bu səbəbdən təsərrüfatda saxlanılan canlı heyvanlarda müşahidə olunan klinik vəziyyətin qarayara xəstəliyi ilə əlaqəli olduğu hazırda laborator müayinələrlə təsdiqlənməyib. Xəstəliyin mövcudluğu və epizootoloji vəziyyət barədə yekun qiymətləndirmə müvafiq laborator müayinələrin nəticələri və sonrakı klinik müşahidələr əsasında təsdiq oluna bilər.

Təsərrüfatda epizootik vəziyyət nəzarətdə saxlanılır, heyvanların klinik vəziyyətinin müşahidəsi və zəruri baytarlıq-sanitariya tədbirləri davam etdirilir.

Qeyd edək ki, Aqrar Xidmətlər Agentliyinin Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri Mərkəzi ilə xidməti müqavilə əsasında fəaliyyət göstərən baytarlıq mütəxəssisləri tərəfindən Gəncə şəhəri və ətraf ərazilərdə, həmçinin Samux rayonu ərazisində xüsusi təhlükəli heyvan xəstəliklərinə qarşı profilaktik tədbirlər həyata keçirilir. 2026-cı ilin birinci yarısında dabaq, qarayara, infeksion nodulyar dermatit, xırdabuynuzlu heyvanların çiçəyi, quduzluq və digər xəstəliklərə qarşı planlı peyvəndləmə tədbirləri aparılıb.

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Nigar Məmmədovaya əzizi

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Xanlar Fətiyev Milli Məclisin deputatı Nigar Məmmədovaya qayınatası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Oruc Zalov xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbərliyi və kollektivi xarici işlər nazirinin müavini Elnur Məmmədova atası

**İSRAFİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Kəlbəcərdə mina partlayıb, bir nəfər yaralanıb

İşğaldan azad edilmiş Kəlbəcər rayonunun Sarıyel kəndi ərazisində avqustun 13-də mina partlayışı baş verib. AZƏRTAC xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətləri birgə məlumat yayıblar.

Bildirilib ki, Tərtər rayonunun Qaynaq kənd sakini 1953-cü il təvəllüdlü Süleymanov Kamran Şükür oğlu minalardan təmizlənməmiş ərazidə mal-qara otararkən mina partlayışı nəticəsində xəsarət alıb.

Faktla bağlı Kəlbəcər Rayon Prokurorluğunda araşdırma aparılır. "ANAMA, DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa, şübhəli əşyalara toxunmamağa, bələd olmadıqları ərazilərə daxil olmamağa, çəpərləmə fəaliyyəti aparılan ərazilərə müdaxilə etməməyə çağırır!", - deyə məlumatda qeyd olunub.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3307
Sifariş 1034

Qiyməti 60 qəpik